**Rafiq Yusifoğlu**

# Sevdalı sabahlar

84(Az)-5

Az2
394

**Rafiq
Yusifoğlu**



# *Sevdalı sabahlar*

MƏCBURİ NÜSXƏ

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 17632

Bakı
Şirvannəşr
2007

*Beynəlxalq Qızıl Priz laureatı (Madrid,2004)*
*Şirvannəşr, 133(1005) 2006*

Kitabın naşiri və redaktoru
**Qəşəm İsabəyli**
Azərbaycan Yazıçılar Birliyinin üzvü

Rəssamı **İlqar Tofiqoğlu**

**Rafiq Yusifoğlu**
**Sevdalı sabahlar. Şeirlər və poema.**
**Bakı-Şirvannəşr-2007**
**240 səh.**

*Əməkdar mədəniyyət işçisi, "Qızıl qələm", "Vətən", "Araz", "İlin ən yaxşı kitabı", "Tofiq Mahmud" mükafatları laureatı, görkəmli şair, ədəbiyyatşünas Rafiq Yusifoğlu çoxlu şeir, nəsr, publisistika, tərcümə kitablarının, ali məktəb tələbələri üçün üç dərsliyin və bir monoqrafiyanın müəllifidir.*

*Şairin "Sevdalı sabahlar" kitabında onun son illərdə yazdığı şeirlər toplanmışdır. Müəllif yeni kitabına "Qəm karvanı" toplusunda dərc edilmiş şeirlərini və eyni adlı poemasını da daxil etmişdir.*

83.3. Аз (2)
R ---------------
054

© Rafiq Yusifoğlu, 2007

*Bakı-Az 1021. Badamdar şos. 77. Тел: 492-92-27,*
*492-93-72, 402-70-94, (050)316-23-40*



# TANRIM İLƏ ÜZ-ÜZƏ

***

Allahım,
çaya axma desən,
axarmı?
Şimşəyə çaxma desən,
çaxarmı?
Gözlərə baxma desən,
baxarmı?
Həvva nənəmizin
bir günahından ötrü
Adəm babamıza
bu zülmləri vermisən, -
Kişi də
arvad sözünə baxarmı?

**27.12.2005**

***

Səni unutduğumuz üçün
Köksümüzdə həmişə
dağ olur, Allahım!
Bəlkə də elə ona görə
övladlarımız üzümüzə
ağ olur, Allahım?!

27.12.2005

***

Allahım!
Sənin ürəyin,
sənin səbrin böyük...
Bizim ruhumuza
od ələmisən.
Qəlbimizi
elə yaratmısan ki,
ləzzət çəkməyə aludəyik, –
Bəs onu bizə
niyə qadağan eləmisən?
Açılan gül gözəl idisə,
sənin əmrinlə
niyə solurdu ki?!
Ləzzətin
nə demək olduğunu bilməyəni
elə daş, torpaq yaratsaydın,
nə olurdu ki?!

**27.12.2005**

***

Mənimlə haqq-hesab çəkməyə
tələsmə sən indi, Allahım!
Əgər mən
naxələf övlad olmuşamsa,
günah sənindi, Allahım!

**27.12.2005**

***

Bu qədər
haqsızlıq olar?! –
Bəbəklərimdə





şimşəklər çaxır.
Ancaq özümə təskinlik verirəm:
Allah təkcə mənim
Allahım deyil,
mənə kələk gələnlərin də
Allahıdı axı?!

**19.12.2005**

***

Mən bu ölümlə
əvvəl-axır
barışmalıyam. –
Ancaq...
Yaratdığını
niyə öldürürsən? –
Ulu Tanrıdan
soruşmalıyam...

**19.12.2005**

## AĞ GÜL

***"...Mən Sizə adi ağ qızılgül yox, sehrli gücə malik, yalnız və yalnız qəlbin gözü ilə görə biləcəyiniz gül vermək istəyirəm... Eh, ağ qızılgül, bir gün səni necə axtarırdımsa, şairi də elə axtaracam, axtaracam, ancaq o da əlçatmaz olacaq..."***

***Bir məktubdan***

Nə vaxtsa
qapqara mərmərdən
yonulmuş sinə daşımı
bir ağ qızılgül
bəzəyəcək.

O ağ gül
qanadında sevgi gətirən
kəpənəyə bənzəyəcək. –
Onu öpüb qoxlamağa
taqətim olmayacaq…
Ancaq o ağ gül
heç zaman solmayacaq…
Sevinəcək sinə daşım da,
kövrələcək xatirə büstüm də…
O ağ gül ağ yelkənə dönəcək
Cənnətə üzən
məzar-qayığımın üstündə…
**8.12.2005**

## HƏVVA NƏNƏ

Həvva nənə!
Nəfsini saxlayıb,
buğda yeməsəydin,
indi Cənnətdə yaşayırdıq
hamımız.
Gözümüzdə qalmazdı
bu qədər
arzu-kamımız.
Buğda nədir ki,
indi sənin nəvə-nəticən
torpaq, daş yeyir.
Bir az artıq qazansın deyə
uf demədən
baş yeyir…
Elələri də var ki,
bir tikə buğda çörəyindən ötrü





dili qısa olub.
Haqqa, ədalətə
qahmar çıxmaq
onun üçün yasaq olub.
Bir buğdadan ötrü
bir nəsli cənnətdən
qovdurdun,
Həvva nənəmiz!
Belə getsə,
başımıza gələcək hava,
nənəmiz!
Nə qədər
Allaha yalvarsaq da,
nə qədər
getsək də minnətə,
yolumuz bir də düşəcəkmi
Cənnətə?
Həvva nənə!
Buğdanı yeyəndən sonra
sevişmək yamanca gəldi
xoşuna.
Bu nə oyun idi açdın
Adəm babamızın
başına?!
Bəlkə də sən haqlısan, –
Şükür eləməliyik
Allahın verdiyi paya.
Bəlkə də
buğda yeyib
yaratmaq eşqinə
düşməsəydin,
biz də gəlməzdik
dünyaya…

Həvva nənə!
Səni sevgi sevincindən
daşındıra bilmədi
nə mələklər,
nə içindən çaylar axan
Cənnət bağı.
Bir də ki,
oğul-uşaqsız,
nəvə-nəticəsiz
nə Cənnət axı?!

16.12. 2005

## DİKTAFONA DEYİLƏN ŞEİR

Ayağımın altında
bəmbəyaz qar xırtıldayır,
Şaxta üzümdən,
yanaqlarımdan öpür...
Allahım elə bil
göylərdən başıma
noğul səpir...
Başımın üstündə
quşlar bəxtiyarlıqla ötür,
Ayaqlarım dovşanların
ləpirini örtür. –
Ovçulardan gizlədikcə
onların izini,
bəxtəvərlər bəxtəvəri
sanıram özümü...
Dinləyirəm həmişə





ürəyimin sözünü, –
O ürəyə görə
çox sağ ol, Allahım!
Sağ ol ki,
qəlbimdəki arzu güllərini
dərmisən.
Çox sağ ol ki,
bu ürəyi
mənə vermisən...
Gözəlliyə gedən yolu
biganələr üçün
bağlamısan.
Çox sağ ol ki,
quşların dimdiyindən
mənə həmərsin,
quşarmudu,
əzgil payı
saxlamısan...

***

Zirvəyə dırmanıb
yorulmuşam,
indi nəfəs dərirəm.
Yazda çiçəklərini
öpüb qoxladığım
həmərsinlərin
indi meyvəsini dərirəm...
Əlimə sancılsa da,
bu yerlərin tikanı,
ürəyimə necə doğmadı,
Allahım,
gözəlliklər məkanı....

***

Həmərsinlər budaqda
qırmızı işıq kimi yanır. –
Qarlı düzlərlə getdikcə
elə bil məni çağırır:
hara gedirsən,
dayan! – deyir.
Aç gözünü xabi-qəflətdən,
oyan! – deyir.
Allahın nuruna
boyan! – deyir.
Kollar ətəyimdən yapışıb,
getmə, dayan! – deyir.
Tanrının hikmətləri
olmadımı sənə əyan? – deyir…
…Bu dünyadan nə ürək,
nə də göz doyan deyil…

**03.01.2006. Qusar.**

***

Mənim həyatım
qışdan başlayır. –
Bəmbəyaz, sopsoyuq qar
ömrümün ilk təməl daşına
çevrilib.
Sonra o qar əriyib, əriyib,
gözlərimin yaşına çevrilib…
Elə ona görə də
həmişə için-için ağlasam da,
dəli bəbəklərimin yaşı
tükənmir ki, tükənmir…
56 ildi ki, səfərdəyəm,
qarlı-çovğunlu yollarımın





daşı tükənmir ki, tükənmir…
Ancaq naşükür deyiləm,
o qarın işığında
heç nəyi olmayan bir insan
zənginə dönüb…
O qarın ağlığı ömrümün
ilk və son renginə dönüb…
Nə vaxtsa ömür çırağım
sönəcək,
qaralacaq.
İlk bələyi
bəmbəyaz qar olan bəxtəvərin
son bələyi də qar olacaq…

**03.01.2006. Qusar.**

***

Kül altında gizləyə-gizləyə
közümüzü,
Uzaq-uzaq yollara dikirik
gözümüzü.
Kiməsə, nəyəsə
qurban verməkdən
çəkinmirik
özümüzü.
Elə bil
bu dünyaya gəlmişik,
qəlbimizdə ağrı, nisgil,
həsrət yükü daşımağa.
Çox zaman unuduruq ki,
İnsanıq,
Bizim də haqqımız var
ürəyimiz istəyən kimi
yaşamağa…

**26.06.2005**

***

Sübh tezdən
meşə yolu ilə
Dərədən dağa sarı
qalxıram.
Dörd yana heyrətlə,
ləzzətlə baxıram.
Meşədə gəzdikcə,
çırpılar
Ayaqlarımın altında
çırpınar...
Bu dağ necə ucadı,
Bu meşə necə dərindi!
Yuxarı qalxanda birdən
Günəş qranatamyot
lüləsi kimi
alnıma dirəndi...
Ürəyimdən keçdi ki,
Ulu Tanrıya əl açım.
Gözəllik önündə
təslim olmaqdan başqa
yoxdu ayrı əlacım...

**28.06.2005.Qusar.**

## VAXT

Ömür yolunda
ərəsən olmuşuq,
Vaxt bizi ağladır,
Vaxt bizi güldürür.
Bəzən biz
vaxtı öldürməyə
çalışırıq,





ancaq unuduruq ki,
Vaxt bizi öldürür...

**16.10.2005**

## PAYIZ

Payız –
düzü-dünyanı
qızılı xəzəllərlə
bəzəyir.
Hər ağac –
budağından
sarı mürəkkəb daman
qələmə bənzəyir...

**16. 12. 2005**

## PAYIZ TƏNHALIĞI

Şeh altında əsən budaq
Ayazdan soraq gətirir.
Tir-tir əsən sarı yarpaq
Payızdan soraq gətirir.

Bu səhər çəni, çiskini
Ürəyimə nələr deyir?!
Çox üzülmə, o vəfasız
Bir gün dönüb gələr, – deyir.

Payızdan soraq gətirən
İlk yağışa islanıram.
Kəməndə düşən günəşi
Buludlara qısqanıram.

Elə bil heç nə olmayıb,
Dalğalar öz işindədi.
Kimsəsiz qalan sahillər
Pıçıldayıb: – Düşün! – dedi...

Hamı, hamı çıxıb gedib,
Sahili tək bəzəyirəm.
Çimərlikdə tir-tir əsən
Son yarpağa bənzəyirəm...

Elə sanıram ürəyim
Torda çırpınan balıqdı.
Dünyada son qismətimiz
Tənhalıqdı, tənhalıqdı...

**04.09.2005**

***

Gözlərim nur aşiqidi,
Gözəlliyin əsiriyəm.
Bəndə mənə neyləyəcək? –
Mən Allahın əsəriyəm!...

**2005**

***

Bir yarpağam, budağımdan
Məni külək qoparacaq.
Allah bilir əsən yellər
Bizi hara aparacaq?

**2005**





***

Biz getməklə bilmirəm
Dünya nə itirəcək.
Məni aparan qatar,
Nəvəmi gətirəck.

***

Harda riya varsa,
Orda yalan var.
Harda eşşək varsa,
Orda palan var.

**15.07.2005**

***

Allah dağına baxıb qar verir,
Ağacına baxıb bar verir.
İnsanın ürəyinə baxıb,
Sevgili yar verir...

**İTİN TOYUĞA SÖZÜ**

Sən murdar şeylər yeyirsən,
Mən undan bişirilən yal.
Bəs niyə iti murdar sayırlar,
Toyuğu halal?

**06.06.2006**

***

Yorğun ayaqlarımı
Şeh öpür.
Sübh günəşi
başımın üstünə nur səpir.
Şair nəfəsindən titrəyir

ağacların yarpağı.
Günəşin şəfəqlərinə
ayna tutur Şah dağı.
Ucalıq həmişə
insan ilhamının
imdadına yetişir.
Günəş də çıxanda
ilk şəfəqləri
uca zirvələrin
üstünə düşür…

**12.08.2006. Qusar**

## YAY SƏHƏRİ

Səhər-səhər gözlərimə
Qara-qara gözlər baxır.
Belə də gözəllik olar? –
İçimdə ildırım çaxır!

Heyrətdən çaşıb qalıram,
Hisslərim qarışıq düşür.
Qara rəngin şəfəqindən
Ürəyimə işıq düşür.

Günəş təzəcə boylanır,
Quşların yuxusu qaçır.
Kol böyürtkən gözləriylə
Yollarıma işıq saçır…

**16.08.2006, Qusar.**





## "DƏM"

Ləzgi toyunun
Zirvəsi "Dəm"di.
Rəqs edənlərin
Çoxusu dəmdi.

Süzür oğlanlar,
Ədalı qızlar.
Gendən baxanın
Ürəyi sızlar.

Meydan qızışıb,
Cavanlara bax! –
Ayaqlar altda
Didilir torpaq.

Sonalar kimi
Süzür gözəllər.
Ürəyə həsrət
Düzür gözəllər.

Təbəssümlərdən
Nurlanıb gecə.
Yar soraqlayır
Hamı gizlicə.

Gülümsünərək
Bir ləzgi deyir:
- Kim rəqs etmirsə,
O, ləzgi deyil.

F. Köçərli adina
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 17632

Qəlbimi saran
Bir xəfif qəmdi,
"Dəm"ə gələnlər
Hamısı dəmdi.

Şırhaşır axan
Çay da sərxoşdu.
Göylərdən baxan
Ay da sərxoşdu.

Sanki üzlərə
Xoşbəxtlik yağıb.
İş yaddan çıxıb,
Güc yaddan çıxıb.

Rəqs edir hamı,
Sükut devrilib.
Dünya bayrama,
Toya çevrilib…

**19.08.2006**
**Qusar, Cibir kəndi.**





## TANRININ SEVGİ PAYI

***

Ay Allah!
Məhəbbətlə yoğrulan
qorxaq bir pıçıltı
Xəstə bir ürək üçün
loğman imiş.
Ay Allah!
Yatmışları oyatmağa
qıymayan bu səs
nə qədər doğma imiş!
Ay Allah, bu səs
cənnət sədası imiş.
Ay Allah, bu səs
utancaq bir sükutun
əbədi odası imiş.
Ay Allah, bu səs
boyat hissləri
təzələyərmiş.
Ay Allah, bu səs
bir sevdalı ürəyi
xoşbəxt eləməyə
bəs eləyərmiş…

**02.05.2005**

***

Bir ildən uzundu
bir saniyə. –
Əzizim, susursan
sən niyə?
Allah bütün yatanları oyatsın!
Sənin də köksündə
dəli bir həsrət boy atsın!...

**02.05.2005**

***

Uyu, yavrum,
Uyu, yavrum!
Uyut dəli hissləri də!
Dünya gülsün gözlərinə
Baxanların gözlərində.
Həsrət qalsın qoy ürəyim
Saçlarının qoxusuna.
Qurban olsun bu məhəbbət
Bir körpənin yuxusuna.

**02.05.2005**

***

Kiminsə mənə
ehtiyacı olanda
tələsik kəsmişəm
başının üstünü.
İsti bir nəfəsə,
Qaynar bir ocağa
ehtiyacım olanda
gözümə üfürüblər
soyuq külü,
acı tüstünü...

**04.05.2005**





***

Yanıb göynəməkdən
qorxum yoxdu, -
Qəlbim öyrəncəklidi oda.
Kiminsə həyatında
olmaq istəməmişəm
artıq adam.
Ehtiyacım da yoxdu
yenidən qəlbimə
simsar tapmağa.
Ancaq ürəyim
həmişə qadirdi
Təzə sevgi məbədi
yapmağa...

**04.05.2005**

***

Belə getsə,
Sən məni itirəcəksən.
Göz yaşlarını
Solan sevgi çiçəklərinə
minnətçi gətirəcəksən.
Əlini çənənə söykəyib,
Köks ötürəcəksən.
Ayrılıq gecələrində
Gözlərin yumulmayacaq, –
Səhərə qədər kirpiklərinlə
od götürəcəksən...

**04.05.2005**

***

Biz ilk dəfə görüşəndə gözlərin güldü,
Sözlərimdən ürəyinə düşdü qığılcım.
Sevgi dolu baxışların xoşuma gəldi,
Köksümüzü paraladı həsrət qılıncı...

Titrək mizrab tuşmu gəldi gərilmiş simə?
Bəxtəvərə döndərdimi zərif qəm səni?!
Baxışların bəbəyimdə düşdü tilsimə,
Ürəyindən nələr keçdi bilmirəm sənin?

Sevgiləri döndəribdir yaz yağışına,
Ömrüm boyu duaçıyam ulu Tanrıya.
Gülüm, gərək çıxmayaydım sənin qarşına,
Başqasını çətin sevə məni tanıyan...

**23.04.2005**

***

*Nigar xanıma*

Bəbəklərimdən boylanan
Qəm səni məyus eləyir.
Kirpiklərim surətini
Gözümdə məhbus eləyir.

İçimdə tufan yaradıb
Nəmli gözün baxışları.
Mənim ürəyimə yağır
Dünyanın qəm yağışları.





Neynim, taleyim belədi, –
Mən havadan nəm çəkənəm.
Bir çimdik sevinc neyləsin
Ürəyinə qəm çökənə?!

**05.05.2005**

***

*Failə üçün*

Deyirsən: -Heç nə bilmirəm,
Mənə şeir yaz, -qurtardı!
Gözümün kökü saraldı,
Qış köç etdi, yaz qurtardı.

Şeir yazmaq asandımı? –
Dinsin könül sazın gərək!
Alnına dodaqlarımla
Bir beyt şeir yazım gərək...

**04.05.2005**

***

Adi bir havadı
Can bədənsiz.
Nə səninlə
yaşaya bilirəm,
nə sənsiz...

***

Yatağını dəyişdi,
Məcrasından çıxdı çay.
Neçə-neçə insanın
Ürəyini sıxdı çay.

Atasız qala bilər
Neçə körpə, atalı.
Yatağını dəyişmək
Xatalıdır, xatalı…

**04.05.2005**

## SƏSİN İŞIĞI

Səsimi eşidəndə,
Səsin işıqlandı.
Səsini eşidəndə,
Mənim də içimdə
İşıq yandı.
Aramıza
hicran dağları düşsə də,
qol-boyundu
bir-birini oxşayan,
əzizləyən səslərimiz.
Bəxtəvərlər bəxtəvərinə
dönürük
Dinlədikcə
içimizdən gələn
səsləri biz…

**22.06.2005**

***

Doğulduğu ocaqda
Ola bilməz köz qərib.
Baxışımdan odlanan
Yanaqların közərib.
Bəbəklərinə baxdım,
Damarımda qan durdu.





Gileyli baxışların
Çox mətləbi qandırdı.
Hicran çıxdı aradan,
Bizdən kənar, yan durdu.
Közərən yanaqların
Dodağımı yandırdı…

**08.07.2005**

***

Körpə bir gülə
Ayaz boylanır.
Otlar qalxdıqca,
Dəryaz boylanır.

***

Məni kövrəldən
İlahi sözdü.
Hər bir kəlməniz
Sanki bir közdü.

Sözlər içində
Bir ocaq çatır.
Qəlbimdə kövrək
Bir arzu yatır.

Həsrət sayrışan
Gözə baxıram.
Ürəyim deyən
Sözə baxıram, –
Sizə baxıram!

**09.07.2005**

***

Bir qız ürəyimi
salıb itirdi,
Tale qismətimə
səni gətirdi.
Sevdalı qəlbimi
özünlə apar,
Biri itirəndə,
o biri tapar…

**2005**

***

-Məni xatırlayırsanmı? –
Könül vermisən yadamı?
-Necə xatırlamaq olar
Unutmadığın adamı?!

**09.07.2005**

***

Kimsənin səadətində
gözün yoxdu.
Vüqarının
upuca taxtından
yerə enmisən.
Gözlərindən
görürəm ki,
mənə deyiləsi
sözün çoxdu, –
Ancaq dinmirsən…

**2005**





***

Sən nə günəş, nə yağış,
nə də küləksən, –
Sən mənim
sevgilimsən!
Qorxma heç nədən,
həmişə sev, gülümsə!

**15.07.2005**

***

***Sevinc xanıma***

Yuxunda görmüsən
Sən mənim yasımı.
Bilmirəm heç necə
Yazıblar yazımı?!
Başıma göylərdən
Xəzəllər ələnib,
Payıza döndərib
Qayğılar yazımı…
Sevdalı qəlbində
sevdiyin kimsəni
Əbədi itirmək qorxusu…
Köksündə əzablı həsrətin
Ürəyi titrədən qoxusu…
…Yuxumda görmüşəm
Mən səni, ay aman!
Buludlar əlindən
Tapmırdı Ay aman.
Cənnətə düşmüşdüm
o gecə elə bil, –
Hurilər içindən

Sən düşdün payıma...
Sevdalı ürəyim
Yenə kam alacaq.
Yoluma dikilən
Gözlərin dolacaq.
Qarşıda sevgi var,
Hicran var,
Əzab var, –
Yuxular nə vaxtsa
Həqiqət olacaq...

***

Dərmisən hicranın acı barını,
Yamanca narahat yatmısan, gülüm.
Məni itirməyin acılarını
O gecə yuxunda dadmısan, gülüm!

Əbədi ayrılıq qəlbini sıxıb,
Sevda göylərində ulduzlar sönüb.
Başımın üstündə şimşəklər çaxıb,
Gözlərin bir topa buluda dönüb...

Dağlardan əsəndə o soyuq külək,
Bir üşüyən yarpaq yuxuma girdi.
Dünyanın işindən baş açmaz fələk, –
İndi də sən mənim yuxuma girdin.

Titrək dodaqların mizrab olmuşdu,
Məhəbbət mahnısı çalırdı tarım.
Sevincdən sənin də gözün dolmuşdu,
Necə xoşbəxt idim o gecə, Tanrım!





Çox yaxın olsa da ruhun ruhuma,
Titrəyən əllərin ovcumdan çıxıb.
Səni gətirdi ki, tale yuxuma
Çəkdiyin əzabın borcundan çıxım...

**15.07.2005**

## YENƏ GİRMİSƏN YUXUMA

Bu nə işdi, yenə gəlib
Girmisən mənim yuxuma?!
Bir ilahi kəpənək tək
Qonmusan mənim yaxama.

Dodaqların yenə dönüb,
Qızılgülün ləçəyinə.
Kirpiyindən şeh süzülür
Arzuların çiçəyinə.

Yenə həsrətli qolların
Boynumda sarmaşıq olub.
Sevda dolu təbəssümün
Gözlərimdə işıq olub...

Arının meyli çiçəkdə,
Arının meyli baldadı.
Titrəyən dodaqlarımda
Dodaqlarının bal dadı...

Eh, belə yuxular görmək
Tale işi, bəxt işidi.
Bu, yuxu deyil deyəsən,
İlahinin bəxşişidi...

Qəlbimə damıb, bu yuxu
Əvvəl-axır çin olacaq.
Əllərin çiynimə qonan
Bir cüt göyərçin olacaq…

05.09.2005

## SEVGİ YURD SALAN ÜRƏKDƏ…

Sən mənə belə söylədin,
Haraya döndü pıçıltın:
–Şeirlərini oxudum,
Neçə paxırın açıldı.

Kim sevsə, səhra könlünə
Qoşun çəkər gül alayı.
İçində olan sevgilər
Ürəyimi cilalayıb.

Səni bircə duyan varsa,
Kədər yükü ağır olmaz.
Sevgi yurd salan ürəkdə,
Ömrüm-günüm, paxır olmaz…

07.08.2005

## GECƏLƏR AY TƏK

Özünə sirdaş
Sanırsan məni.
Yuxun qaçanda
Anırsan məni.





Pəncərənizdən
Girib gecələr,
Sənin yanında
Ruhum gecələr.

Qonur üzünə
İlıq təbəssüm.
Bəxtiyarlıqla
Qabarır köksün.

Telinə dəyib,
Titrəyir əlim.
Sevgi nəğməsi
Oxuyur dilim.

Yuxularına
Keşik çəkirəm,
Bəyaz sinənə
Nur tək çökürəm.

Yorğan üstündən
Sürüşüb yana,
Durub baxıram
Mən yana-yana.

Xəbərin yoxdu
Özündən sənin.
Enib öpürəm
Köksündən sənin.

Gözün yumulub,
Dodağın qaçır.
Yanaqlarında
Çiçəklər açır…

Gecələr Ay tək
Mən də yanmışam.
Başın üstündə
Mən dayanmışam…

***

Meşəni seyr eləyirəm
Qısılıb qoca palıda.
İçimdə leysan gizlənib,
Dönmüşəm qara buluda.

Ömrümə ötən günlərin
Ağrısı, nisgili çöküb.
Yollarına göz dikməkdən
Saralıb gözümün kökü.

Payız gəlib, yenə qəlbim
Dönüb xəzan yarpağına.
Heç bilmirəm yolum bir də
Düşəcəkmi yar bağına?!

**30.09.2005**





## BULUDA YAZILAN SEVGİ

*Artıq buludlara yazıram sənə olan sevgimi…*
***Tünzalə***

Axtarıb məni tapacaq
Buluda yazılan sevgi.
Kirpiklərimin ucundan
Damla tək asılan sevgi.

Yenə buludlar kövrəlib,
Yenə havalar soyuyur.
Üstümdən buludlar ötür,
İçimdə tufan uyuyur.

Heç bilmirəm sığacaqmı
Bir ürəyə iki sevgi?
Bu buludda leysan yatır,
Bu buludun yükü – sevgi…

Yağış başlandı, ay aman,
Damlalar necə iridi?
Alışan köksüm soyudu,
Ağlayan könlüm kiridi.

Öpüb nurlu qədəmini
Sevdalı qəlbim titrəsin.
Qoymaram ki, yerə düşə
Bu yağışın bir qətrəsi…

Yağanda həsrət yağışı
Ürəyimə qəm çökəcək.
Nə vaxta qədər buludlar
Gözlərimdən nəm çəkəcək?!

**01.10.2005**

***

*Mənə elə gəlir ki, Sizin xəmiriniz sevgi ilə yoğrulub.*
*Bu xəmirdən ilk kökə kimə bişib?*
***Bir məktubdan***

Ulu sevgi ocağında
Sevdalı ürəyim bişib.
Çiçək gözündə şeh öpmək
Mənim qismətimə düşüb.

Ləpələrin pıçıltısı
Dönüb qəlbimin səsinə.
Sevgi havası gətirib
Dəniz mehi nəfəsimə.

Dəli könlüm kimi görsə,
Məcnun kimi aşiq olub.
Sevgi damarlarımda qan,
Gözlərimdə işıq olub.

Eşqim dağlar kimi uca,
Eşqim bulaq kimi duru.
Neçə qəlbin zülmətini
Əridib qəlbimin nuru.

Sevgi ilə yoğurubdur
Ulu Tanrı xəmirimi.
Sevənlərə bəxşiş verib,
Mənim sevdalı ömrümü.





Heç bilmirəm bu xəmirdən
Nə qədər kökə bişəcək?
Belə getsə, əvvəl-axır
Sənə də kökə düşəcək....

**19.10. 2005**

## YASƏMƏN

Üzünü görəndən
Dönmüşəm zənginə.
Bu dünya boyanıb
Yasəmən rənginə.

Göylərə çəkilib,
Gözümün yuxusu.
Məni məst eləyib,
Yasəmən qoxusu.

Ətrini duyandan,
İçimdə yaz gülür.
Payızın qisməti
Olarmış yaz gülü...

Əlimdə yasəmən,
Könlümdə Yasəmən.
Üzünü görməsəm,
Bataram yasa mən...

**29.10. 2005**

## VƏFA

Arzu güllərin solmasın,
Qara gözlərin dolmasın,
Üzünü bulud almasın,
Sevən könül çəkər cəfa, –
Vəfa! Vəfa!

Bəbəyində şimşək çaxır,
Gözlərindən nisgil yağır,
Heç darıxma, əvvəl-axır
Sevgilin gələr insafa, –
Vəfa! Vəfa!

Tənha qoyma yalquzağı,
Yamandı həsrət sazağı.
Zamanın hisi, pasağı
Neyləyəcək qəlbi safa? –
Vəfa! Vəfa!

Çox-çox "böyüklər" kiçilib,
Yaxşılar pisdən seçilib,
Sənin boyuna biçilib
Təmiz ilqar, əhdə vəfa, –
Vəfa! Vəfa!

**31.10.2005**





***

*Yalnızlıq – gecələrin, ümid – gözləyənlərin, təbəssüm – dodaqların qismətidir. Qoy Sizin dodaqlarınızdan təbəssüm əskik olmasın, mənim sevimli müəllimim.*

***Vəfa***

Səninlə tanış olmuşam,
Taleyim üzümə gülüb.
Hər şeyin bir vədəsi var,
Qönçə ikən üzmə gülü.
Xəyallar həqiqət olar,
Ümidini üzmə, gülüm…

**31.10. 2005**

***

*"Sizə bir göyərçin göndərirəm, ürəyində sevgi, qanadında xoşbəxtlik, dimdiyində öpüş var…"*

***Bir mesajdan***

Mənə bir quş qanadında sevgi göndərən gözəl,
Həyəcandan əsən qəlbim göyərçinə bənzəyir.
Ürəyimin zülmətini nura döndərən gözəl,
Tir-tir əsən varlığımı məhəbbətin bəzəyir…

Elə bil ki, sən görürsən ürəyimin içini,
Eşqimizin çiçəyini saralmağa qoymaram.
Dimdiyində mənə öpüş gətirən göyərçini
Gecə-gündüz öpüşlərə qərq eləsəm, doymaram.

**14.12.2005**

*"Siz yaşamaqdan əl çəkmiş bir insanı ruhlandırmağı, onu himayə etməyi bacararsınızmı? İşıq üzünə həsrət qalan qızın Sizə çox böyük ehtiyacı var."*

*Gülnar*

Yazırsan ki, sevən qəlbin
Həsrətdi işıq üzünə.
Sevgi işıq deyilmi bəs? –
Al günəşin çıx üzünə!

Köksündə həsrət buludu,
Gözündə yaş giləl追nib.
Mənə yazdığın məktubun
Hər sətrinə gül ələnib.

Göz yaşıyla cilvələnən
Nə qədər həsrət çayı var.
Heç üzülmə, bu dünyada
Hərənin bir nur payı var.

Ümidsizlik güvəsiylə
Bir ömrü çürütmək olar.
Qəlbin zülmətini yalnız
Sevgiylə əritmək olar.

Tanrı sevdiyi bəndəni
Ağ günə yetirəsidi.
Göz yaşı – sevən ürəyin
Şəfəq saçan qətrəsidi.





Sözlərini oxuduqca
Ürəyim yarpaq tək əsir.
Gözündə yaş olan kəsin
Qəlbində zülmət nə gəzir?

Sevgiyə möhtac qəlbini
Məhəbbətlə dindirəcəm.
Əvvəl-axır ürəyini
Gülüstana döndərəcəm…

**7.12.2005**

## MƏNƏ ƏZİZİM DEYƏN QIZ

***"Kimyaçının duyğularına diqqət etməyən əzizim – Rafiq müəllim, öncə salam! …Bilmirəm niyə, ancaq Sizinlə qarşı-qarşıya durmaqdan ehtiyat edirəm… Sizi sevənləri həmişə xatırlayın…"***

***Bir məktubdan***

Yazırsan: – Məni unutma! –
Bəbəyimdə şimşək çaxır.
Üzünü görmədiyimi
Necə xatırlayım axı?!

Əlim əlinə dəyməyib,
Gözüm gözünə baxmayıb.
Şeirlərim qana dönüb
Damarlarında axmayıb.

Bəbəklərimdən boylanan
İntizarı görməmisən.
Ürəyimdə qönçələyən
Çiçəkləri dərməmisən.

Haqqın nuruyla yoğrulan
Səsimi dinləməmisən.
Həsrətimdən kaman kimi
Sübhədək inləməmisən.

Nəfəsimin qaynar odu
Yanaqlarını qarsmayıb.
Həsrətim kirpiklərindən
İki gilə yaş asmayıb…

Bəs onda necə olub ki,
Mənə belə vurulmusan?!
Sellər kimi axıb, axıb,
Bulaq kimi durulmusan?!

Məhəbbətin yollarında
Dalğalı dəniz olasan.
Mənə əzizim deyən qız,
Həmişə əziz olasan!

**8.12.2005**

***

Üz-üzə dayandıq, –
Qorxdum
o gözlərin qarasındakı
əksimdən.
Öpmək istədim
üzündən,
gözündən,
köksündən…
Ancaq özümü
zorla saxladım,





vaz keçdim bu yolu
seçməkdən.
Qorxdum
ağ çiçəyin üstünə
kəpənək qanadlarının
kölgəsi düşməkdən…
Nəfəsimdən
nanə yarpağı kimi əsən
ürəyin iztirablarını
artırmaq istəmədim.
Mən bu dəli istəyin yolunda
cəza çəkməyə də
hazır idim,
ancaq səni
günaha batırmaq
istəmədim…

**16.12.2005**

***

*"…Sənin qayğına qalmaq, başına sığal çəkmək istərdim, bir ana kimi…"*

*Bir məktubdan*

Qəlbimdəki həsrət odunu
qayğınla, nəvazişinlə
soyutmaq istəyirsən.
Ana kimi
məni öpmək, oxşamaq,
ürəyimi ovutmaq istəyirsən…
Onun yerini
heç kəs tuta bilməyəcək
son ana kimi. –
Bizi kim ovundura bilər axı

ana kimi?
İçimdə tufan kükrəyir, –
Hazır ol döyüşə sən!
Sevgilini dəyişmək
mümkündü,
ancaq ananı
kiminlə dəyişəsən?!

**23.12.2005**

***

*"Bəlkə yetimliyini danırsan? Baxışlarında, qəlbinin nisgilində onu sezmək olur. Anasını itirən körpəyə bənzəyirsən. Hər qadında, qızda onu axtarma, özünü aldatma..."*

***Bir məktubdan***

Aramızda okeanlar,
çaylar durur.
Aramızda
sıldırımlı illər,
aylar durur.
Çətin, çətin
sənə yetim!
Həsrətinin alovuyla
ütülürəm ütüm-ütüm.
Anadan yetim qalmışdım,
sevgidən də
qalım yetim?!

**24.12.2005**





***

*"Sən ucsüz-bucaqsız sahil, mən qoynuna qonaq gələn ağ bir daş. Məni bağrında saxlama!*

***Bir məktubdan***

Sənə dənizin
dalğasından qopan
ağ daş bağışladım ki,
ağ günə çıxasan.
Demədim ki,
anamın ağ südünə çevrilib
damarlarımda axasan!
Ürəyin bulud kimi dolanda,
Özün də sevgi ilə
dinmisən.
Sən mənim bağrımda
ağ daş deyilsən,
sən mənim damarlarımda
ağ dalğaya
dönmüsən...

**25.12.2005**

***

Nazlı xanım, nazlı xanım,
Nazına qurban mən olum.
Çoxu özgəyə qismətdi,
Azına qurban mən olum.

Elə bilmə gözündəki
Məhəbbəti duymamışam.
Ancaq qəlbini dərdlərə
Bələməyə qıymamışam.

Məni də yoldan elədi
Ürəyini deşən sevda.
Günahlardan çox ucaymış
Gözlərindən daşan sevda.

İçimdə həsrət cücərtdi
Şəvə saçlarının ətri.
Cəza çəkməyə dəyərmiş
Bu böyük sevgidən ötrü…

**04.01.2006.Qusar.**

***

Bu ilin ilk nəğməsini
Mən sənin adına yazdım.
Ürəyimi illər boyu
Odlayan qadına yazdım.

Elə bil fırtına qopdu,
Mizrab dəydi sarı simə.
Gözəllərə nəğmə qoşan
Qələmim düşüb tilsimə.

Bu nə işdi, ürəyimdə
Təzə sevgilər boy atmır.
Kül altında mürgüləyən
Közümü kimsə oyatmır.

Bəlkə sevdalı ürəyim
Səninçün köks ötürürmüş?
İllər boyu məni yollar
Sənə sarı gətirirmiş?!





Yoxsa sevgi ocağımın
Sən odunu alacaqsan?
Bəlkə mənim həyatımın
Son qadını olacaqsan?

**28.01.2006**

***

Yenə yuxuma
gəlmişdin,
Yenə məni
bəxtəvərlər bəxtəvərinə
döndərmişdin.
İçimdəki ağrını, nisgili
əbədiyyətə
göndərmişdin.
Təbəssümün
gözlərimin qarşısında
sevgi çələngi
toxuyurdu.
Dodaqların dodaqlarıma
məhəbbət nəğməsi
oxuyurdu…
Sən bir bulaq idin,
Mən suyunu
qurtum-qurtum içməkdən
doymurdum.
Məhəbbətlə
gülümsəyən gözlərin
Məni rahat qoymurdu.
Tənhalıqda inləyən könlünü
Güldürdüm səhərəcən.
Bəmbəyaz köksündən

gül dərdim səhərəcən...
Səni görəndən
əllərim ürəyimin
üstündədi, əzizim.
Bu qədər yuxuma girməkdə
qəsdin nədi, əzizim?
Röyamda olsa belə,
Məni bəxtəvərə döndərən
Sənin məhəbbətindi...
Ancaq...
İçimi dolduran
Sevincə
Yuxu demək də çətindi...

**10.03.2006**

## YUXU

Adamların arasında
səni yuxuda necə gördüyümü
soruşursan --
Bu hisslə mən də tanışam.
Ancaq imkan ola
sənə yuxumu
dodaqlarımla,
əllərimlə danışam...

**14.03.2006**

## NAR ÇİÇƏYİ

Nar çiçəyi, nar çiçəyi!
Nə vaxt verər bar çiçəyin?
Əyil ləçəyindən öpüm,
Soldurmamış qar çiçəyi...





## BU İLKİ BAHARIMIN İLK SEVGİ ÇİÇƏYİ

"Yolunuzda uğurlar tumurcuqlasın. Yaz yarpaqları kimi ürəyinizdə çiçəklər açılsın. Sizi sevən və vurğununuz **İlahə**"

Gözəlləri vəfasız görüb,
için-için
köksümü ötürdüm.
Bütün sevdalara
"əlvida!" demək istədiyim
bir məqamda
Tanrım səni
İlahə cildində
ömrümə gətirdi...
Tale yazısı
yenidən üzümə güldü,
yenidən məni qalib,
yenidən məni
ər etdi...
İlahi nuruna
bələnmiş səsin
qəlbimin zülmətini
əritdi...
Yenidən içimdə
sevgi çiçəkləri işardı.
Yenidən bəbəklərim
məhəbbətlə yaşardı...
Sevgisi xəzan
yarpaqları kimi
uçub getmiş
qupquru budağa

bənzəyən ürəyim
tumurcuqladı.
Həsrətli bəbəklərimdə
sevinc giləleri muncuqladı...
Gözlərimdə sonuncu ümid işığı,
saçlarımda dən oldun, əzizim.
Bu ilki baharımın
ilk sevgi çiçəyi
sən oldun, əzizim...

**22.03.2006**

## BU İLİN İLK YAZ YAĞIŞI

İsti günlər sənin olsun,
Taleyimə yaz yağışı!
Qəlbimə sevinc gətirdi
Bu ilin ilk yaz yağışı.

Neçə-neçə qərib damla
Bəbəyimdə gecələdi.
Gözlərim döndü buluda,
Həsrət mənə güc elədi.

Damarımda qana döndü
Bu yağışın hər giləsi.
Perikən eşqi dönənin
Qəlbi çətin mürgüləsin.

Bu ilin ilk yaz yağışı
Bir çiçəkli nəğmə yazdı.
Kirpiklərimin ucundan
Bir nəvə yüyrüyü asdı...

**16.03.2006**





***

Niyə insanların
tənəsindən qorxuruq?
Niyə qulaq asa bilmirik
qəlbimizin səsinə?
Niyə həsrət
yaşamalıyıq axı
dəlicəsinə sevdiyimiz
insanların nəfəsinə?
Heç zaman
isinə bilməzdik
sevgi ocağının istisinə,
Həmişə gözümüzə
tüstü dolardı.
Bəlkə də ürəyimiz
istəyəni eləsəydik,
Dünya alt-üst olardı?!

**06.06.2006**

## GÜLƏYƏN QIZ

**Şəhla üçün**

Güləyən qız, nəyə görə
Gülüşündən qəm süzülür?
Gözlərində yaş görəndə
Əlim dünyadan üzülür.

Yazırsan: təbəssüm olub
Bu sevginin bünövrəsi.
Qoymaz həyat adiləşə
Məhəbbətin qadir səsi.

Səninlə hər görüşəndə
Sevgi qaynayır gözümdə.
Gülüşün şimşəyə dönür
Bulud oynayan üzündə.

Bəbəklərindən boylanır
Xatirələr qoşun-qoşun.
Hər damlasında mən varam
Gözündən sellənən yaşın.

Elə bil ki, təbəssümün
Nur saçan sehrli güldür.
Güləyən qız, güləyən qız,
Ağlayan könlümü güldür...

**17.06.2006**

## MƏNİM DÜNYAM

*Sizin dünyanıza qapılanda özümü də, dünyanı da unuduram.*

*H.Şəhla*

Yazırsan ki,
məni dünyalar qədər sevirsən.
Ancaq bilirsənmi
səni nələr gözləyir
üzünü mənə sarı çevirsən?
Nəmli kirpiklərin titrəyəndə
ürəyim bir cüt sarı sim olur.
Gah bəxtəvərlər bəxtəvərinə
dönürəm,
Gah da içimdə





ağrılar, əzablar hakim olur.
Bir yanda udanlar,
bir yanda uduzanlar –
Dünya başdan-başa oyundu...
Kimisi qurddu,
Kimisi qoyundu.
Mənim həzzim
həmişə iztirablarla qol-boyundu.
Unutma ki,
əgər sehrli dünyama girsən,
həmişə bir gözün güləcək,
bir gözün ağlayacaq.
Bəbəklərindən
nisgil boylanacaq,
yanaqlarından
həsrət selləri çağlayacaq.
...Ən çox getdiyim toy-düyündü,
yas yeridi...
Mənim dünyam
Cənnətlə Cəhənnəmin
təmas yeridi...

**18.06.2006**

## BAĞIŞLA

Nə bilir eşqin dadını
Kimin ki, ürəyi buzdu?!
Sevgi – göz göynədən tüstü,
Yaraya səpilən duzdu...

Dözər hər dərdə, əzaba,
Sevənlərə zaval yoxdu.
Bağışla, sənin qarşında
Mənim günahlarım çoxdu...

Ömrüm boyu bir kimsənin
Ağrısına gülməmişəm.
Mən sənə sevgidən başqa
Bir şey verə bilməmişəm...

## ÜZÜMÜZ YAZA DOĞRUDU

Qara-qara buludları
Şimşəklər kəsdi, doğradı.
Bu qışdan da belə çıxdıq,
Üzümüz yaza doğrudu...

Narın bir yağış ələnir,
Dağ-daş danışır adamla.
Həsrətin mənim üstümə
Səpələnir damla-damla.

**18.06.2006**

***

Ürəyimi oda salıb,
Bir gül üzlü nigar, anam.
Nə vaxtdandı çıxıb gedib,
Ondan yaman nigaranam.

Bəsdi susdun, həyatını
Bu gözələ həsr et daha.
Göynəyirəm için-için,
Sevgi ucuz, həsrət baha...

**20.06.2006**





***

Məni dənizə qısqanırsan,
ancaq dənizin yerini
verə bilməzsən.
Sən mənim
dalğalı ürəyimin
gülünü dərə bilməzsən.
Köksündə sevgisi
dəniz olmayan
Dənizin ləzzətini
çətin dada!
O mənə həmişə
eyni gözlə baxıb:
uşaq olanda da,
cavan olanda da,
qoca olanda da...
Ən ağır anlarımda
əsəblərimə sığal çəkib –
Səfalıdı, şəfalıdı.
Nə qədər vəfasız gözəl
yola salmışam,
Dəniz isə həmişə vəfalıdı.
Yolumu aza bilmərəm,
İmanım
bircə dinədi.
Özümə yüz sənin kimi
sevgili tapa bilərəm,
Xəzər isə bircə dənədi...

**20.06.2006**

## BU PAYIZ

*Payız üçün darıxdığım kimi Sizin üçün də darıxıram. Ona tələsdiyim qədər Sizə də tələsirəm. Amma düşünməyin ki, payız ömrü qədər sevilirsiniz.*
***N.Məlahət***

Bu payız ömrümüzü
sevgi ilə bəzəyəcək.
Bəbəklərin
həsrətdən saralan
bir cüt yarpağa
bənzəyəcək.
Boş vədlər
kimə lazımdı? –
Sözümüz nə vaxtsa
dağ olacaq.
Xəzan yarpaqlarına
bənzəyən saçların
sinəmin üstünə
dağılacaq.
Sellənib bulanan çayları
nə vaxtsa
durulmaq gözləyir.
Yarpaqlar budaqdan
ayrılanda,
bizi bir-birimizə
sarılmaq gözləyir...

**10.07.2006**





## SEVGİ İLAHƏSİ

Qəlbimin buzları çevrilib selə,
Sevgi ilahəsi izimə düşüb.
Sənin göndərdiyin bir mesaj ilə
Qələmim, ilhamım tilsimə düşüb.

Çatmadım bu eşqin uc-bucağına,
Titrək təbəssümə bükdüm qəmimi.
Çevrilib bir Bermud üçbucağına,
Qoynuna çəkmisən sevgi gəmimi.

Uzaqda işarır tale ülkəri,
Nə var kimi varam, nə yox tək yoxam.
Bulud gözlərini görəndən bəri
Həsrətin əlində qalıbdır yaxam.

Yurd sala bilməyib ürəyimdə kin,
Hər sözün ruhumu qəmə bələyib.
İlahi nəfəsin ürəyimdəki
Ötən sevgiləri xəzan eləyib.

Mənə yox deməyib kimdən pay umsam,
Bircə çiçəklə də ömrüm yaz olub.
Bəlkə sən sonuncu sevgi payımsan,
Bəlkə taleyimə adın yazılıb?!

Qəlbə nə lağ etmək, nə gülmək olar,
Bulud dolmayıbsa, yağası deyil.
Allahın işini nə bilmək olar,
Heç kəs taleyinin ağası deyil...

**25.07.2006**

## SƏNİN SEVDALI GÖZLƏRİN

Yenə də üz-üzə gəldik,
Bütün dünyanı unutdum.
Sənin sevdalı gözlərin
Bir cüt qapqara buluddu.

Mehriban təbəssümündən
Varlığıma gül ələnib.
O ilahi gözlərə bax,
Nəğmə ilə silələnib.

Bəbəklərinin içində
Çaxar sevda şimşəkləri.
O gözlər qoyarmı sola
İlhamımın çiçəkləri?

**25.07.2006**

***

Qəlbinin sözünə bax,
Elə sev ki, İlahəm,
Hamıya örnək olsun
Mənim sevgi İlahəm...

**26.07.2006**

***

Həsrət dolu misralarım
sənə doğru
gedən yoldu.
Təzə şeirlərimi
qəlbim əsə-əsə
sənə oxuyanda,





Gözlərin
bəxtəvərliklə doldu.
Misra qollarımla
səni bağrıma basdım,
Sevda dolu
nəğməmin ardını
öz titrək dodaqlarımla
Sənin həyadan
od tutub yanan
üzünə yazdım...

**26.07.2006**

## BİR CÜT SEVGİ ADASI

Gecələr köks ötürürsən
Ayrılığa sinə gərib.
Pəncərənin qarşısından
Boylanırsan qərib-qərib.

Söylə, qəlbinin başında
Mənim sevgi odam varmı?
Bu şəhərdə sənin üçün
Məndən doğma adam varmı?

Bənövşə məhəbbətimin
Üstündən ayaz çəkilib.
Bir cüt yarpağa bənzəyən
Gözlər yoluma dikilib...

Sevda dolu bəbəklərin
Silələnibdir yaş ilə.
Sənin gözlərinin rəngi
Ay aman, çalır yaşıla!

Dəli könlüm söyləyir ki,
O gözəlin qadasın al!
Yaşıl bəbəklər mənimçün
Dönüb sevgi adasına!

**29.07.2006**

## OXATAN

Ay Oxatan, ay Oxatan!
Ürəyimi paraladın.
Öz nəmli kirpiklərinlə
Bir Oğlağı yaraladın.

Ay Oxatan, ovun qanlı!
Gözlərin niyə yol çəkir?
Bu sevgiyə bəlkə elə
Tanrının özü qol çəkib?!

**29.07.2006**

***

Nə vaxtsa
tənha qalacağımı
ürəyim duymuşdu.
İllərin ayrılıq xəzanı
sevgi ağacımı
lüm-lüt qoymuşdu.
Yaz yelinə
bənzəyən nəfəsin
içimdəki duyğuları oyatdı.
Ürəyimdə bənövşə görkəmli
bir sevgi boy atdı.
Bilməzdim ki,





pərişan baxışlarımı
görəndə
sevdalı gözlərin
bahar buludu kimi
dolacaq.
Bilməzdim ki,
bu ilki sevgi dünyamın
yarpaqları
sənin yaşıl gözlərin
olacaq...

**30.07.2006**

## SƏNİN GÖZLƏRİNİN CAZİBƏSİNDƏ

Sənin də haqqın var xoşbəxt olmağa,
Gözlərin nə qədər göz yaşı töksün?!
Daha taqətim yox gendə qalmağa,
Köksümə can atır sevdalı köksün...

Olub qamətinə əsir ürəyim,
İlahi sehri var incə səsində.
Çırpınır ürəyim, əsir ürəyim
Sənin gözlərinin cazibəsində.

Nə qədər sevdalı gözlər dolacaq?
Onlara həsrətlə baxıram, gülüm!
Öpməsəm, ürəyim çat-çatolacaq,
Öpsəm, ayrılıqdan qorxuram, gülüm...

**14.08.2006.Qusar**

***

Deyəsən
xətrinə dəymişəm,
Üzünü məndən
döndərmisən.
Yazdığım nəğmələri də
acıqla
"geriyə göndərmisən".
Göyün üzünü buludlar bəzəyir
yağış qabağı.
Yalnız sevənlər bacarır
bağışlamağı...

**14.08.2006**

***

Sən mənim yaralı könlümü
sevgi ilə dindirə bildin.
Sən kükrəyən sevgi çayıma
baxışlarınla bənd vurub,
suyunu özünə sarı
döndərə bildin...

**14.08.2006**
**Qusar**

***

Qəlbimiz murada yetməyib hələ,
Qarşıdan ağ günlər səsləyir bizi.
Nə yaxşı ömrümüz bitməyib hələ,-
Sevdalı sabahlar gözləyir bizi...

**14.08.2006 Qusar**





***

Sən mənim şeirlərimi oxuyanda
bulud kimi dolursan.
Göylərdən gələn bir huri,
mələk olursan.
Həyəcandan köksün qabarır,
səsin titrəyir.
Dilin topuq çalır,
"büdrəyir"...
Səsini dinləyən işıqlı salon,
qaranlıq gecə xoşbəxtdi...
Sənin səsinə bələnmiş hisslərim
bilirsən necə xoşbəxtdi?!
Sən mənim şeirlərimi oxuyanda
sevdalı bəbəklərindən,
nəmli kirpiklərindən
ulduz dərirəm.
Mən sənin səsini
təkcə eşitmirəm,
həm də görürəm...

**16.08.2006**

## DƏYİRMAN ÖZ İŞİNDƏDİ

Durnanın qərib köksünü
namərd qurşunu ağrıdır,
İçindəki həsrət seli
gözün yaşını yandırır.
"Bu yaşda məhəbbət olmaz", –
hey mənə öyüd verirsən, –
Dəyirman öz işindədi,
çax-çax başını ağrıdır...

**16.08.2006**

***

Gül təzədi, gül tərdi,
Məni üzdü gül dərdi.
Sənin sevgi bağından
Şükür olsun, gül dərdim!

***

Yoxsa dostum, həyanım,
Ha alışım, ha yanım.
Məhəbbətin hökmüylə
Atdıq abır-həyanı.

## HƏYATIM

Qışım, payızım, yazım,
Sevgi dolu avazım,
Dillənən könül sazım,
Şirin nəğməm, bayatım,
Həyatım!

Dərdimi bilmirsənsə,
Üzümə gülmürsənsə,
Yuxuma gəlmirsənsə,
Havayıdan ha yatım?! –
Həyatım!

Elə baxma ağlayıb,
Qəlbin buzmu bağlayıb?
Səni gül tək qoxlayıb,
Necə kənara atım? –
Həyatım!





Dərib sevgi barından,
Uyuyum qollarında.
Məhəbbət yollarında
Qoy ucalım, boy atım,
Həyatım!

Məni eləmə sürgün,
Şair könlümlə sür gün!
Yuxudan səni hər gün
Öpə-öpə oyadım,
Həyatım!

Can neyləsin bədənsiz?
Dağ olmaz duman-çənsiz.
Mən əgər qalsam sənsiz,
Viran olar həyatım,
Həyatım!

**02.09.2006**

## NİYƏ

Səhər səhər sahildə
Yer tapmıram özümə.
Niyə günəş sevgiylə
Gülümsəmir üzümə?

Niyə dəniz dəyişib
Ahəngini, rəngini?
Niyə qoymur başıma
Öz dalğa çələngini?

Niyə fəğan eləmir,
Xəzərin qəlbi daşmı?
İçimdəki dalğalar
Niyə kükrəyib daşmır?

Nəyə görə işarmır
Kül altda qalan közüm?
Boylanıram hər yana,
Niyə dörd olub gözüm?

Niyə qəlbim dənizə
Baş vurmağa tələsmir?
Niyə köksümdə ürək
Sevincdən tir-tir əsmir?

Ləpələr cavab vermir
Sinəmdən qopan aha. –
Sahildə bir qız vardı,
O, gözə dəymir daha.

Elə bil içimdəki
Həyat eşqi səngiyib.
Bəlkə indi gələcək,
Bəlkə o qız ləngiyib?

Bu dünyanın işləri
Qəribəymiş, qəribə.
Onsuz doğma sahildə
Elə bil ki, qəribəm.

Sən demə təbiətin
Yaraşığı bəşərmiş…
Bir qızın yoxluğuyla
Dəniz adiləşərmiş…

**03.09.2006**





## DİBİNDƏN SU ÇIXAN AĞAC

Məst olub bahar yelindən,
Dağların axan selindən,
Yapışıb günün telindən
Buludlara qalxan ağac.

Dünyanın gözəl çağında
Bitmisən sevgi bağında.
İti balta qabağında
Olmayasan qalxan, ağac!

Nəğmələr yatır dilində,
Sevgi yurd salıb könlündə.
Dəli küləyin əlində
Qalıb sənin yaxan, ağac.

Kölgənə gələndə qızlar,
Ürəyin sevgidən sızlar.
Daha sənin nə dərdin var,
Dibindən su çıxan ağac?

**10.08.2006**
**Altıağac**

***

Sənin sevdalı ürəyin
Göylərin quşudu, nədi?
Tapdayıb keçmə qəlbimi, –
Yolların daşıdı, nədi?

Baxışın yandırıb-yaxan,
Həsrətin əlində yaxam.

Sübhədək üstümə yağan
Gözünün yaşıdı, nədi?

Dilin söz ilə oynayır,
Qaşın göz ilə oynayır,
Əlin köz ilə oynayır, –
Barmağın maşadı, nədi?

**30.09.2006**

***

Gör kimdə gəzirəm dərdə dəvanı? –
Mən səni öpürəm, sənsə havanı.
Öyrənmiş bir cana neyləyəsidi
Sevgi fırtınası, sevgi tufanı?!

**2006**

***

*Sənin görüşünə gül dərmək üçün*
*Sinəmə çəkdiyin dağa çıxmışam.*

***Bir mesajdan***

Duyuram ki,
ayrılıq sənə yamanca
güc eləyib.
Ürəyinə çəkdiyim
dağın üstündə
sevgi çiçəkləri qönçələyib.
Ömrünə qəm buludu çökəndə
Sevdalı gözlərində
həsrətim gecələyib.

Duyuram ki,
həsrətdən çat-çat olan köksün





sevgimlə dönəcək
ətirli bir çəmənzara.
Bəlkə də
bir ac arının öpüşlərindən
nə vaxtsa gələcək
çəmən zara.
Bilmirəm ki,
qəlbimi necə verim
bəbəklərindən sevgi daman
bir qaşları çatmaya.
Ancaq köksünə çəkdiyim dağ
o qədər ucadır ki,
Qorxuram ki,
heç ora ünüm yetməyə,
əlim çatmaya...

**24.10.2006**

## MƏNİM KİRPİYİMƏ QONAQ GƏLƏN QIZ

*Bir damla yaş kimi qopub gözündən*
*Sənin kirpiyinə qonaq gəlmişəm.*
*Qırpma kirpiyini, çıxma sözümdən,*
*Qaranlıq dünyana çıraq gəlmişəm.*

*Bir mesajdan*

Sevdalı köksünə həsrətim hopub,
Qəlbi ağlasa da, gözü gülən qız.
Bir gilə yaş kimi gözümdən qopub,
Mənim kirpiyimə qonaq gələn qız.

Nələrə qadirmiş o bir damla su? –
Az qalır gül aça kirpiklərim də.
Sənin həsrətinin iki damlası
Bir yellənçək asıb kirpiklərimdə.

Çox zillət çəkmişəm indiyə qədər? –
Ürəyin həssasdı, hiss eləyəcək.
Onsuz da o məni duymasa əgər
Məhəbbət çırağın his eləyəcək...

Ayıra bilirəm xalisi, qəlpi,
Sənin göz yaşların niyə soyuqdu?
Qonaq-qaralıdı onsuz da qəlbim,
Heyf ki, sahibi, yiyəsi yoxdu...

**24.10.2006**

***

*Sevinc üçün*

Mənə bir cüt qələm alıb,
Dincliyimə qələm çəkdin.
Əl vuranda, köhlən kimi
Şahə qalxdı, qələm səkdi...

Biri çevrildi Qırata,
Biri çevrildi Dürata.
Hey çapdılar sənə doğru, –
Nə vaxt yetəcəm murada?





O atların gözlərindən
Vərəqlərə yağış yağdı.
O atların ləpirindən
Sevda çiçəkləri qalxdı...

***

Mənə aldığın qələmlərin
biri qırmızı,
biri qaradır.
O qələmlər ürəyimdə
qəribə duyğular yaradır...
Elə bilirəm ki,
onların biri mənəm,
biri sən...
Onsuz da əvvəl-axır
biləcəksən
qəlbimi göynədən
sirri sən.
O qələmdən süzülən
həsrət dolu misraları
oxuyanda
sevdalı gözlərin
dolacaqmı?
Onlar qələmdanda
qoşa uzandıqları kimi
bizə də sevgi kəcavəsində
baş-başa vermək
qismət olacaqmı?

**06.11.2006**

# SEVDA DÜNYAMIZIN QARANQUŞLARI

## MƏN ÖZ TALEYİMDƏN RAZIYAM

Mən öz taleyimdən razıyam, gülüm,
Yolumun üstündə bitirib səni.
Keçirib zamanın neçə qışından
Ömrümə, günümə gətirib səni.

Bu yaşda qismətim gülüb üzümə,
Baxışın əridib qəlbimdə kini.
Bircə yol baxdınmı həsrət gözümə,
Oxuya bilirsən qəlbimdəkini.

Gözlərin bulaq tək durudur, duru,
Ürəyim saçında kəməndə düşüb.
Qəlbimə sənətin ecazkar nuru
Bəlkə sən dünyaya gələndə düşüb?

Hələ tərk etməyib könlümü bahar,
Adını çəkəndə dilim sevinir.
Yaxşı ki, sən varsan, o əllərin var,
Onlara dəyəndə əlim sevinir...

Kül altda uyuyan qızıl köz varsa,
Ocağı dünyadan köçməyə qoymaz.
Məni məhəbbətlə süzən göz varsa,
Ruhumu ovxardan düşməyə qoymaz...





## ŞAİR GÜNAHI

Nəfəsi gözəllərin saçında külək olar,
Baxıb qəlbi kövrələr hər gün ah edənlərə.
Uzaq başı şairin günahı sevmək olar,
Sən şairi tay tutma hər günah edənlərə...

## BU BAHARIN ÇİÇƏKLƏRİ

Sevda dolu məktubunu gözümə təpdim,
Sevincimdən qanad açdım, məni qınama.
Bu baharın çiçəyinin gözündən öpdüm,
Yanağının hərarəti axdı qanıma.

Nəfəsinin yaz ətrini küləkdən aldım,
Sözlərini oxuduqca, gözlərim güldü.
Əllərimdə məktub əlin xəyala daldım,
Bu baharın çiçəyini gözlərin bildim.

İndi mənim həyatımda qış yaza dönüb,
Sanıram ki, dayanmısan mənim qarşımda.
Bu baharın çiçəkləri ulduza dönüb,
İşıq saçır mənim sevda kəhkəşanımda...

## MƏN ŞAİR OLSAYDIM

Baxışın ömrümə gətirdi bahar,
Düşündüm: -Ay Allah, işə düşmədim?!
Dedin ki, şairlər qorxaq olurlar,
Bağışla, mən səni başa düşmədim. –

Gah Füzuli dedim, gah da Nəsimi,
Gözlərin dilimə: – Bir dayan! – dedi.
Kövrək təbəssümün boğdu səsimi,
Titrək addımların mənə: – Yan! – dedi.

Giley eşitmədim ancaq dilindən,
Özümə ayrı yol seçəydim gərək.
Mən şair olsaydım, sənin əlindən
Tutub bu dünyadan köçəydim gərək…

## SEVGİ AYRI ŞEYDİ, BALA

*Oğlum Gurselə*

Dərməyə qıymadı əlim,
Uzanıb gül əydi, bala!
İndi sənə dediklərim
Sânma ki, gileydi, bala!

Boş söz keçirmir ələyi,
Duyan bir qəlbdi gərəyi.
Atanın sevən ürəyi
Bir dağlanmış neydi, bala!

Məni duyanlar olmadı,
Üç nöqtə, üççə almadı…
Yerdə bizə yer qalmadı,
Pənahımız göydü, bala!

Övlad ataya ağ olmaz,
Sevəni danlamaq olmaz,
Deməklə anlamaq olmaz,
Sevgi ayrı şeydi, bala!…





## ÖMÜR YOLDAŞIMLA SÖHBƏT

-Pərvanə tək həmişə zövq almısan işıqdan,
Titrəyirsən, bir gözəl göründümü qarşında.
Utanmırsan deyəsən heç oğuldan, uşaqdan,
Məhəbbət şeiri nədi yazırsan bu yaşında?! –
Qəlbim əsəndə sözlər misralara düzülür,
Ürəyimin səsinə necə qulaq asmayım?
Saqqalında bir qara tük qalmayan Füzuli,
Məhəbbətdən yazıbsa, bəs mən niyə yazmayım?!

## ÜÇ NÖQTƏ

Sözümdən söz çəkən qız,
Tanrı yetsin dadına!
Bu ilin ilk şeirini
Yazdım sənin adına.

Üzündə gecələyib
Ayrılığın kədəri.
Vallah, ürəyin gedir
Ağlamaqdan ötəri.

İstədim ki, danışım,
Üzünü aldı təlaş.
Qoymadı ki, dillənim
Gözlərindən axan yaş.

Sehrkar bir dil ilə
Danışdı o, dindi o.
Sözlərimin sonunda
Üç nöqtəyə döndü o…

## OLA BİLƏRMİ?

Deyirəm sözümü kəsə,
Qüvvə yox önümü kəsə.
Qanadları olan kəsə
Daş çəpər ola bilərmi?

Yəqin bizi anan görüb,
Dərdlərinə yanan görüb,
Quruları yanan görüb,
Yaş çəpər ola bilərmi?

Od-alov yatır canında,
Gənclik qaynayır qanında.
Şairlə gözəl yanında
Yaş çəpər ola bilərmi?!

## HAZIRSAN

Təbəssümün çevrilibdir "kənkana",
Dincliyimə dərin quyu qazırsan.
Mən fağırı əsir edib sevginə,
Neçəsinin əhvalını pozursan.

Yerli çətin başa düşə gəlməni,
Alovlara tuş eləmə gəl, məni!
Dodağımdan qopan qəfil kəlməni
Allah bilir neçə yerə yozursan?!

Baxışların sevgi toru toxuyur,
Təbəssümün gözlərimə şığıyır.
Yaz çiçəyi qışa meydan oxuyur, –
Mənə sevgi dastanımı yazırsan?





Həsrətimi oxuyursan gözümdən,
Danışmamış söz çəkirsən sözümdən.
Kirpiyinlə od götürüb közümdən
Təzə ocaq qalamağa hazırsan…

## BU YAZ YAĞIŞINDA

Bu yaz yağışında tutub əl-ələ,
Baş götürüb gedək çəmənə, çölə.
Daha nə deyirlər desinlər, qorxma!
Şığı irəliyə, geriyə baxma!
Hər şeyə hazıram sənin xətrinə,
Qarışaq çiçəyin, gülün ətrinə.
Məhəbbət ağacı tumurcuqlasın,
Sənin kirpiyində yaş muncuqlasın.
Məhəl də qoymayaq qara, sazağa,
Sevgi qanadında uçaq uzağa.
Çəməndə darıxan güllər, çiçəklər,
Vallah, bizi görüb sevinəcəklər…

## CAVAB İSTƏMİRƏM SEVGİMƏ SƏNDƏN

Şikayət eləyim mən kimə səndən? –
Niyə məhəbbətlə üzümə güldün?
Cavab istəmirəm sevgimə səndən,
Sağ ol ki, özünü sevdirə bildin!

Sən açdın tutulan şair dilini,
Bu görüş taleyin bir naxışıydı.
Bu sevgi qəlbimin solan gülünün
Üstünə ələnən yaz yağışıydı…

Tanrı özü yetsin sənin dadına,
Darıxma, qismətin üzünə gülər.
Sən vurma özünü sevgi oduna,
Zərif qanadların ütülə bilər.

Sən Allah, könlünü odlara yaxma,
Qorxuram qəlbində qəm çiçəkləyə!
Sevmə, ağrın alım,
sən mənə baxma,
Mən əzab çəkməyə öyrəncəkliyəm!

## TİTRƏYƏN İŞIQ

Sən mənim ruhumda titrəyən işıqsan,
Közərib alova dönə də bilərsən.
Sən mənim yanımda körpəsən, uşaqsan,
Bir kobud nəfəslə sönə də bilərsən…

## ÜÇ DAŞ

Üç daş bağışladım sənə bu səhər,
Dəniz göndərmişdi onları sənə.
Duyana adi daş gövhərdi, gövhər,
Bəxş etdim duyğulu anları sənə.

Təbəssüm bəzədi nurlu üzünü,
Sevindin, gözündən boylandı yaşlar.
Kim bilir, bəlkə də su pərisinin
Donmuş göz yaşıydı bu xırda daşlar?!

Bu üç daş üç kiçik toxuma bənzər,
Heç biri zərrəcə götürməz ləkə.
Üç daş bağışladım sənə bu səhər,
Dedim: - "Daş ürəyin" yumşaldı bəlkə?!





Sənə aydın olar sözümün ardı,
Fikirləş, üç daşın mənasını tap:
Biri ürəyim tək cadar-cadardı,
Biri sənin əlin, o biri mizrab.

Üç daş bağışladım sənə bu səhər,
Nədən qorxurdumsa, gəldi başıma.
Məhəbbət ocağı köz tutsa əgər,
Onlar dönə bilər ocaq daşına.

Duysan o daşları, gözün dolacaq,
Qaçıb gələcəksən qarşıma bir gün.
Ya onlar ömrünə bəzək olacaq,
Ya da çırpılacaq başıma bir gün…

## ÜRƏKDƏ BİTƏN AĞAC

Səni görən gündən dincliyim itib,
Taleyim belədi, cəfakeşəm mən.
Yazırsan: -Qəlbində bir ağac bitib, -
Toxum cücərtməkdə gecikmişəm mən.

Bəlkə xoş söz çəkdim dodaqlarından,
Bəlkə bu sevdaya ellər gülüşdü?!
Bəlkə o ağacın budaqlarından
Mənim qismətimə üç alma düşdü?!

İçimdə közərir gizli bir ocaq,
Qəlbimdə bir təzə sevda doğulmuş.
Bəlkə o üç alma xatırladacaq:
Bu, sevda deyilmiş, şirin nağılmış?…

Sağalmaz bir yara yoxdu dünyada,
Bilirəm, sevdalı qəlbin kövrəkdi.
Toxum cücərdənlər çoxdu dünyada,
Mənə daş göyərdən ürək gərəkdi…

Sənin ürəyində bitən ağacın
Üstündən bir şair nəfəsi əsdi.
Meyvəsi kiməsə qismət olacaq,
Mənə o ağacın kölgəsi bəsdi…

## ALAQ OTU

Sənin ürəyində boy atan ağac
Ucalsın, qoy biz də dolaq altına.
Onun zərrə qədər ziyanı yoxdu,
Qəlbimi atmasan ayaq altına.

Qorxutmur könlümü dumanlar, sislər,
Neyləyə biləcək eşqə xəbislər?!
Şair ürəyindən su içən hisslər
Çevrilə bilərmi alaq otuna?!

## SƏNİN GÖZ YAŞLARININ GÜCÜNƏ BƏLƏDƏM MƏN

O qədər də bənd olma şair söyləyən sözə,
Ağlı başında olan qara daşı becərməz.
Dünyada görünməyib hələ belə möcüzə –
Tuma bənzəsə belə, kiçik daşlar cücərməz…

Sözümü duymayana çətin ki, əl edəm mən,
Ürəyimə yatarmı hər dağda bitən çiçək?!
Sənin göz yaşlarının gücünə bələdəm mən,
Daşların üstə düşsə, onları göyərdəcək…





## SİNƏSİ BULAQLI QAYA

Sinəsi bulaqlı qaya,
Ömrün elə sucan olsun!
Könül verdiyin bəxtəvər
Dönüb sənin xocan olsun!

Gecikmişəm, ömür keçib,
Oda düşüb yenə içim.
Ver suyundan bir az içim,
Qoy sadağan bu can olsun!

Quru çöpə verdin nəfəs,
Ürəyinə saldın həvəs.
Kimsəyə baş əyməyən kəs
Ayağını qucan olsun.

Salmazsan sözümü yerə,
Dikmişəm gözümü yerə,
Gətirdin dizimi yerə,
Görüşümüz haçan olsun?!

## SƏNƏ KÖNÜL VERDİM Kİ…

Sevgisiz yaşayanlar –
Dünyadan kamsız gedər.
Sənə könül verdim ki,
Ömrüm getməsin hədər.

Qəlbimə sevgi düşdü,
Aylar, illər ötüşdü.
Yaz yağışı – sevincdi,
Payız yağışı – kədər.

Yolumu tutsa da çən,
Gülüm, bəxtiyaram mən.
Xeyir tapmaz, sevgidən
Kimsə ki, xeyir güdər.

Bəxtiyaram, ey çiçək,
Titrəyirəm yarpaq tək,
Köksümdə sevən ürək
Bülbüllər kimi ötər.

Qorxum yoxdu ölümdən,
Nələr keçir könlümdən?!
Ayrı düşsəm gülümdən,
Könlümü həsrət didər…

## NEÇƏ ÇEŞMƏLƏRDƏN İÇİB GƏLMİŞƏM

–Neçə çeşmələrdən içib getmişəm…
–Bəs bizim bulağa gəlməyəcəksən?
–Mən sizin kənddən də keçib getmişəm…
–Daha keçib gedə bilməyəcəksən…
Ulduzlar gözümdür, sənə baxırlar,
Ürəyin odlara qalanacaqdır.
Bir qız qollarına dönüb cığırlar,
İlan tək boynuna sarılacaqdır.
Ötən sevdalardan əl üzüləcək,
Titrək barmaqların dinəcək sənin.
Ya şirin dilindən bal süzüləcək,
Ya ömrün zəhərə dönəcək sənin…





***

Alovlu baxışlarınla
Ürəyimə elçi
göndərmisən.
Ancaq süni boyanı
dodaqlarımla dodaqların arasında
sərhəd diraklərinə
döndərmisən…

***

Səni bircə gün görməsəm,
Yuxu da getmir gözümə.
Ay şeytan, dolub qəlbimə,
Öyrətdin məni özünə.

Həsrətini ürəyimdə
Nə vaxtadək daşıyacam?!
Qəlbim əsir, heç bilmirəm
Sənsiz necə yaşıyacam?!

## ETİBAR

–Nəfəsim dəysə közərərər,
Közə etibarım yoxdu.
Şairlərin söylədiyi
Sözə etibarım yoxdu.

–Sevgidən ummuram xeyir,
Ürəyimi həsrət yeyir.
Gözün gülür, dilin deyir:
–Sizə etibarım yoxdu…

## ÇATARDIMI?

Ürək, sənin döyüntünü
O qız geri qaytardımı?
Bir təzə sevgi dastanı
Başlanmamış qurtardımı?

Qocalmısan, ötüb yaşın,
Daha bu sevdadan daşın!...
İncimə, alovla daşın
Sirdaşlığı tutardımı?!

Mən bir eşqin sevinciyəm,
Heç mizrabdan sim inciyər? –
Gözəl, səndən kim inciyər,
Üzün gülür, bahardımı?!

İsin odlu közlərimlə,
Baş-başa ver sözlərimlə,
Sevsəydim tək gözlərimlə,
Sənə növbə çatardımı?!

## AYRILIQ

Demə ki, ayrılıq təkcə göz yaşıdı,
Ayrılıq elə bil bir məhək daşıdı.
Piyada gəzəni köhlənə mindirər,
Ürəkdə uyuyan sözləri dindirər.
Ayrılıq közərdər həqiqi sevgini,
Ayrılıq yalançı hissləri söndürər...





## GÜNƏŞƏ BOYLANAN PAYIZ ÇİÇƏYİ

Saralıb meşənin yaşıl birçəyi,
Ancaq ürəkdəki hisslər saralmır.
Günəşə boylanır payız çiçəyi,
Gələn boranları eyninə almır.

Demə "qoca şair" hara göz dikib?! –
Taleyin verdiyi bu paya gülmə!
Saçıma ələnən qara göz dikib,
Qəlbimdən boylanan sevdaya gülmə!

Önümdə xəzan var mənim, ey sənəm,
Səninsə qarşında neçə yaz durur.
Bəlkə mən yazmıram, bu şeri sənə
Füzuli babamın ruhu yazdırır?!

## SƏNİNLƏ SÖHBƏT

–Bu dəli sevdadan necə daşınım? –
Bu yolda sevənlər canından keçir.
Hara gedirəmsə, mənim maşınım
Sizin evinizin yanından keçir.

–Gülməli deyilmi Sizin eşqiniz? –
Bir qız nə şeydi ki, üzülmə belə!
O gün də yanımdan ötüb keçdiniz,
Dönüb baxmadınız üzümə belə...

–Çırpınan xəyalım dönüb ağ yelə,
Eşqinlə külək tək hey əsmişəm mən.
Səni yolda qoyub gedəndə belə
Sənin görüşünə tələsmişəm mən...

## QƏLBİMƏ BAXSAYDIN...

Həmişə gələrdin mənim yanıma,
İndi nə olub ki, məndən qaçırsan?
Baxışın dil verir həyəcanıma,
Saçıma ələnən dəndən qaçırsan?!

Yaş o yaş deyil ki, neyləyim axı? –
Ancaq arzularım şimşəyə bənzər.
Qəlbimə baxsaydın, saçımın ağı
Görərdin qara yox, çiçəyə bənzər...

## SEVGİ NƏSİMİ

Ruhuma hakimdi şirin bir röya,
Gülüm, sən necə də ətirlənmisən!
Üzün bənzəyirdi solğun bir aya,
İndi nurlanmısan, bədrlənmisən.

Öpür yanağımı sevgi nəsimi,
Tale yol üstündə işıq yandırıb.
Qəlbində məhəbbət yanıb şam kimi,
Üzünü, gözünü işıqlandırıb...

## ŞÜŞƏ

*Günəş şüası şüşədən pəncərənin qabağındakı taxtaya düşmüşdü. Qəribə idi: şüanı şüşə keçirib taxtaya verdiyi halda, özü soyuq, taxta isə isti idi...*

***Bir məktubdan***

Ürəyim buz deyil, düşmə təşvişə,
Sevda yollarında çox xiffət çəkib.
Sənin qınadığın bu soyuq şüşə
Şüşə olanacan müsibət çəkib.





Mane olmasa da, nura, günəşə,
Soyuğun önündə hasar tək qalxıb.
Sən hardan biləsən, bu soyuq şüşə
Nə qədər odların içindən çıxıb?!

Doğma budağından ayrılan xəzəl
Qoşulub yellərə hara tələsər?!
Şüşə ürəyimlə oynama, gözəl,
Sınmağı cəhənnəm, əlini kəsər...

## BİLMİRƏM NƏ ÜÇÜN

Bilmirəm nə üçün belə elədim,
Ömrümü əzaba, qəmə bələdim?!

Bir lələk dilədim durna köçündən,
Qərib olduğunu ürək unutdu.
İgidlər içində, ərlər içində
Mənim qız ürəyim gör kimi tutdu?!

Sözün gizlisini, nainsafını
Ona saxlamışdım, etiraf armı?!
Qələm, sən neylədin, söz sərrafının
Gözündən yazdığın söz yayınarmı?!

Qəlbim tək titrəyən bir simi sevdim,
Çətin sala bilsin qına, yar məni.
Gör kimə vuruldum, gör kimi sevdim?! –
Eşitsə, el-aləm qınayar məni...

Ürəyim titrədi bir nanə kimi,
Sən demə əzabın ağırı buymuş.
Qanadım ütüldü pərvanə kimi,
Odla oynamağın axırı buymuş...

Bəlkə, bu, könlümün son harayılı? –
Köhnə dəyirmana təzə dən gəlib?!
Bəlkə bu, Allahın sevgi payıdı,
Mənim ürəyimə göylərdən gəlib?!

Bilmirəm nə üçün belə elədim,
Ömrümü bir şirin qəmə bələdim?!

## QƏLƏMLƏ SÖHBƏT

–Yeriyib qoşun tək üstümə ələm,
Könül verdiyinin
könlü nədəydi?
–İndicə mən səni qıracam, qələm,
Nə yazdın yarımın könlünə dəydi?!
-O niyə şübhəylə arayır, seçir?!
Yazdığım sözlərə söz'yoxdu, şair!...
Odlu misraların üstündən keçir,
Sevdiyin qızda da az yoxdu, şair...
Mənim qorxum yoxdu, dostum, tez elə,
Verdiyin cəzanı səadət sanım.
Ancaq özün qırma, ver o gözələ,
Sınsam da, qoy onun əlində sınım...

## QİSMƏT OLARDIMI?

– Qaydadır, açılan saralır, solur,
Ölmək səadətdi sənin əlində.
Ömrü bir payızlıq, bir yazlıq olur
Payız gülünün də, yaz gülünün də.





Təsəlli verirsən: – Gəl ürəyini
Sıxma, – bu gileyin mənası varmı?
– Payız çiçəyinə yaz çiçəyini
Öpüb qucaqlamaq qismət olarmı?!

## TA NƏ İSTƏYİRSƏN?

Xətrimə dəyər ha, dediyin sözlər, –
Dilənçi sanırsan nahaq özünü.
Yamanca sayıqdı keşikçi gözlər,
Görə bilməmişəm hələ gözünü.

Hərdən danışsan da bir uşaq kimi,
Məhəbbət yolunda dolursan yaşa.
Əgər dilənçisən, al ürəyimi,
Qəribsən, köç mənim qəlbimdə yaşa!...

## İKİNCİ "MƏN"

*"Mənim qəlbimdə iki "mən" var. İkinci "mən"iduymaq çətindir. O daha saf, daha təmizdir..."*

***Bir məktubdan***

Səni bir çiçəyə döndərib bahar,
Dərə bilməsəm də, iyləyə billəm.
Deyirsən: qəlbində ikinci "mən" var, –
Bir "mən" iki "sən"ə neyləyə billəm?!
Tale qismət edib bir inci mənə,
Əllərin uzanıb qəlbimi dərsin.
Elçi göndərmişəm birinci "mən"ə,
O ikinci "mən"i qoy mənə versin...

## AĞ KAĞIZ HAQQINDA ÜÇ YOZUM

1

–Mənə kağız verdin, ağappaq idi,
Bir kəlmə tapmayıb məəttəl qaldım.
–Başqa gözəllərə meyl eləyirdin,
Acıqca mən səndən intiqam aldım…

2

–Gözəl, mənə bir cavab ver,
Bir kimsədə gözüm yoxdu.
–Qocalmısan, ağlın çaşıb,
Daha sənə sözüm yoxdu…

3

İstədim inciyim:
–Sən bu vərəqi
Niyə ağ qaytardın? –
Dedim o qıza.
Güldü: –Dopdoluydu
mənim ürəyim,
Boşaltsam, sığmazdı
adi kağıza…

## QƏLBİMDƏ ŞAM YANIRSA

Deyirsən mən hər şeyi qatıb-qarışdırıram,
Ulduzları endirib yerdə sayrışdırıram.
Ən zərif çiçəkləri dalğalara düzürəm,
Sənə gətirmək üçün çaylaq daşı gəzirəm.
Könlün üzüm istəyir, sənə qora verirəm,
Sevgi uman ürəyə cızmaqara verirəm.





Ulduzlardan saçına nurlu çələng hörmürəm,
Gözlərindən boylanan intizarı görmürəm.
Gülündən çox sevirəm ağacın yarpağını,
Əliyə tullayıram Vəlinin papağını.
Sən aya baxan zaman göyə bulud atıram,
O dərənin suyunu, bu dərəyə qatıram.
Bir-birinə qovuşmur, hirsdən bulanır su da,
Balıq tutmaq asandı axı, bulanıq suda?!
Mən hər şeyi qatıram bircə şeyin xətrinə,
Ciyərlərim həsrətdi nəfəsinin ətrinə.
Sözüm yoxdu bu sözdən söz düzəldən millətə,
Səni şam kimi qapıb, girəcəyəm zülmətə.
Ürəyim hey titrəyir, ərşə çəkilib yuxum,
Qəlbimdə şam yanırsa, qaranlıqdan nə qorxum?!

## YAZIRSAN Kİ…

Yazırsan ki, qəlbin olub
Arzuların qəbristanı.
Ürəyinə axan yaşla
Neçə-neçə qəbr islanıb.

Bir gün məni öldürəcək
Bu od ki, var bəbəyində.
Bir şəhidlər xiyabanı
Salacaqsan ürəyində…

## DOĞRU

Körpə bir gül boylanırmış
Ayıma, ilimə doğru.
Ömür boyu yol gəlirmiş
Titrəyən əlimə doğru.

Sənsiz günlərim bir hədər,
Mənə doğma olub kədər,
Adını çəkənə qədər
Gəlməyib dilimə doğru.

Qələm nə gəldi yazır ha!
Demə, yolundan azır ha!
Qəlbində qəbir hazırla,
Gəlirəm ölümə doğru…

## MƏNİM OLACAQ

Sənin saldığın gülşənə
İlk güzar mənim olacaq.
Göz yaşıyla çiçəklənən
Bu gülzar mənim olacaq.

Həsrətimin gözləri dörd,
Əllərinlə gözümü ört.
Dərmanı olmayan bu dərd,
Bu azar mənim olacaq.

Gülüm, məni ha arzula,
Payızım çətin yaz ola!
Sənin qəlbində qazılan
Son məzar mənim olacaq…

## GÖRƏCƏK

Bu dünyanın adamları
Gözlərimi tox görəcək.
Bu dalğalar, bu ləpələr
Bir gün məni yox görəcək.





Xəzan gəlib, solub gülşən,
Köks ötürmək olub peşəm.
Ürəyinə sevgi düşən
Ah görəcək, ox görəcək.

El içinə çətin çıxam,
Dərd əlində qalıb yaxam.
Gözlərinə bir yol baxan
Sinəsində ox görəcək.

Sevən qəlbin yox kini də,
Sev ayı da, sev günü də,
Aydan arı sevgini də
Dünya bizə çox görəcək.

## DƏNİZLƏ SÖHBƏT

Kimsə sala bilməz, yar, gözdən səni,
Hər gün soruşuram dənizdən səni.
Dalğalar baxırlar təəccüb ilə,
Gülüm, dəniz səni tanımır hələ…
Deyir ki, qoy o da sənə qoşulsun,
Ya dalğaya dönsün, ya da quş olsun!
Deyir ki, müqəddəs sevginindi yol,
Mənim təmənnasız qonağım olun.
Uçmaq istəyirsə, sən qağayı ol,
Üzmək istəyirsə, balığım olun…

## MƏNƏ DƏNİZ BAĞIŞLAYAN GÖZƏLƏ

*"...onda dənizi Sizə bağışlayıram. Qoy heç olmasa bizim bir şərikli şeyimiz olsun..."*

*Bir məktubdan*

Səxavətin artıq olsun,
Sən dənizi mənə verdin.
Özün çəkildin kənara,
Yenə bizi önə verdin.

Yanğımı söndürmək olmaz
Dalğayla, yağışla, gözəl.
Dəniz elə mənimkidi,
Özünü bağışla, gözəl...

## DƏNİZ OLMAQ İSTƏYİRƏM

*"Dənizə deyin ki, nə balıq olmaq istəyirəm, nə qağayı, nə dalğa. Dəniz olmaq istəyirəm."*

*Bir məktubdan*

Söz vurğunu olan gözəl
Söz qanmazı çətin sevər.
Yazdığımın içindədi
Axtardığın inci, gövhər.

Nə çıxar tək demək ilə,
Bir az mənə kömək elə.
"Dəniz oldum", – demək elə
Səninkiyəm, a bəxtəvər...





## MƏNİM DƏNİZİM

Açılıbdı dan üzü,
Dənizim, ay dənizim.
Dalğa köynəyin əsir,
Yer ver, qoynunda üzüm.

Söz deyirəm ərk ilə,
Arı qonmaz hər gülə.
Ya qucaqla boynumu,
Ya qoynunda qərq elə...

## DƏNİZ HƏMİŞƏ GÖZƏLDİ

*"Dəniz nə laqeyd imiş... Yəqin bunu eşitdikdən sonra məni sahilində görmək istəməz. Bəlkə məni sahilinə gətirdiyiniz üçün qəzəbi tutar..."*

*Bir məktubdan*

Dəniz coşub, gözəllərlə
Gəlsə döş-döşə, gözəldi.
Onun hirsli dalğaları
Dönsə gümüşə, gözəldi.

Eşqim sənə əyan olsa,
Sevgin mənə həyan olsa,
Qorxma, onu duyan olsa,
Dəniz həmişə gözəldi...

## QOVUŞA BİLSƏYDİK...

Sən mənə dənizi göstərib o gün
Sakitcə: – sevirəm, – dedin, bu rəngi.
Qüdrətim çatsaydı, gümüş dalğalar
Saçında olardı sevgi çələngi.

Axışa-axışa gələn ləpələr
Bir sevgi nəğməsi ötdü ürəkdən.
O dəniz sənindi, o dəniz mənim,
Hissimiz yoğrulub o mavi rəngdən.

Gözündən oxudum mən bu sözləri
Baxanda səmaya, mavi dənizə:
"Xəzər üfüq ilə birləşən kimi
Qovuşa biləydik bir-birimizə..."

## ARAZ BALIĞI

*"Bir qızın pasportuyla yaşayan balığa"*

Ay Xəzərdə üzən Araz balığı,
Qayıt, ağrın alım, geriyə qayıt!
Arazdan adlayıb keç Həkəriyə,
Mənim həsrətimin odunu soyut.

Üzüb Bərgüşadla üzü yuxarı,
Əzizim, gah sağa, gah da sola bax.
Mənim səndən ayrı diləyim yoxdu,
Ata yurdumuzdan gətir bir soraq.

Bizə ümid nuru qaytara bilsən,
Onda mənim ayrı cəlalım olar.
O tapdığın pasport sənin halalın,
Sahibisə mənim halalım olar.

## TALE QİSMƏTİMƏ SƏNİ GÖNDƏRİB

Ayrılıq vədəsi gəlib yetişdi,
Kövrəldi dumanlı, çiskinli dağlar.
Yurdumdan, yuvamdan aralı düşdüm,
Hönkürdü dalımca şır-şır bulaqlar.





Elə bilirdim ki, bir də gülmərəm,
Qayıda bilməsəm doğma diyara.
Dedim bu həsrətə dözə bilmərəm,
Sağalmaz qəlbimə vurulan yara.

Titrəyir qəlbimin qırılmış simi,
Gözlərin ömrümü nura döndərib.
Ovundurmaq üçün mənim qəlbimi
Tale qismətimə səni göndərib...

## EH, NƏ BİLİM

Deyirsən ki, heyrətindən gözün belə dolmamışdı,
Diqqətimlə varlığında kiçik tufan qoparmışam.
"Ömrüm boyu hələ belə sevindiyim olmamışdı" –
Sözlərini sənin titrək dodağından qoparmışam.

Bu taleyin oyununu tənzimləmək müşkül, hədər,
Bəlkə ölsəm, məni yerdən götürən də olmayacaq.
Eh, kim bilir, ağrın alım, bəlkə elə mənim qədər
Varlığına bir təlatüm gətirən də olmayacaq?!

Düzlüyümlə fəxr edirəm, hər vaxt açıqdır alnım da,
Nə gizlədim, ürəyimdə gizli vüsal arzusu var.
Eh, nə bilim, bəlkə mənim üstü çapıq bu alnımda
Səni xoşbəxt eləməyin haqdan gələn yazısı var?!

## DƏYİŞMƏRƏM

Hisslərin alovunda saralan xəzəlləri
Bilirsən ki, payızın özünə dəyişmərəm.
Sən nahaq incimisən, əzizim, gözəlləri
Məni əsir eləyən gözünə dəyişmərəm.

Eşqinlə təmizlədin hisslərimin pasını,
Nahaqdan saxlayırsan qanmazların yasını.
Diplomsuz Füzulinin ikicə misrasını,
Diplomlu nadanların yüzünə dəyişmərəm.

Sağ ol ki, ovxarladın şairin ilhamını,
İndi-indi dadıram məhəbbətin tamını.
Yolumun üstə yanan taleyimin şamını
Lap göydəki günəşin özünə dəyişmərəm.

## OLMASA

Bəxtəvər olmaram, yavrum, başımda
Sənin məhəbbətin bir tac olmasa.
Sən məni özündən uca sanırsan,
Yarpaq nəyə dəyər ağac olmasa?!

Gizli bir atəşlə yanır, yanırsan,
Mənimlə danışıb kimi anırsan?!
Nahaqdan sən məni zirvə sanırsan,
Zirvə nəyə dəyər yamac olmasa?!

Doyunca baxaydım kaş ki, gözünə,
Niyə əsir etdin məni özünə?
Başım düşmək istər şümşad dizinə,
Ölərəm, dərdimə əlac olmasa…

## YAMAC VƏ ZİRVƏ

*"Yamac zirvəyə çata bilməyəndə, zirvə yamaca əl uzatmalıdı…"*

Gözəllikdən bacar, bac al!
Təki ömür versin macal!
Zirvənin əli qurusun
Uzanmasa o yamaca!…





Söz dedin, sözünü istə,
Üşüsən, közümü istə!
Zirvə uçsa, səpiləcək
Yamacın dizinin üstə…

## ÖTRÜ

Sevən ürəyim titrəyir
Bir şirin sözündən ötrü.
Qəlbim quru odun kimi
Can atır közündən ötrü.

"Dərd əlindən çıxdım dağa",
Babam tək qoyuldum lağa.
Özümü verdim sadağa
Bir qızın gözündən ötrü.

Qıfıl vurular yatara,
Zülfünü ya yığ, ya dara.
Gözəl, məni çəkmə dara
Bir "gözəl" sözündən ötrü.

Gecə keçib, işıq sönüb,
Yenə dəli könlüm dinib,
Şair pərvanəyə dönüb
Sənin ay üzündən ötrü…

## OLAR

Söz qoşanda ciyərlərim
Köz üfürən körük olar.
Ürəyinə sevgi düşən
Bir sümük, bir dəri olar.

Birinin oddur baxışı,
Biri taleyin naxışı,
Birinin sevdiyi Yaxşı,
Birininki Pəri olar.

Füzulini salaq yada,
Qoy ruhumuz gəlsin dada.
Əsl şair, bu dünyadan
Köçsə belə, diri olar.

Alışmadın közlərimə,
Baxammadın gözlərimə,
Lağ eləmə sözlərimə,
Hər şairin yeri olar.

Muma dönmür söz əlimdə,
Hər şey deyil öz əlimdə.
Sənin kimi gözəlin də
Mənim tək şairi olar...

## NƏYİM VAR?

Simləri qırılmış sazım,
Qəlbi dağlanmış neyim var.
Mənə "insafsız" demisən, –
Səndən sənə gileyim var.

Doğma mənəm, uyma yada,
Baş əyirəm təmiz ada.
Ay insafsız, bu dünyada
İnsafdan başqa nəyim var?





## ŞAİR SEVGİLİSİNİN NƏĞMƏSİ

Sevindim, hər sözündə
Oxşayır, öyür məni.
Sandım ki, bəxtəvərəm,
Sevir bir şair məni.

Göz yaşım ləpə-ləpə,
Ürəyim qəlpə-qəlpə.
Dəydim ilahi qəlbə,
Taparmı xeyir məni?!

Qəlbimin odu sönüb, –
El köçən yurda dönüb.
Dərd bir ac qurda dönüb
İçimdən yeyir məni.

Ömrümə çöküb ələm,
Çətin özümə gələm.
Dedim: "Şeirsiz öllәm!" –
Öldürdü şeir məni...

## ÖLDÜRDÜ MƏNİ

Zaman hər arzumu dən tək üyütdü,
Tale dəli kimi güldürdü məni.
Əli Kərim, Məmməd Araz diriltdi,
Rafiq Yusifoğlu öldürdü məni...

## ZARAFAT

Soyuq dodaqlar düşüb isinmək həvəsinə,
Məhəbbət dünyasının sonu çevrilişdi, ha!
Şair qonorar alır sözünün əvəzinə, –
Hər misranın qiyməti indi bir öpüşdü, ha!

## BU DÜNYANIN BƏXTƏVƏRİ

Yazmışdın ki, ürəyindən keçən sözləri
Oxumağı bacarmıram gözümdən daha.
Elə bilmə öləziyib sevgi közləri,
Sözlərimi sən tutsan da özümdən baha…

Ürək yaxan bir ayrılıq yolumu gözlər,
Səni sevən günahsızın keç günahından.
Cavab yazdım: – İmkan vermir keşikçi gözlər,
Gözlərini görməmişəm hələ yaxından.

Qaçıb gəldin qabağıma sən gülə-gülə,
Təbəssümlə körpə kimi bələdin məni.
Fürsət tapıb gözlərini göstərmək ilə
Bu dünyanın bəxtəvəri elədin məni…

***

İncidin "Zarafat"ımdan,
Sənin qəlbin buz imiş ki!
Gözlərin o cür baxışı
Öpüşdən ucuz imiş ki?!





## GÖRMƏK İSTƏMİR

Dözür cövri-cəfasına, düşür borana, sazağa,
Məhəbbətin şirin-şəkər barını dərmək istəmir.
Sözə könül verən gözəl şairdən qaçır uzağa,
Ürəyi bal təşnəsidi, arını görmək istəmir…

## VAR İMİŞ

Özün qönçə olsan belə,
Kül olan arzun var imiş.
Nur saçsa da təbəssümün,
Ürəkdə yasın var imiş.

İsti yuvadan qovulan,
Gizlicə yanan, qovrulan,
Dəli sevdayla yoğrulan
Şirin avazın var imiş.

Gülsən, qıymıram dərməyə,
Şadam gözünü görməyə.
Qəlbimə əzab verməyə
Doğulan nazın var imiş.

Ötənləri daşa çaxar,
Ürək çətin yaşa baxa!
Mənimlə bir yaşamağa
Baharın, yazın var imiş…

***

Oğrun baxan bu gözəlin
Bəbəyində həsrət yanır.
Şairə meydan oxuyur,
Gəncliyiylə qürurlanır.

Dərd əriyir gilə-gilə,
Bəm meydan oxuyur zilə,
Kövrək təbəssümü ilə
Torpaq da, göy də nurlanır.

Ömrüm həsrətə bələnib,
Elə baxma cilvələnib,
Mənim ələyim ələnib,
Xəlbirim göydə fırlanır…

## İSTƏSƏK DƏ…

İstəsək də məhəbbətin
Göylərində birgə uçaq,
Duyuram ki, sevgi odu
Ürəyimdən düşüb qaçaq.

Gözün elə laqeyd baxır,
Etinasızlıq qəlb sıxır.
Bilirdim ki, əvvəl-axır
Soyuyacaq bu od-ocaq.

Yaman razısan özündən,
Oxuya bildim gözündən:
Deyirsən bunun üzündən
Nə vaxt canım qurtaracaq?!

Ömrümdən ötdü son bahar,
Ümid qalıbmı sabaha?!
Məni dilənçi sanma, ha! –
Borclu borcun qaytaracaq…





## SEVGİ ÇÖKDÜRÜB DİZ ÜSTƏ

Ürəyimdə sevgi odu,
Saçımda zamanın zehi.
Hisslərimə layla çalır
Körpəcə bir səhər mehi.

Sevənlər küsür, barışır,
Yenə əhvalım qarışır.
Ulduzlar kimi sayrışır
Kirpiyimdə hicran şehi.

Sözün tükənib, söz istə,
Ocağın sönüb, köz istə.
Sevgi çökdürüb diz üstə
Çox özündən müştəbehi…

## ÜRƏYİMƏ YAZILSA DA

Ürəyimə yazılsa da,
Bu yar adı, bu yar adı.
Yanıma zülümlə gəlir,
Sanki yolu biyaradı.

Duyarmı hər külək səni?
Öpərmi hər çiçək səni?
Nə küskünsən, ürək, səni
Bu yar atıb, bu yar atıb?!

Qürrələnir yanaqları,
Qürrələnir dodaqları.
Elə bil uca dağları
Bu yaradıb, bu yaradıb…

## GEDƏR

Sevgi odu sehrlidi,
Kifiri də qəşəng edər.
Verdiyim tək-tək gülləri
Yar toplayıb, çələng edər.

Özü uca, eşqi uca,
Bir kimsəyə verməz macal.
Yüz adamın yanındaca
Gözü gözümlə cəng edər.

Qorxsa boran, çəndən əgər,
Qaçıb getsə gendən əgər,
Üz döndərsə məndən əgər,
Küsər, bədəndən can gedər...

## NEYLƏYƏSİDİR?

Nifrətin dolu tək yağdı üstümə,
Sənə nə dedim ki, axi, əzizim?
Barmağına batan tikana görə
Niyə qarğıyırsan bağı, əzizim?!

Arabir üzümə gülümsəyirsən,
Gözlərin daha nə söyləyəsidi?!
Axı dolu vuran gül budağına
Günəş təbəssümü neyləyəsidi?!





## SEVDALI GÜNLƏRİN BAHARI KEÇDİ

Gözlərim nur saçan bir ulduz seçdi,
Tale göndərmişdi, pay özü gəldi.
Sevdalı günlərin baharı keçdi,
Sevginin çiskinli payızı gəldi.

Saralan yarpaqlar ümidim oldu,
İslatdı buz kimi yağışlar məni.
Kövrək misralarım sarı sim oldu,
Öldürüb diriltdi baxışlar məni.

Sınağamı çəkir bizi təbiət?
Ürəyim nə üçün altuna uydu?
Dağ boyda kişini bir körpə həsrət
Qatlayıb dizinin altına qoydu.

Ömrümdən bir durna qatarı keçdi,
Mənim görüşümə ay özü gəldi.
Sevdalı günlərin baharı keçdi,
Sevginin çiskinli payızı gəldi...

***

Desələr ki,
ağlım çıxıb başımdan,
inanma, yavrum,
inanma!
Bu sevgini ürəyimə
Tanrı salıbsa,
qınama məni,
qınama!...

***

Bu sevda
nələr açmadı başımıza?
Sevinc yox,
kədər çıxdı qarşımıza.
Boynun bənövşə kimi əyildi.
Mən heç,
sənin günahın nə idi?!

***

Xəyalən yanına uçurdum, –
Bu, gözəl bir səfər idi…
Günəş üzünü görəndə,
buz qanadlarım əridi. –
Dözmədim adamların
kinli baxışlarına.
Çırpıldım həqiqətin
pıtır-pıtır daşlarına.
Bulaqlar qibtə elədi
gözlərimin ürəyimə axan
yaşlarına…

***

"O qədər ağladım ki" – deyirsən.
Sevgisiz ürək
fəğan qopara bilərdimi?
Ancaq aramızdakı
sərhəd dirəklərini
sənin göz yaşların
apara bilərdimi?!





***

Mən dərənin dibindəyəm,
sən dağın zirvəsində.
Eşqimin yolları dirənib
ətəkləri sıldırımlı dağa…
Təbəssümün
alpinist kəndiri olursa,
nə var yanına qalxmağa?

***

"Bir gün üzümüzə
güləcək bahar" –
deyirsən.
"Aramızda bircə santimetrlik
məsafə var" –
deyirsən.
Başımızın üstündə
ayrılıq şimşəkləri çaxırsa,
ömrümüzə, günümüzə
hicran yağışları yağırsa,
mənim günəşim qüruba
əyiləndə,
sənin günəşin doğursa,
o bircə santimetrə
iyirmi üç bahar,
iyirmi üç qış sığırsa,
bu necə yaxınlıqdı, əzizim?!

***

Eşqimiz
solğun bir şama bənzəyir,
içimizdə gizli-gizli
yanır…

Ümidimiz Allaha qalıb,
önümüzdə tufan və zülmət
dayanır…
Hələlik ovundurur bizi
qəm işığı.
Sən də qəm aşiqisən,
mən də qəm aşiqi…

***

Qəlbimdə bənövşə ətri
sevinə-sevinə
qarşına gəldim.
Baxışlarımın ağırlığından
kirpiklərin də
qalxmadı…
Mən səndən ötrü
şəhərin bu başından
o başına gəldim,
sən başını qaldırıb
üzümə də baxmadın…

***

Özünü çəkməyəndə
sevimli, məzəli idin,
ləzzət çəkirdim
sözündən.
"Meymun" olanda
dünyalar gözəli idin,
"adam" olub
düşərsən ha,
gözümdən!…





## BİLİRƏM

Bilirəm,
nə vaxtsa ürəyin
ayrı bir sevdayla
dinəcək…
Mənim məhəbbətim
səninlə hansı bəxtəvərinsə
ayağının altında
sevgi postamentinə dönəcək…
Bilirəm,
nə vaxtsa kobud ayaqlar pozacaq
sənin sevgi gülşəninə düşən
titrək ayaq izlərimi.
Odlu baxışlar unutduracaq
mənim həsrətli baxışlarımı,
utancaq gözlərimi.
Bilirəm,
nə vaxtsa qadir bir ad
ürəyindəki adımın üstündən
qələm çəkəcək.
Sənin intizar baxışların
bəlkə də havadan
nəm çəkəcək…
Söz söz yaddaşını,
gözlər göz yaddaşını,
dodaqlar dodaq yaddaşını
unutduracaq…
Qırğı caynaqlı bir dəliqanlı
kəpənək qanadlı hisslərimizə
qan udduracaq…
Bilirəm,

nə vaxtsa
inci-inci düzdüyüm sözlərin
pozulacaq səfi.
Şeirlərim olacaq
rişxənd hədəfi.
Cırıb yelə verəcək onları
sənin həyat yoldaşın.
Səfərə çıxanların
ardınca atılan
suya dönəcək
sənin inci-inci səpilən
göz yaşın…
Bilirəm, nə vaxtsa…
Bilirəm…
Bil…

## NƏ VAXTDI

Nə vaxtdı möhtacam
isti bir sözə,
ılıq, həlim
bir nəfəsə.
Nə vaxtdı
cavablarını gözləyirəm
ürəyim əsə-əsə.
Nə vaxtdı sükutun dolub
səbrimin qəsdinə.
Yenə də verdiyin kağızı
ağ gördüm,
ağappaq qar yağdı
sevgi çiçəklərimin
üstünə…





## ÖLÜMƏ MƏHKUM OLUNMUŞUN NƏĞMƏSİ

Deyirsən ki,
mənimlə bağlı
gündəlik yazırsan.
Onu mənə verməyə də
hazırsan.
Ancaq şərtin çox ağırdı:
"Biləndə ki, Sizi bir daha
görməyəcəyəm…"–
Oxudum,
ürəyim ağrıdı.
Zalımlar zalımısan,
məni salmısan zülümə,
geriyə yol da qoymamısan, –
məhkum olunmuşam ölümə…
Bu sevda –
Aləmi üstümüzə güldürəcək.
O gündəliyi
oxumaqdan ötrü də ölürəm,
amma əbədi ayrılıq da
məni öldürəcək…

## SÜRPRİZ

"Sizə sürpriz hazırlayıram," – demişdin.
Ancaq sözünü dandın,
birdən-birə dəyişdin,
Qəlbimə dəydi sözün. –
Bəlkə bu imiş sənin sürprizin?!

## SƏN OXUYAN ŞEİRLƏR

Baxışlarının keçdiyi
cığırlara bənzəyir
sən oxuduğun şeirin
sətirləri.
Nəfəsin dəydiyi üçün
elə bil sözlər də
ətirlənib.
Ciyərimə çəkirəm
bu sözlərin qoxusunu.
Gözlərim sevindiyindən
itirib yuxusunu.

## BURAXILIŞ GECƏSİ

Sən gəlməmişdin
sonuncu vida gecəsinə,
dilimi göynədirdi
alovlu bir nida.
Ürəyimdə pıçıldayırdım:
Əlvida, gözəlim,
əlvida!
Səsim titrəyirdi,
bilmirəm mənə nə olmuşdu?!
Mən "Bir axşamın xatirəsi"ni
oxuyanda,
uzaq bir kənddə
sənin ala gözlərin dolmuşdu...
Nə mahnı ürəyimi açırdı,
nə rəqs ürəyimi açırdı.
Dodaqlarım təşnə üzlərdən,
gözlərim həsrət gözlərdən





qaçırdı...
Qızlar məni rəqsə dəvət edəndə,
xatırladım
sənli keçən anları.
Qollarımdan həsrətin asılmışdı,
qaldıra bilmirdim onları...

## MƏN

Nişangaha çevirmişəm qara bağrımı,
Heç özüm də bilmirəm ki, nə etmişəm mən.
Ürəyimin düz başından qopan ağrını
Bir ilahi sevgi ilə keyitmişəm mən.

Əllərim bu kainatdan üzülü olub,
Təbəssümün həyatımın özülü olub,
Qonaqlarım Məcnun olub, Füzuli olub,
Xəyalımda bir ilahi toy etmişəm mən.

Bircə damcı xılt da olmur şair qanında,
Üzüm ağdı qədirbilən gözəl yanında.
Hisslərimin, düşüncəmin dəyirmanında
Neçə-neçə qədirbilməz üyütmüşəm mən.

Ürəyimə doğru uçan bir ox imişsən,
Dodağımdan qəfil qopan bir ah imişsən,
Eh, bəlkə də bu dünyada heç yox imişsən,
Səni söz-söz, klmə-kəlmə böyütmüşəm mən...

## DƏNİZ

*A.Mansurzadəyə*

Bir şey istəməyə məndən üzün yox,
Sönməsi çətindi ürək odunun.
Hər səhər elə bil mən dənizin yox,
Yanına gedirəm bir şux qadının.

Yenə cilvələnir, nazlanır Xəzər,
Yoluma dikilib ilahi gözlər.
Dəniz də füsünkar qadına bənzər,
Məni ağuşunda qərq edə bilər...

## MƏNİM SEVİMLİ ŞAMIM

Odumdan od almısan, gizli-gizli yanırsan,
Mənim sevimli şamım, söylə, nəyi anırsan?!
Bəbəklərin həsrətlə dolu eşq piyaləsi,
Dodağımı yandırır dodağının şöləsi.
Ömrümü məhəbbətlə, həsrətlə bəzəyirsən,
Ucu yanan sehrli qələmə bənzəyirsən.
Məhəbbətin oduna yox olmağa hazırsan,
Şölənlə ürəyimə öz adını yazırsan.
Əriyirsən sevinclə, həsrətlə, qürur ilə,
Qəlbimi doldurursan sevgi ilə, nur ilə...

## KİM AYIRA BİLƏR AXI?

Sənin könül dəftərindən
Mənim adım qaralanır.
Ürək yaxan sükutunla
Kövrək qəlbim yaralanır.





Özün sevən dost tanımaz,
Sona yetir dastanımız,
Bizim sevgi bostanımız
Uralanır, uralanır...

Gül açmadı kollarımız,
Yana düşdü qollarımız,
Deyirsən ki, yollarımız
Gündən-günə aralanır.

Ürəyimdə sevgi dağı,
Ciyərimdə sevgi ahı,
Kim ayıra bilər axı
Ürəkləri bir olanı?!

## ÇƏTİN KEÇİNƏ

Qönçə hisslərin solmağı
Görürəm, deyil vecinə.
Sözdən bir qala tikmişəm,
Girə bilmirəm içinə.

Bir sim ağdı, bir sim sarı,
Yox qəlbimin bir simsarı,
Yol gedirəm sənə sarı
Qoşulub həsrət köçünə.

Sönməyib qəlbimin odu,
Damağımda busə dadı...
Gözləri yar yolundadı,
Can verən çətin keçinə...

## GÖZƏL

Qəlbimi şam tək əritmək
Arzun, diləyindi, gözəl.
Mənim pəncərəmi döyən
Sənin küləyindi, gözəl.

Durdum onunla üz-üzə,
Durdum onunla göz-gözə,
Nə xəbər gətirib bizə
Görək külək indi, gözəl?!

Bu nə həsrət, bu nə ahdı? –
Bəbəyimdən ulduz axdı,
Mənim sevgimin paytaxtı
Sənin ürəyindi, gözəl…

## GİLEYİN HAQLIDI…

Gileyin haqlıdı, neyləyim, gülüm,
Səni sənin kimi duymamışam mən.
Qovuşa bilərdi əlinə əlim,
İnsaf yol verməyib, qıymamışam mən.

Ürəyin nə qədər ağrıya dözüb,
Sözüm yara üstə düşən duz olub…
Gözlərim görməyib yazdığın sözü,
Cavab istəmişəm qırsaqqız olub.

Qəlbimi duymasan, yanıma gəlmə,
Sən çiçək, ürəyim ac arı imiş…
Mənim görmədiyim o bircə kəlmə
Sənin ürəyinin açarı imiş…





Sevdalı gözündə yaş muncuq-muncuq,
Onları torpaqdan necə qaldırım?!
Başımın üstündə həsrət qılıncı,
Ayağım altında qorxunc sıldırım…

Arı tək incitdim çiçək qəlbini,
Niyə baş açmadım axı sözündən?!
Duya bilməsəm də kövrək qəlbini,
Doya bilməmişəm ala gözündən.

Üstümdə dolanıb dumanlar, sislər,
Başım heç sevgidən ayıq olmayıb.
Mənim ürəyimdən boy verən hisslər,
Sənin ürəyinə layiq olmayıb…

Soyuq görünsə də, verir qar işıq,
Sevdalı başına dünya dar imiş.
"Niyə?" nidasında sevgi qarışıq
Təəssüf, iztirab, əzab var imiş.

Sənin gözlərini yaş aparanda
Bilirsən ürəyim nə zillət çəkib?!
Mənim alimliyim baş aparanda,
Mənim şairliyim xəcalət çəkib…

Əzizim, ürəyin solan gülünü
Dirçəltmək mümkünmü soyuq yağışla?!
Titrək əllərimə uzat əlini,
Bağışla, bacara bilsən, bağışla…

***

Deməli sözünü gözünlə demisən,
Qanadım yoxsa da, mən uça bilirəm.
Əzizim, sən mənim ürəyim kimisən, –
Nə ondan, nə səndən baş aça bilirəm…

## DARIXMA

*...Mənim sevgimin ünvanı insan olsaydı, nə dərdim. Bəli, hər şeyi olduğu kimi, açıq-aşkar yazmaq istəmirdim. Çünki Əli Kərim demiş: "Zülməti korlar da görür..."*

*Bir məktubdan*

"Zülməti korlar da görür", – deyirsən,
Görə bilməmişəm yazdığın sözü.
Bağışla, əzizim, məni bağışla,
Axı məhəbbətin kor olur gözü?!

İşığın gurluğu məni çaşdırıb,
Gileyin qəlbimdə bir oxdu sənin.
De, hansı sözünə biganə qaldım?
De, hansı sözündə nur yoxdu sənin?!

Körpə bir sevdaya dil verə-verə,
Bilmirəm nə üçün dilbilməz oldum?!
Bir gün deyəcəksən Əli Kərim tək:
"Qayıt, mənim gülüm, nə gəlməz oldun?!"

Misralar oduna sənin ürəyin
Zərif bir şam kimi yanar gizlicə.
Şeirə, sənətə vurulan gözəl
Eşqini insana yönəltsin necə?!

Hələ tapmamısan axtardığını,
Sənə vurulsa da bir şair indi.
Darıxma, əzizim, sənin ürəyin
Mənim olmasa da, bir şairindi...

"Zülməti korlar da görür", – deyirsən, –
Görə bilməmişəm yazdığın sözü.
Bağışla, əzizim, məni bağışla,
Axı məhəbbətin kor olur gözü?!





## SƏN DEMƏ

*"Mən Sizi çox istəyirəm. Onsuz da bilirsiniz. Bunu deməyin mənası yoxdur..."*

*Bir məktubdan*

Şair gözəllərin qurbanlığıdı,
Xoşbəxtəm, başına çevirsən məni.
Sevgimə mən cavab istəməsəm də,
Onsuz da bilirdim sevirsən məni.

Onsuz da bilirdim qəlbin kövrəkdi,
Sevgiylə, həsrətlə doludur için.
Doğru yazırsan ki, əsas ürəkdi,
Sağ ol bu səmimi etiraf üçün.

Səni axtarmışdım intizar ilə,
Adını qəlbimdə əzizləmişdim.
Üzünü bir dəfə görməsəm belə,
Yolunu illərlə mən gözləmişdim.

Sevindim, ilk dəfə məni duyanda,
Bəxtimin dumanlı üzü açıldı.
Ala gözlərində yaş qaynayanda
Elə bil qəlbimin gözü açıldı.

Duydum ki, çin oldu arzum, diləyim,
Bəxtiyar şimşəklər çaxdı başımda.
Duydum ki, illərlə mənim gəzdiyim,
Axtardığım gözəl durub qarşımda.

Qönçə bağlayıbmış söz ürəyimdə,
Mənim qismətimi tale yazırmış.
Sən demə bir məsum qız ürəyində
Xoşbəxt bir şairin yeri hazırmış...

## QƏRİBLİK

*"Qəribədir, eləmi? Axı mən özüm də qəribəyəm!"*

*Bir məktubdan*

Ay mənim sevimlim,
Ay mənim qəribəm.
Sevdalı qəlbində
Məgər mən qəribəm?!

Sən əgər istəsən,
Hər şeydən keçərdim.
Qəribə olmasan,
Heç səni seçərdim?!

## ÜRƏK SÖZÜ

*"Şair sevgilisi olmaq üçün əsas ürək gərəkdi..."*

*Bir məktubdan*

Bilirəm, eşqə düşəndən
Çox incidib ürək Sizi.
Ürəyi sevdalı şair
Necə sevsin ürəksizi?

Hərdən bir mənə göz elə,
İncə ruhumu təzələ.
Deyilərmi hər gözələ
Ürək sirri, ürək sözü?!





## DƏNİZ GÖZLƏRİNİN RƏNGİNİ ALDI

O gün fırtınalı dənizə döndüm,
İçimdən boy verdi quduz dalğalar.
Ümid qığılcımı bir anda söndü,
Səsimə hay verdi quduz dalğalar.

Başımın üstünü tutdu kor duman,
Ürəyim bir kiçik qayığa döndü.
Özüm öz içimdə qərq olan zaman
Mehriban gözlərin mayağa döndü.

Bu azğın tufandan qurtulmaq çətin,
Ancaq ki, qorxmurdu, ürək şən idi.
Sənin təmənnasız saf məhəbbətin
O kiçik qayığa sərnişin idi.

Elə ki, gözlərin üzümə baxdı,
Həyəcan, fırtına arxada qaldı.
Tufanlar qoynundan zəfərlə çıxdıq,
Dəniz gözlərinin rəngini aldı...

## ŞƏRİKLƏR

*"Dənizi Sizə bağışlayıram. Qoy heç olmasa, bizim bir şərikli şeyimiz olsun..."*

*Bir məktubdan*

Taleyin hökmünə inanıram mən,
Bizim də dünyada bir payımız var.
Xoşbəxtəm, şərikli bir dənizimiz,
Xoşbəxtəm, şərikli bir ayımız var.

Özün bilirsən ki, dəymədüşərəm,
Qəlbimi hər kəsə umud olmaram.
Dənizi görəndə məni anırsan,
Necə ki, dəniz var, unudulmaram...

De, necə özümü xoşbəxt sanmayım,
Gözlərin gözümə baxırsa əgər?!
Mənim şeirlərim qanına hopub,
Sənin damarında axırsa əgər?!

İçimdə alışan gizli ocağın
Bir közü sənindi, bir közü mənim.
Elə şəriklidi şeirlərim də,
Bir sözü sənindi, bir sözü mənim...

## TƏSKİNLİK

Qorxuram tutula birdən üzümüz,
Qəm gələ, silinə birdən izimiz.
Ancaq nə yaxşı ki, bizim şərikli
Bircə sevgimiz var, bir dənizimiz...

## ÇOX SAĞ OL

Atdığın söz oxu dəydi hədəfə,
Sevən ürəyimin nəydi günahı?
"Çox sağ ol! Çox sağ ol! – dedin üç dəfə –
Bu, təkcə "çox sağ ol" deyildi axı?!

Həsrətdən yanırdı ilahi gözlər,
Sənin hər kəlməndə sevgi var idi.
Mənə elə gəldi dediyin sözlər
Şairə "şifahi qonorar" idi.





Ürək həyəcandan tapmırdı aram,
Mən özüm özümə dedim: – Toxtaq ol!
Əzizim, heç kəsə borclu qalmaram,
Çox sağ ol! Çox sağ ol! Sən də çox sağ ol!...

***

Mənə qibtə edirsənsə,
Sən də eşq oduna gir, yan!
Gör sevginin ləzzətini,
Sən də ol mənim tək giryan...

## SƏN MƏNİM TUT AĞACIMSAN

Sən mənim tut ağacımsan,
Şirin meyvəni dərirəm.
Sözümün sevgi arxını
Sənə sarı döndərirəm.

Nəfəs verib nəfəsinə,
Düşdüm eşqin həvəsinə,
Yarpağının əvəzinə
Mən sənə ipək verirəm.

Könlüm bir yuvasız quşdu,
Can tükəndi, ruhum uçdu,
Bu sevdanın sonu puçdu,
Görürəm, gülüm, görürəm...

Heç nə görünmür gözümə,
Təki sən qızın közümə.
İpəkqurdu tək özümə
Eşqindən kəfən hörürəm...

## QAYTAR

Qayğısız gülüşlərimi
Yenidən üzümə qaytar.
Eşqin yolunda tökülən
Yaşları gözümə qaytar.

Doğma varkən, uyma yada,
Səni sevəni sal yada.
Ya mənə könül ver, ya da
Könlümü özümə qaytar…

## BİR GİLƏ ÜZÜM

Arabir girirsən yuxularıma,
Səndən ayrılsam da, axı nə dərdim?!
Sinəndə bir salxım üzüm bitmişdi,
Əlimi uzadıb bir gilə dərdim.

Yanırdı köksümdə kəhrəba kimi,
Gəl-gəl söyləyirdi nur saçan üzüm.
Ancaq gözlərini görüb utandım,
İkinci giləni qoymadın üzüm.

Ayıldım yuxudan, röyada belə
Yarından ayrılmaq müsibət imiş…
"Yuxu yozumu"na baxıb sevindim, –
Üzümün gilәsi məhəbbət imiş…

***

Sevən ürəyimin nədir günahı? –
Toruma ilahi bir balıq düşüb.
Mənim taleyimə, – neyləyim axı?–
"Qocalıq çağında yorğalıq" düşüb.





Qorxmursanmı düşək ağıza, dilə? –
Mənə əzab verən baxtımdı bəlkə?
Tinlərdə dayanıb intizar ilə
Sevgili gözləyən vaxtımdı bəlkə?!

Bu həsrət, intizar qəlbimi sıxıb,
Sevdalı ürəyim çətin toxtaya.
Qarşıda önümə sıldırım çıxıb,
Geri dönməyə də yolum yox daha…

## XOŞ GÖRDÜK

Ağıla meydan verənin
Köksündə yumru daş gördük.
Qəlbində sevgi olanın
Kirpiklərində yaş gördük.

Ömrün xəzan çağı başlar,
Qəlbimə süzüldü yaşlar,
Perikdi sevgili quşlar,
Neçə yuvanı boş gördük.

Bir gözələ qonub quşum,
Bahara çevrilib qışım,
Əlvida, düşünən başım,
Sevən ürəyim, xoş gördük!…

## AĞLATDIĞIM
## BİR GÖZƏLƏ

Xatirələr axın-axın,
Yaddan çıxarmı o çağın? –
Gizli yanan bu ocağın
Külü közündən yekədi.

Tanrı sənə verib fürsət,
Ömrünü sevgiyə həsr et,
Bəbəyində olan həsrət
Sənin gözündən yekədi.

Üzü bozarıb sözlərin,
Odu soyuyub közlərin,
Allah, Allah, bu gözlərin
Yaşı özündən yekədi!

## SEVGİNİN BİR ÜZÜ OLAR

Yağış öpür məhəbbətlə,
Çiçəklərin gözü dolur.
Şairlərin adətidi,
Gözəllərdə gözü olur.

Uyumadım qucağında,
Oda düşdüm bu çağımda.
Qəlbdə yanan ocağın da
Qızıl-qızıl közü olur.

Ürəyimin ol simsarı,
Gülüm, baxma yada sarı,
Yaxşı bilir Aşıq Sarı:
Baxışın da izi olur.

Hər kəs məni duya bilməz,
Həsrət gözüm röya bilməz.
Sevən hiylə, riya bilməz,
Sevginin bir üzü olur…





## YAŞIDLAR

Naz satmaq qızlarda bir adət imiş,
Hər oğrun baxışın mənası varmış.
Sən yaşda sevilmək səadət imiş,
Mən yaşda sevməyin bəlası varmış.

Deyirsən: – Sevəndə tayını sev ki,
Sənə gülməsinlər göz-qaş eləyib.
Neynim, qəlbimdəki ilahi sevgi
Məni də səninlə həmyaş eləyib…

Öpür yanağımı həsrət küləyi,
Məhəbbət önündə qəddim əyilmiş.
Sən demə bu adi şair istəyi,
Sən demə bu adi sevgi deyilmiş…

## SƏN GƏLDİN, SƏN GETDİN

Hərdən salırsanmı heç məni yada?! –
Üzünü görmürəm, gülüm, bir ildi.
Sən mənə yad dedin, qalandım oda,
Sən məni yad etdin, külüm dirildi…

Ürəyim sinəmdə dil-dil ötürdü,
Taleyin verdiyi pay özü gəldi.
Sən gəldin, qəlbimə bahar gətirdin,
Sən getdin, ömrümün payızı gəldi.

Sən gələn yolları gözümlə öpdüm,
Sevdalı qəlbimin daha nə dərdi?!
Sən gedən yollara göz yaşı səpdim,
Ayaq izlərindən həsrət göyərdi…

## İLHAM PƏRİSİ

Titrək əllərinə toxundu əlim,
Ağ günə çıxartdın qara günlünü.
O gün yad elədin sən məni, gülüm,
O gün şad elədin şair könlünü.

Baxa bilərdimmi heç sənə gendən? –
Sən nursan, mən isə işıq hərisi.
Nazlana-nazlana soruşdun məndən:
– Tapdınmı bir təzə ilham pərisi?!

Ürəyim bir ötən sevdayla sızlar,
Elə sual vermə boynunu burub.
Ulduz tək yansa da dövrəmdə qızlar,
Ay tək nur saçanım yanımda durub.

Əlindən tutanda əlin yanırdı,
Mehriban gözlərin məni sınadı.
Ovcumun içində xumarlanırdı
Öz ilham pərimin titrək qanadı…

Əgər sən yoxsansa, o niyə qalıb? –
Əl uzat, köksümdən qopar könlümü.
Titrək qanadının üstünə alıb,
Apar, İlham pərim, apar könlümü,
Mənim dərd əlindən qabar könlümü…

## HALIMI SORUŞAN GÜLÜM

Məni taleyim qarğıdı,
Sənə gəldi nişan, gülüm.
Neyləyim qəlbin açılsın,
Ay mənim pərişan gülüm?





Qəm sayrışır bəbəyində,
Həsrət yükü – kürəyində.
Paralanmış ürəyimdə
Bağlayıb arı şan, gülüm.

Nə ilahi gözlər idi?! –
Yollarımı gözlər idi…
Sevginin son közləridi
Gözümdə sayrışan, gülüm.

Doğma ikən sənə yadam?!
Vüsalını çətin dadam.
Ola bilməz böyük adam
Taleylə barışan, gülüm.

Səni özgə bir əl dərib,
Boylanıram qərib-qərib.
Gecələr yuxuma girib,
Halımı soruşan gülüm…

## SEVGİ YUVASI

Dünyada hər dərdin bir əlacı var,
Sən bu həqiqəti biləsən gərək.
Sevib-sevilməyə ehtiyacı var,
Əzizim, heç zaman boş qalmır ürək…

Təzə yurd yerində salmışam binə,
Ötən məhəbbətim solub, deyəsən.
Elə əsirsən ki, sənin qəlbinə
Sevgi qığılcımı dolub, deyəsən.

Məhəbbət baxmır ki, qocaya, gəncə,
Məhəbbət – qəlbimdən boylanan çiçək.
Sevgi gətirsə də əzab, işgəncə,
Yenə də sevməyə can atır ürək.

Nəfəsin sehrli həsrət küləyi,
Durmuşam önündə qəlbimdə qürur.
Sevgi yuvasıdı şair ürəyi,
İçində gözəllər aşiyan qurur…

## İLAHİ, KİM GƏLİB GÖR GÖRÜŞÜMƏ

Nə qədər gözəli vurdum dişimə,
Axır ki, hisslərim saldı bəxtə vər.
İlahi, kim gəlib gör görüşümə,
İlahi, olubmu məndən bəxtəvər?!

Bəlkə də qəlbində ayrı dilək var,
Yanımda əbədi qalmağa gəlib?
Bəlkə də könlünü yaxır intizar,
Məndən xeyir-dua almağa gəlib?!

Hər titrək kəlməsi qəlbimə oxdu,
Nə fırıldaq bilir, nə də ki hiylə.
İlahi, o qızın günahı yoxdu,
İlahi, o qızı bəxtəvər eylə!…

***

Qaça bilərdimmi sənin önündən,
Görüşə gəlməklə nə günah etdin?!
Qılınc tək sıyrılıb nişan günündən
Mənim ürəyimi nişangah etdin.





Bilirəm, özünə bəsdi öz qəmin,
Bir nadan hissimə qənim olacaq.
Taleyin beləymiş: cismin özgənin,
Ruhun həmişəlik mənim olacaq…

***

Dəniz sahilində baş-başa durduq,
Dəymişlər töküldü, kallar sevindi.
Şəhəri bu başdan o başa vurduq,
Döngələr sevindi, yollar sevindi…

Bu görüş kiminsə öz bəxti idi,
Ürəyin sözünü gözlər deyirdi.
Ruhumuz xoşbəxtlər xoşbəxti idi,
Dilimiz adicə sözlər deyirdi.

Arabir arzular qalxsa da zilə,
Sevişən ürəklər pıçıldaşırdı.
Bir zərif qanadlı kəpənək ilə
Bir qoca qırğını görən çaşırdı.

Bu, bəlkə röyadı, bəlkə yuxudu? –
Səni də yolundan sevgi elədi.
Kəpənək qırğıya meydan oxudu,
Qırğı kəpənəyə uğur dilədi…

## İTMİŞ QƏLƏMİN NAĞILI

Bir qələm bağışladım sənə, sehrli qələm,
Onunla yazacağın sözə dikilib gözüm.
Deyəsən gözlərində dəyişib dünya, aləm,
Adicə adamlardan seçilmirəm mən özüm…

Bir kövrək məhəbbətin qəbrini qazdırmısan,
Ürəyim əzab çəkir ələmlərin içində.
Sənə bağışladığım qələmi "azdırmısan",
Ona bənzər adicə qələmlərin içində…

Mənim yaşıl sevgimə təsir etməz xəzan da,
Hisslərin adiləşsə, yolundan sapacaqsan.
O oxşar qələmlərlə sevgi sözü yazanda,
Mənim bağışladığım qələmi tapacaqsan…

## YERİM VAR

Demirəm eşqindən çöpə dönmüşəm,
Şükür ki, bir sümük, bir də dərim var.
Gözümdən bir tük də yayına bilməz,
Məni sevdiyindən bil, xəbərim var.

Ala gözlərinin yaşına dönüm,
Ömrünün yazına, qışına dönüm.
Sənin ürəyinin başına dönüm,
Sənin ürəyində mənim yerim var.

Uğura dönmüşəm nəslər içində,
Mənim də səsim var səslər içində,
Sənə doğma olan kəslər içində
Rafiq Yusifoğlu, Əli Kərim var…

## ƏGƏR SEVİRSƏNSƏ…

Həsrətli baxışlar köksümü dağlar,
Mələk qarşısında acizdi bəndə.
Təzə don geyinir yamaclar, dağlar,
Dünya gözəlləşir ürək sevəndə.





Üzünə baxanda gözlərim dindi,
Duydum ki, qəlbinə sevgi düşübdür.
Sənin gözlərində, bilirəm indi
Bu dünya nə qədər gözəlləşibdir.

Həsrətin boynumda qəm sarmaşığı,
Yaz gəlir, ürəkdə sevda oyanır.
Şair ürəyinin yaşıl işığı
Bütün sevənlərin önündə yanır.

Alnımdan baharın yelləri öpür,
Təzə çiçəkləyən körpə badamsan.
Sənin təbəssümün incilər səpir, -
Əgər sevirsənsə, bizim adamsan…

## SEVDALI NƏĞMƏ

Bu gözəl dünyaya gəlmişik qonaq,
Nadanlar önündə sinə gərmişik.
Meydan sulamasın iblislər nahaq,
Sevda mələyinə könül vermişik.

Vecimə almıram daha qınağı,
Ömrün bir anı da səadət olur.
Şair dodağıyla gözəl yanağı
Üz-üzə gələndə müsibət olur.

Duyana bəxş edib Tanrı işığı,
Sevdalı könlümün əcəb zövqü var.
Gözəl yanağında Tanrı işığı,
Şair dodağında mələk şövqü var.

Bəlk oyatmışam qəlbində nifrət?!
Görəsən sevgilim gələrmi rəhmə?!
Şairə nə qalır?
–Sevda, məhəbbət.
Şairdən nə qalır?
–Sevdalı nəğmə…

## BU SEVGİ SINAĞI

Məhəbbət adamı bir gör neyləyir?! –
Ağlım hisslərimə bil: deyil asi.
Ancaq ürəyimdə bir söz göynəyir,
Nə açılasıdı, nə deyiləsi…

Qohumlar, qardaşlar ikimizə də
Əcəl şərbətini içirəcəklər.
Hoydu-hoydu ilə, daş-qalaq ilə
Bizi bu dünyadan köçürəcəklər.

Bu sevgi sınağı uzun sürəcək,
Qaynar qazanlarda bişəcəyik biz.
Fəqət qorxum yoxdu, tutsan əlimdən
Sözsüz ki, cənnətə düşəcəyik biz…

## BU SEVDA

Kövrək duyğularım nurdu elə bil, –
Bilmirəm heç necə doğulubdur o.
Vallah, bu adicə məhəbbət deyil,
Sehrlə, ecazla yoğrulubdur o.

Bu sevda eləyib məni utancaq,
Əlinə həsrətdi titrəyən əlim.
Mən sənsiz yaşaya bilərəm, ancaq
Çətin ki, sevgisiz yaşaya bilim…





## SƏN ÇİÇƏKSƏN, MƏN ARI

Məni yoldan elədin,
Ay ömrümün baharı.
Bir acgöz arı kimi
Uçuram sənə sarı.

Qoymursan ki, qərq olam
Tellərinin ətrinə.
Ona görə arabir
Sözüm dəyir xətrinə.

Hey tikanlı-tikanlı
Söz atmağı sevirsən.
Özün arıya çubuq
Uzatmağı sevirsən.

Çiçək kimi bir qızsan,
Dəymədüşərsən ancaq.
Heç görmüsən, bir dəfə
Çiçəyi arı sanca?!

## BİR GÜNÜN XATİRƏSİ

Təzəcə barışmışdıq,
Baxışların yanırdı.
Elə bil ki, köksündən
Bir günəş boylanırdı.

O başa yeriyirdim,
Bu başa yeriyirdim.
Mənə elə baxırdın,
Şam kimi əriyirdim.

Sən ağlının hökmünə
Qənim idin həmin gün.
Təpədən dırnağacan
Mənim idin həmin gün...

## ƏZİZİM

Bəlkə də dünyanın bəxtəvəridi
Təbəssüm nurunda çimən, əzizim?
Hər mənə baxanda səhra ürəyim
Olur bir çiçəkli çəmən, əzizim.

Ürəkdə qorxunu buza döndərir,
Quru bir odunu saza döndərir,
Mənim payızımı yaza döndərir,
Sənin sevgi dolu namən, əzizim.

Adət zəncirini gəl çırpaq daşa,
Qəlbimiz həmişə döyünsün qoşa!
Bu qoca dünyadan kam al: sev, yaşa!
Nə sən itirmisən, nə mən, əzizim...

## QARA YEL, ƏSMƏ...

Qara yel, bağımın üstündən əsmə,
Hələ gül açmamış budağım qalıb.
Baba ocağında, ata yurdunda
Yolumu gözləyən otağım qalıb.

Arzular qarıyıb uşaq köksündə,
Aparma şairi bu dağ köksündə.
Ağ-ağ buludların yumşaq köksündə
Hələ açılmamış yatağım qalıb.





Bəlkə son anımdı, əsir dizlərim,
Deyə bilməmişəm ən xoş sözləri,
Onun öpülməmiş ala gözləri,
Mənim çat-çat olan dodağım qalıb...

## SAĞ OL

Göstərdiyin etibar, gülüm, bir ömrə dəyər,
Sevəndə düşmür axı nə iman, nə din yada?!
Sən sirrini ilk dəfə mənə açdınsa əgər,
Deməк məndən əzizin, doğman yoxdu dünyada...

## NECƏ SEVİRMİŞƏM...

Dedin: bir avara düşüb dalımca,
Bilmirəm heç məni nələr gözləyir.
Əsəbim çevrildi iti qılınca,
Qorxma, sevənləri zəfər gözləyir.

Birdən sakit sular coşdu, qabardı,
Çoxaldı saçımın dəni, əzizim.
Qəlbimdə qısqanclıq tufan qopardı,
Necə sevirmişəm səni, əzizim?!

## MƏNİM YAZ ÇİÇƏYİM

– Mənim yaz çiçəyim, niyə əsirsən?
Sevgi gülşənində yadmı gəzəcək?
– Səndən nə gizlədim, qəlbimə damıb,
Məni bir duyğusuz adam dərəcək...

– Qıymaram bir ləkə düşsün adına,
Ürəyim yansa da eşqin oduna.
Əgər qismət olsan sən bir nadana,
Qəlbim bu ağrıya necə dözəcək?!

## BİR AXŞAMIN XATİRƏSİ

Ürəyi coşmuşdu xəyali bəyin,
Xəyali gəlin də bəxtiyar idi.
"Xəyal" həqiqətə layla çalırdı,
Əllərim əlində bəxtiyar idi…
Gözlərim gözündə bəxtiyar idi,
Dodağım üzündə bəxtiyar idi…
"Buraya gəlmişəm tək Sizə görə", –
Titrəyən sözün də bəxtiyar idi…
Sevda dünyamızın qaranquşları
Uzaq diyarlardan köçüb gəlirdi.
Bu ilki baharın müqəddəs yolu
Bizim qəlbimizdən keçib gəlirdi…

## BU BAHAR

Bu bahar qəlbimdə ürək açdı dil,
Gözlərim torpağa incilər səpdi.
Mənim yanağımı küləklər deyil,
Çiçəyə bənzəyən gözəllər öpdü.

Həsrətli baxışlar dönüb oldu ox,
Dumanlar içində gəncliyim itdi.
Bu bahar lalələr çöldə, düzdə yox,
Mənim yanağımda, üzümdə bitdi…





## DƏLİ SEVDA BAŞIMDA

Keçilməz sıldırımlar
Dayansa da qarşımda,
Hey yolları ölçürəm,
Dəli sevdan başımda.

İnanıram eşqindən
Qüvvət alan gücümə.
Çovğun deyil vecimə,
Tufan deyil vecimə…

Ürəyimə damıb ki,
Əbədidi bu sevda.
İki sevən ürəyin
Məbədidi bu sevda…

## SÖZLƏRİMİN ACIĞINA

Mənə meydan oxuyursan,
Gülüm, açıq-açığına.
Özümdən intiqam aldın
Sözlərimin acığına.

Turşudursan üz-gözünü,
Dodağında bumbuz sözlər.
Zülm eləmə o yazığa, –
Gözümdən düşməz o gözlər…

## DEDİN Kİ, TƏNHALIQ DÖVRÜ BAŞLAYIR...

Bildin ki, ürəyim nəyi xoşlayır,
Yenə dincliyimin qəsdinə durdun.
Dedin ki, tənhalıq dövrü başlayır,
Əzizim, sən nəyə işarə vurdun?!

Başımın üstündə şimşəklər çaxır,
Göylərin hirsini soyudacağam.
Qəlbinə damıbmı: mən əvvəl-axır
Öz tənha dünyama qayıdacağam?!

Dadlı bir təbəssüm etdin hədiyyə,
Gizli bir həyəcan təbili çaldın…
Tənhalıq qəlbini üşütdü deyə,
Tənha bir guşəni yadıma saldın…

Şərik ol qəlbimin qayğılarına,
Qapımdan nə yarpaq, nə xəzan girir.
Tənha bir mənzilin yuxularına,
Tənha gecələrdə bir gözəl girir…

## ÖZÜNDƏN GİZLƏNƏ BİLMƏYƏCƏKSƏN

Əgər məhəbbətlə üzümə gülsən,
İlin hər fəslində baharam, ay qız!
Özünü güzgü tək sındırsan, bölsən,
Bil ki, hər parçanda mən varam, ay qız!





Acı söz deməyə gəlməyir dilim,
Acı göz yaşını silməyəcəksən.
Sən məndən gizlənə bilərsən, gülüm,
Özündən gizlənə bilməyəcəksən…

## NƏ HAQQIM

Yerli-yersiz danlayıram bəzən özümü,
Hisslərimin cilovunu yığmalıyam mən.
Özüm qazıb atmalıyam ayaq izimi,
Öz əlimlə bu sevdanı boğmalıyam mən.

Ürəyində söz olanlar çətin ki, susa,
Sənsiz mənim çörəyim də, suyum da zəqqum…
Bu sevdanı ürəyimə Tanrı salıbsa,
Onu boğub öldürməyə mənim nə haqqım?!

## MƏNİ ÖYRƏNMƏYƏ BEŞ-ON İL AZDI

Məni öyrənməyə beş-on il azdı,
Tanrıdan əlavə bir ömür dilə.
Hər şair ürəyi sədəfli sazdı,
Tazanə baxışla o gələr dilə.

Əzizim, sirdaşım, dostum, yarımsan,
Qəlbimə damıb ki, son baharımsan.
Sevgi dünyasında hökmdarımsan,
Sənət dünyasında bəbəsən hələ…

## DOĞMA TORPAĞIM KİMİ...

Varlığımı titrətdi sənin gizli harayın,
Bir sevilmək arzusu qaynayırdı gözündə.
Yazmışdın ki, sözümdə Siz məntiq axtarmayın,
Çünki məntiq görmürəm bu həyatın özündə.

Göynədirdi dilini bir nisgilli bayatı,
Süfrə kimi qarşına sərmişdim ürəyimi.
Arzuna qəbir qazan bu amansız həyatın
Acığına, mən sənə vermişdim ürəyimi.

Özünü bu dünyanın bəxtəvəri sanırdın,
Oyuncağa dönmüşdün sən hisslərin əlində.
Bir su pərisi kimi qəlbimdən boylanırdın,
Ruhum bəxtiyar idi dənizlərin əlində.

Bilmirəm heç nə oldu, bir gün pozdun adımı
Səni məftun eləyən yaxşılar cərgəsindən.
Uçmaq istəyən zaman sındırdın qanadımı,
Məni sürgün elədin məhəbbət ölkəsindən.

Sonra etiraf etdin: – Qalmayıb geriyə yol! –
Misraların üstündə hönkür-hönkür ağladın.
Yazdım: – Diqqətin üçün sağ ol, min kərə sağ ol, –
Təbəssümlə könlümün yarasını bağladın.

Ancaq yenə dəyişdin, oldun bambaşqa adam,
Laqeydlik, soyuqluq hər şeydən betər imiş.
Ürəyindən qəlbimə gəlmədi əks-səda,
O təsəlli, o ümid bəs nədən ötəriymiş?!





O baxışlar, o sözlər, o vədlər unudulmuş,
Nə üzümə baxırsan, nə bir cavab verirsən.
Özgələr tərəfindən zəbt olunmuş, tutulmuş
Doğma torpağım kimi mənə əzab verirsən...

## AY QIZLAR

***Xırdaca dəniz daşları bağışladığım qızlara***

Ay qızlar, şairə bir qulaq asın,
Əlim dünc durmadı, bir işdi, elədim.
Dəniz daşlarını mən öz adımdan
Sizin hamınıza siriştə elədim.

O daşlar dinmirsə, günahdan keçin,
O daşlar duyğulu, o daşlar kövrək.
O kiçik daşlarla danışmaq üçün
Dənizə çevrilə ruhunuz gərək.

Sevirsə, olacaq qəlb cadar-cadar,
Sanmayın ürəyim buz tək soyuqdu.
Hamıya verməyə daşlarım çatar,
Hamıya verməyə ürəyim yoxdu.

Üstümə sevgiylə gələnlər üçün
Hissimin, duyğumun qolu açıqdı.
Daşlarla danışa bilənlər üçün
Mənim ürəyimin yolu açıqdı.

Sevdalı ilhamım sizdən güc alıb,
Nə ona baş qoşun, nə də lağ edin.
Nə vaxt ki, duysanız ruhum qocalıb,
Məni o daşlarla daşqalaq edin...

## SEVGİ İLƏ YOĞRULMASA

Sevgi ilə yoğrulmasa,
Qəlbdə pas tutar hisslər də.
Sevənlərin gözlərinə
Yaxşı görünür pislər də.

Məhəbbətlə baxırsansa,
Yarpaq adi yarpaq olmur.
Çiçək adi çiçək olmur,
Budaq adi budaq olmur.

Sevənlərin gözlərində
Təpələr də dağa dönür.
Xırda kol-kos bitən yerlər
Bir çiçəkli bağa dönür.

Əgər sevgisiz ötürsə,
Ay ay deyil, il il deyil.
Pisimi gözün görürsə,
Məhəbbətin kamil deyil…

## AY ÜZLÜMƏ

Ürəyin saf, eşqin aydın,
Sevgi göylərimdə Aydın…
İşığın yuva qurmuşdu
Gözlərimin qarasında.
Niyə qaçıb gizlənirsən
Bəs buludlar arasında?





## DEDİM, DEDİ

Dedim: – Gen gəzmə,
Qalarsan tənha!
Vüqarla güldü:
– O da kim, mən ha?!

## SEVGİNİ SEVGİYLƏ UNUTDURARLAR

Niyə əsir oldun axı sevgiyə,
Şeirimmi, sözümmü aldatdı səni?
Niyə məni sevdin, bilmirəm niyə?
Həsrətli gözümmü aldatdı səni?

Mənə vurulandan üzün gülmədi,
Sevdalı başına dünya dar oldu.
Mən sənə səadət verə bilmədim,
Sevdin, mükafatın əzablar oldu.

Üzdü ürəyini sevgi təlaşı,
Çətin ki, yetişə əlinə əlim.
Mənim məhəbbətim sənə göz yaşı,
Həyəcan, iztirab gətirdi, gülüm.

Məhv edə bilsəydin bu həyəcanı,
Ömrünə yenidən dönərdi bahar.
Sev bir başqasını, qurtarsın canın,
Sevgini sevgiylə unutdurarlar…

## OLDUM

Dünyaya zülmət çökəndə
Titrəyən işıqmı oldum?
Sarmaşığın sarıldığı
Bir quruca şaxmı oldum?!

Dərd oduna baca idim,
Ucalardan uca idim,
Bir ixtiyar qoca idim,
Təzədən uşaqmı oldum?!

Müsibətdi sevgi yolu,
Dil qıfıllı, ürək dolu...
Zəmi idim, döydü dolu –
Bir dəstə başaqmı oldum?!

Sözün içindən söz çıxır,
Külün içindən köz çıxır,
Qəlbimə daman düz çıxır,
Müqəddəsmi, şıxmı oldum?!

Heç bilmirəm nə gəzirəm,
Axı hara tələsirəm?!
Onu görcək, hey əsirəm,
Allahım, aşiqmi oldum?!





## SEVGİ DÖRDLÜKLƏRİ

Dediyim sözlərə yaxşı qulaq as,
Kövrək hisslərimin aynası sənsən.
Sevgidən yaranan bu şeirlərin,
Atası mənəmsə, anası sənsən...

***

Qovğalı başıma olub dünya dar,
Narahat ömrümdə incisən, dürsən.
Məni xilas edən iki qüvvə var:
Bir dəniz, bir sən...

***

Nə vaxtdandır sevdalı
Gözlər gözümə baxmır.
Özümə yer tapmıram,
Sözlər sözümə baxmır.

***

Gözəl qızlar qaranquş tək
Ömrümə gətirir bahar.
Sevda bitib tükənməyir,
Hər yaşın öz sevgisi var...

***

Ayağımı bu dünyadan üzəcəksən,
Həsrət dolu gözlərimə baxa-baxa.
Sən cavansan, bu sevdaya dözəcəksən,
Mənim qəlbim bu sınaqdan çətin çıxa...

***

Tanrı qarğımasın görüm heç kimi,
Bir gün açılanlar, bir gün solacaq.
Mən səni ağrıyan çürük diş kimi
Çəkdirib atsam da, yerin qalacaq...

***

Könlüm vüsal təşnəsidi, görmürsənmi gözlərimi?
Fikrim sənin yanındadı, bilmirəm nə danışıram.
Nə gizləyim, sənə qarşı olan kövrək hisslərimi
Kobud sözlər arasında gizləməyə çalışıram…

***

Niyə gəldin qəlbimə, perikdirdin yavrumu? –
Ay söz, sən köhnəlmisən,
ay söz, sən deyilmişsən…
İllər boyu axtarıb aradığım o gözəl
Bəlkə sən deyilmişsən?!…

***

Ürəyinə dəymədi, çevrildin, yan ötdü ox,
Kaş ürəyin arzular məhbəsinə dönməsin…
Üz-üzə gələn zaman üzün döndü, eybi yox,
Təki ürəyindəki közərən od sönməsin…

***

Kol dibindən boylanan solğun bənövşəyəm mən,
Sözümü duymayana əzab, əndişəyəm mən.
Ürəyimdən keçəni başa düşmür sevgilim,
Bu üzündən o üzü görünən şüşəyəm mən…

***

Bu sevgi yollarında qəlbim olub ərəsən,
Xəyanətmi etmişəm könül verdiyim bütə?
Axı mənim günahım nə olubdu görəsən,
İlahi, layiqəmmi bu kükrəyən nifrətə?!

***

Məhəbbətin əzabına
Çox az adam tab gətirir.
Sevgi sevinc gətirmir ha,
Sevgi iztirab gətirir…





***

"Nifrət dolu" məktubunu
Təzdən oxudum diqqətlə. –
Demə sənin qəzəbin də
Yoğrulubmuş məhəbbətlə…

***

Yazdın: – Çevrilmisən bir ovuc külə, –
Sevdalı başıma səpəcəm səni.
Dilim gül açacaq külünə dəysə,
Hönkürə-hönkürə öpəcəm səni…

***

Hicran qılınc sıyırıb, didərgin düşüb vüsal,
Səadətin yolları niyə məndən yan gedir?
Məhəbbətlə baxırsan ötən trolleybusa,
Çünki onun içində sevimli insan gedir…

## RÜBAİLƏR

Bizi ömür boyu izləyir Allah,
Ulu dərgahında gözləyir Allah.
Yeri gül-çiçəklə, göyü ulduzla,
Ürəyi sevgiylə bəzəyir Allah…

***

Bir gün çıraq kimi sönəcəyik biz,
Toxum tək torpağa enəcəyik biz.
Ha yana üz tutsaq, ha yana getsək,
Haqqın dərgahına dönəcəyik biz…

***

Bir güləm, istəsən dərərsən məni,
Yolub küləklərə verərsən məni.
Sözümün altında gizlənmişəm mən,
Sözümü anlasan, görərsən məni…

***

Özünə güvənmə, ey nazlı afət,
Gəl bağla sevdalı qəlbimlə ülfət.
Cavanlıq, gözəllik ötəri şeydi,
Ancaq əbədidi sevgi, məhəbbət...

***

Acı kəlmələri sözlərin dedi,
Məni sevdiyini gözlərin dedi.
Başqa gözəllərə baxa bilmirəm,
Günah məndə deyil, gözlərindədi...

***

Həsrət səni qarabağır eləyib,
Dərd könlünü sürtüb yağır eləyib
Məclislərdə dil-dil ötən gözəlim,
Sevgi səni yaman fağır eləyib...

***

Gözlərin gülmədi üzümə bir gün,
Çox kefsiz göründün gözümə bir gün.
Bilirəm, nə isə olubdur sənə,
Yer tapa bilmirəm özümə bu gün.

***

Tumurcuq hisslərim yaşıl don geyib,
Bir xəcalət hissi qəlbimi yeyib.
Duyumlu qızların pərvanəsiyəm,
Mənə ox vurmusan "Oxatan" deyib...

***

Bu dünya durduqca, sevgi var olsun,
Arada düz ilqar, etibar olsun.
Bütün sevənlərə məhəbbətim var,
Bütün sevilənlər bəxtiyar olsun...





## BİR GÖZƏLƏ

Mənimlə üz-üzə gəlcək
Yanağın od tutub yanır.
Üzün qızarır, elə bil
Köksündən günəş boylanır.

## HAQQIM VARMI?

Ömür kimi axıb gedir yaş gözlərimdən,
Bu həyatda tərslik edib ərəsən məni.
Bilə-bilə incitdiyim əzizlərimdən
İnciməyə haqqım varmı görəsən mənim?!

## SİRDAŞ

Mən onunla
Sirdaş oldum.
Qəlbimdəki
Sirr daş oldu...

## QORXU

Tale görüşdürsə də, su hara, qaya hara? –
Qorxuram ki, nə vaxtsa yolumuz haçalana.
Sənin ürəyindəki sualtı qayalara
Mənim məhəbbət gəmim toxunub parçalana...

## MÜKAFAT

*"Həyat məni heç nə ilə mükafatlandırmaq istəmir."*
***Bir məktubdan***

Ürəyimdə bahar gülür, gözlərinə vurulmuşam,
Demə bahar çiçəyinin üstünə payız əsnədi.
Həyatından gileylənmə, ay ömrümə nur saçan şam,
Mənim sevən qəlbim sənə mükafat deyil, bəs nədi?!

## YADDAŞ

*"İstəyirəm Sizin yaddaşınızda əbədi qalam.*
*Göz yaddaşınızda yox ha!"*
**Bir məktubdan**

Qəlbim susanacan solmayacaqsan,
Dünyada hər şeyin bil, yaddaşı var.
Tək göz yaddaşımda qalmayacaqsan,
Dodaq yaddaşı var, dil yaddaşı var...

## ZARAFATLA "KAL" ADLANDIRDIĞIM QIZA

Məndən inciməyə haqqın da yoxdu, –
Çünki nəfəsimdə haqqın səsi var.
Kalların yetişmək gümanı çoxdu,
Dəymişin çürümək təhlükəsi var...

## QURBANLIQ

Sözümün ömrü uzundu,
Öz ömrümsə bir anlıqdı.
Şairlər doğulan gündən
Gözəllərə qurbanlıqdı...

## KİBRİT ÇÖPÜ

*"Bu cür şeirlər kibrit çöpünə bənzəyir, bir dəfə yanıb, sönür..."*
**Bir məktubdan**

İnanmıram ki, kibritdən
Gileyi nurlu şam edir.
O çöp yanıb sönmür, ömrü
Ocaqlarda davam edir...





# SƏNİ BİRCƏ DUYAN VARSA

## SƏN MƏNİ QINAMA

Yağsa da ömrümə illərin qarı,
Həyatım ağaca, gülə oxşayır. –
Hələ ürəyimdə neçə baharın
Yolunu gözləyən qönçə yaşayır.

Dinclik tapa bilmir ürək bir hovur,
Özünə sevgidən çələng toxuyur.
Saçıma düşsə də ömrün qırovu,
Qəlbimdə yaz qışa meydan oxuyur.

Üşüyə-üşüyə çiçək dərəndə,
"Sənə soyuq olar, yağışdır", – demə.
Gözlərim sevinir gözəl görəndə,
"Qocasan, özünü yığışdır",– demə.

Günəş məhəbbətlə üzə güləndə,
Dirçəlir, gül açır quru yamaclar.
Cavanlar var deyə, bahar gələndə
Çiçək açmasınmı qoca ağaclar?

## BƏXTİMİN ÜLKƏRİ DEYƏRDİM SƏNƏ

Bəxtimin ülkəri deyərdim sənə,
Dayandıq üz-üzə, alışdıq, söndük.
Nə vaxt uzaqdaydın, doğmaydın mənə,
Nə vaxt yaxınlaşdıq, ögeyə döndük.

Bu görüş, bu vüsal yalanmış, yalan,
Başımın üstünü aldı qarlı qış.
Demə, o duyğular kül altda qalan
Közün axırıncı işartısıymış…

Ürəyim – günbəgün soyuyan torpaq,
O sevgi – bir payız çiçəyi imiş.
Göz yaşın – budaqdan düşən son yarpaq,
Ahların – son bahar küləyi imiş…

Əl çək hisslərimin daş yaxasından,
Danışma, gözündən yaş tökə-tökə.
Mənim ürəyimi qış yuxusundan
Bir bahar çiçəyi oyada bəlkə?!

## BİR QADININ SÖZLƏRİNDƏN

Minnətçi göndərmir həyat küsənə,
Onun qanunları necə sərt imiş.
Səninlə olduğum anlar əfsanə,
Təkcə göz yaşlarım həqiqət imiş…

## AY UZAQ DAĞLARDAN GƏLƏN ÇİÇƏYİM

Titrədi ürəyim, əsdi ürəyim,
Arzum pardaxlandı yaz havasına.
Ay uzaq dağlardan gələn çiçəyim,
Qəlbimi kökləd in yaz havasına.

Doldu otağıma bənövşə ətri,
Gül açmaq istədi quru ağaclar.
Əllər yol gəlirmiş əlimdən ötrü,
Sinəmdə saz oldu şəlalə saçlar.





Yaxın gəl, təzədən bitim, göyərim,
Çiçəklər şairə bir tacmış demə.
Mənim para-para olan ciyərim,
Çiçək qoxusuna möhtacmış demə…

Qəlb gərək təzədən vurulmaq üçün,
Başımın üstündən tufanlar əsmiş.
Eşqin kor gözündə nur olmaq üçün,
Bir zərif çiçəyin işığı bəsmiş…

Titrədi ürəyim, əsdi ürəyim,
Hissim pöhrələndi saz havasına.
Ay uzaq dağlardan gələn çiçəyim,
Qəlbimi köklədin yaz havasına.

## SEVGİ QANADINDA

Yaşın bu çağında dağıldı huşum,
Heç nəyi almadım daha eynimə.
Hardan uçub gəldi bu dövlət quşu,
Başıma fırlanıb, qondu çiynimə?!

Didir, parçalayır söz ürəyimi,
Gözə sığal çəkən gözəllər imiş.
Sən demə, sehrli qız ürəyinin
Tilsimli açarı qız əlləriymiş…

Fil gücü var imiş zərif çiçəkdə,
Kasıbın üzünə tale gülərmiş.
Coşub çağlayanda sevgi ürəkdə,
İnsan qanadsız da uça bilərmiş…

Yaşın bu çağında dağıldı huşum,
Heç nəyi almadım daha eynimə.
Hardan uçub gəldi bu dövlət quşu,
Başıma fırlanıb, qondu çiynimə?!

## DİLİMDƏ BİTƏN ÇİÇƏK

Dünya namərd dünyadı,
Qaranı ağdan seçək.
Çiçəklərin gözündən
Sevgi şərbəti içək.

Hey yolunu gözlərdim,
Bu nə odlu gözlərdi?!
Kül altda od közərdi,
Sən otağıma gircək.

Sinəndəki xal – dadlı,
Dodaqların bal daddı.
Şeytan bizi aldatdı,
Xəyallar olub gerçək.

Ömrümə gələn gündən,
Üzümə gülən gündən,
Adını bilən gündən
Dilimdə bitib çiçək.

Satqın bizi haqlasa,
Eşqi yoldan saxlasa,
Sirrimiz pardaxlasa,
Gərək bu eldən köçək…

## ÜRƏYİN SEHRLİ QAPILARI VAR

–Kövrək ürəyimin qapılarını
Titrək təbəssümlə bir gözəl döyər.
Çalar yetim qalan könül tarını,
"Aç, girim içəri, səninəm", – deyər.





–Ürəyin sehrli qapıları var,
Hamının üzünə açılmır onlar…

–Qocayam söyləyib, küsmə həyatdan,
Bir də görərsən ki, titrədi ürək, –
Bir sevda boylandı köksünün altdan,
Qarı deşib çıxan novruzgülü tək…

–Ürəyin sehrli qapıları var,
Hamının üzünə açılmır onlar…

–Sənin taleyinə doğan Ayam mən,
Buludlar bürüyüb niyə üzünü?!
–Yavrum, unutma ki, ürəyə girən
Ordan çıxa bilməz ömrü uzunu.

Ürəyin sehrli qapıları var,
Hamının üzünə açılmır onlar…

## BİR HƏZİN XATİRƏ

Düşər yanmaq həvəsinə közərib sönən,
Təbəssümün ürəklərə həsrət bağışlar.
Bir təyyarə meydanıdır elə bil sinən, –
Enər ora təyyarələr – həsrət baxışlar.

Gündüzlərim, gecələrim düşər qarışıq,
Bir ümidsiz diləyim var sinəsi dağlı.
Sən tikanlar arasından süzülən işıq,
Bir cəsarət baxar sənə qolları bağlı.

Bir vüsal var, bir hicranla olub qol-boyun,
Bir cüt göz var, yanıb-sönər bəxt ulduzu tək.
Canavara qismət olar bir ana qoyun,
Ürəyimdə bir xatirə mələr quzu tək…

## GÖZALTI ETDİYİM QIZLAR

Ayaqyalın uşaq idik,
Oynayardıq "Mərəköçdü".
Hay salardıq, səsinizdən, –
Deyərdilər, –dərə köçdü…

Yada düşcək ürək sızlar,
Tələsdilər insafsızlar,
Gözaltı etdiyim qızlar
Gözləmədi, ərə köçdü.

Bəs biz böyüyərik haçan? –
Törə qaldıq, ay anacan!
Beçə xoruz olanacan,
Pərvazlandı, fərə köçdü…

## SƏNİ BİRCƏ DUYAN VARSA

Bu gördüyün bəxtəvərlər
Dərdlərimdən hali deyil.
Dünya yaxşı adamlardan
Nə yaxşı ki, xali deyil.

Ürəkdə nur, işıq varsa,
Arzuların gülü solmaz.
Dərd sevgiylə yoğrulmasa,
Bizə belə doğma olmaz.





Əzəldən öyrəncəliyik
Ürəkdə qəm daşımağa.
Səni bircə duyan varsa,
Dəyər hələ yaşamağa…

## TÜRK GÖZƏLİ

Ay türk qızı, donunun
Açılıbdır yaxası.
Təbəssümün qəlbimi
Yandırası, yaxası.

Gecəni xatırladır
Sənin qara, gur saçın.
Qəlbin eşqlə doludur,
Üzün, sinən nur saçır.

Bu gözəllik önündə
Şair laldı, fağırdı.
Üzün aya bənzəyir,
Sinən aylı cığırdı…

## SEVGİ OLACAQ

Atəşə tuş olan kimi
Şam məhəbbətlə əridi.
Həsrət ömrün yaraşığı,
Eşq həyatın cövhəridi.

Yerdə qarışqalar səf-səf,
Göydə quşlar qatar-qatar.
Çiçəklərin gülüşündə
İlk baharın sevdası var.

Məcnun ömrü, Leyli ömrü
Dillərdə dastana dönər.
Məhəbbətin nuru düşən
Ürək gülüstana dönər.

Məhəbbət damarlarımda
Axıb gedən qana bənzər.
Sevgisiz, sevdasız ömür
Susuz dəyirmana bənzər.

Soyuq-soyuq ürəklərə
Nə vaxtsa, sevgi dolacaq.
Bu dünyanı fəlakətdən
Qurtaran sevgi olacaq...

## FÜZULİ KİMİ

Bir kimsə gülmür üzümə,
Bu gün mənim günüm deyil.
Dünya gözəllə doludu,
Heç birisi mənim deyil.

Həsrət dolu baxışlarım
Çevrilər bir ac arıya.
Gözüm görüb ləzzət çəkər,
Ürəyim düşər ağrıya...

## BİZİM PƏNCƏRƏMİZ ÜZBƏÜZ DÜŞÜB

Ürəyin hökmünə baş əydiyimdən,
Həmişə mən dilə-dişə düşmüşəm.
Hər səni görəndə titrəyirəm mən,
Yaşın bu çağında işə düşmüşəm.





Üzümü bürüyən duman, çən deyil,
Sənin həsrətindir, qəlbimi yaxır.
Daha mənim üçün ay göydən deyil
Sizin pəncərədən boylanıb baxır.

Yenə də üz-üzə dayanmışıq biz,
Uzaqdan görürəm qabarır döşün.
Günəşdən çox əvvəl oyanmışıq biz,
Yanır köksümüzdə sevgi günəşi.

Görüb gözlərini, qalanıb oda,
Mənim ürəyimə dərin iz düşüb.
Bizim qismətimiz ayrı olsa da,
Bizim pəncərəmiz üzbəüz düşüb...

## SILDIRIM ÇİÇƏYİ

Sıldırım çiçəyi, qısadır dilim,
Nə ola, bir kiçik quşa dönəydim.
Ya sən bu tərəfdə bitəydin, gülüm,
Ya mən o tərəfdə daşa dönəydim.

Tərpənə bilmirik boylansaq da biz,
Arzumun əlləri açıla qalıb.
Üz-üzə, göz-gözə dayansaq da biz,
Tale aramıza sıldırım salıb.

Bəxtiyar sanıram özümlə səni,
Eh, bilsən nə keçir könlümdən mənim?!
Öpüb oxşayıram gözümlə səni,
Ta heç nə gəlməyir əlimdən mənim.

Qibtə eləyirəm əsən küləyə, –
Mən səni görəndən dağılıb huşum.
Sıldırım üstündə bitən çiçəyə
İldırım olmasam, necə qovuşum?!

## NƏ VAXTDANDIR SEVGİ ŞEİRİ YAZA BİLMİRƏM

El dərdindən çat-çat olub sevən qəlbim də,
Ürəyimə düşən toxum daha boy atmır.
Gözəllərin təbəssümü mənim qəlbimdə
Nə zamandır oda dönüb, sevgi oyatmır.

Gözlərini süzüb baxma, yaş o yaş deyil,
Mənə sevgi nəğmələri oxuma hələ.
Ömrüm-günüm, nə olsun ki, ürək daş deyil,
Tanklar girir, toplar girir yuxuma hələ.

İnanıram, qurtaracaq bir gün bu dava,
Qovuşacaq bir-birinə həsrət dodaqlar.
Ürəyimdə körpə quşlar quracaq yuva,
Yarpaqlayıb gül açacaq quru budaqlar.

Addım səsi oyadacaq dilsiz yolları,
Üzüntülü günlərimiz çox çəkməyəcək.
Boynumuza dolanacaq ana qolları,
Gəlinlərin gözündə yaş çiçəkləyəcək.

Əvvəl-axır bəzəyəcək sevgi aləmi,
Arzuların tumurcuğu puçurlayacaq.
Vərəqlərin qulağına şair qələmi
Ən müqəddəs kəlmələri pıçıldayacaq…





## MƏN SƏNİ SEVİRDİM

Köksümə sığmırdı sevdalı ürək,
Mən öz taleyimdən çox razı idim.
Çıxmışdın yoluma yaz çiçəyi tək,
Ancaq ki, ətrinə tamarzı idim.

Duyduqca sevdanın zərif odunu,
Baş aça bilmirdim özüm özümdən.
Təkrar etdiyimdən tez-tez adını,
Yaz ətri gəlirdi mənim sözümdən.

Mizrab dəyməmişdi könül tarına,
Sevgi mövsümündə nə tez üşüdün?
Sən mənim ömrümün ilk baharına
Gələn bir körpəcə qaranquş idin.

Nəyə qadir imiş zərif bir çiçək? –
Məhəl də qoymazmış qışın qarına.
Qabarmış döşlərin novruzgülü tək
Meydan oxuyardı ağ paltarına.

Odlara yanacam məhşər günündə,
Gözləri açılan bulaq olmuşam.
Yaşın bu çağında, sənin önündə
Təzədən çevrilib uşaq olmuşam.

Həsrətin qəlbimi yandırdı, yaxdı,
Qara gözlərinə olmuşam əsir.
"Mən səni sevirdim" demək günahdı,
Mən səni görəndə ürəyim əsir…

## GÖRÜŞ

Çıxdın qarşıma
Yenə bu axşam,
Alışıb yandı
Qəlbimdə bir şam.

Əlinə dəyən
Əllərim əsdi.
Sənsiz bu dünya
Mənə məhbəsdi.

Adını çəkdim,
Sözüm sevindi.
Gözünə baxdım,
Gözüm sevindi.

Bəbəklərimdə
İldırım çaxdı.
Həsrət buzları
Əriyib axdı...

## KOR DEYİL NƏDİR

Başa düşər bu dünyada yalqızlar məni,
Xatirələr ürəyimə axın eyləyər.
Əsir etdi, yesir etdi bu qızlar məni,
Gözəllikdən zövq almayan axı neyləyər?!

Bir istəklim səsimə səs verməyəcəksə,
Özün düşün, o ev mənə gor deyil, nədir?
Əgər sənin gözlərini görməyəcəksə,
Mənim nurlu bəbəklərim kor deyil, nədir?





## ƏLİNƏ AVTOQRAF YAZDIĞIM GÖZƏL

Biri dəftər gətirdi, biri kitab gətirdi,
Məndən xətt yadigarı istəyənlər nə qədər?!
Biri durub kənarda hey köksünü ötürdü,
Bildi ki, yazılanlar hədərdir, Vallah, hədər.

Ürəyim də qalmışdı o gözəlin yanında,
Öz-özümə düşündüm: niyə məndən yan keçir?
Şeytanlar oynayırdı o şeytanın canında,
Xoşbəxtlik günlərimin üstündən boran keçir...

Bir kimsə hiss etmədi, mələk keçdi qarşımdan,
Sözün ən gözəlini işvə dedi, naz dedi.
Əllərini uzatdı, ağlım çıxdı başımdan,
Əllərimin içinə avtoqraf yaz, – dedi.

Qara qarğalar kimi oynayırdı telləri,
Gördü həyəcanlıyam, dodağını dişlədi.
Öpüb gözüm üstünə qoyardım o əlləri,
O zərif dəri üstdə qələm necə işlədi?!

## ƏMANƏT

Elə arxayın gəzirlər
Bu dünyanın gözəlləri,
Görmürlərmi xiyabanda
Xışıldayan xəzəlləri?!

Bilmirlərmi gün gələcək,
Çiçək kimi solacaqlar?
Yada salıb ötən günü
Bulud kimi dolacaqlar?

Payız sarı yarpaqları
Budaqlardan qoparacaq.
Ömrün yeli xəzəl kimi
Onları da aparacaq.

Elə arxayın gəzirlər,
Unudurlar bunu ancaq:
Gözəllik də əmanətdi,
Borc verilib, alınacaq...

## HƏR BAHAR GƏLƏNDƏ

Hər bahar gələndə dinir şimşəklər,
Tumurcuq çırtlayır, otlar boy atır.
Dağlarda, düzlərdə açan çiçəklər
Mənim ürəyimdə sevda oyadır.

Yeni həyat gəlir torpağa, daşa,
Sehrkar təbiət çələng toxuyur.
Ürəyim çevrilir bir qaranquşa,
Çırpınır, köksümə meydan oxuyur.

Bahar unutdurur dərdi, ələmi,
Güllərin üzündə şeh muncuqlayır.
Budağa bənzəyən şair qələmi
Hər bahar gələndə tumurcuqlayır.

Təzə sevda ilə dolur könüllər,
Yaşıl işıq yanır neçə arzuya.
Elə bəzənir ki, qupquru çöllər,
Qibtə eləyirsən qoyun-quzuya.





Qocanın qəlbində açar çiçəklər,
Əlləri dəyəndə qız əllərinə.
Tab edə bilməyir bəzən ürəklər
Bahar sevdasının gur sellərinə.

Sehrkar təbiət girir min dona,
Onun görüşünə gəlməyə dəyər.
Qocalar, qorxmayın, girin meydana,
Bahar sevdasıyla ölməyə dəyər...

## SEVGİ PAYIM

Nədən söhbət açaq bilmirik hələ,
Tale görüşdürüb bu yolda bizi.
Yaman sıxılırıq, tanısaq belə
Uzaqdan-uzağa bir-birimizi.

Dincliyim – dəryada batan gəmidi,
Dikilib uzağa, – gözüm yol çəkir...
Əslində şair də arı kimidi,
Çiçəkdən-çiçəyə qonub bal çəkir.

Gözüm tora düşüb sənin gözündə,
Nəfəsin közərdir kül altda közü.
Deməyə qorxuruq ikimizin də
Qəlbində boy atıb göyərən sözü.

Söhbət əsnasında itir çən, duman,
Eyni ahəng ilə vurur qəlbimiz.
Çəkinə-çəkinə söz seçən zaman
Mina axtarana bənzəyirik biz.

Nə qədər olarmış qoruq, qadağa? –
Yüz ölçüb, bir biçmək müsibət imiş.
Ala gözlərinə olum sadağa,
Onun hər baxışı səadət imiş…

Sən mənim sevincim, günüm, ayımsan,
Taleyin bəxşişi – sevgi paymsan…

## LALƏ

Lalə, səni bir yol görən vurulur, könül bağlayır,
Çöllər qızı, nazlanırsan: toyundur ha, toyundur ha!
Özündə, sözündə deyil, külək hönkürür, ağlayır,
Sənin ləçək paltarını soyundura-soyundura…

## XAL

Qismətinə əzəldən çəmən düşüb, yol düşüb,
Əyilib şeh içmişəm lalələrin gözündən.
Hər tənədən, gileydən ürəyimə xal düşüb,
Bircə yol çıxmamışam ürəyimin sözündən.

Duyğulu bir insanın vurğunu, ölüsüyəm,
Qədirbilməz görəndə şimşək çaxır başımda.
O qədər xalım var ki, yenə xal dəlisiyəm,
Xallı gözəl görəndə ağlım çıxır başımdan…

***

Çiçəklər içində ürəyim itib,
Mən necə onlara könül verməyim?
Yolumun üstündə bir lalə bitib,
Bilmirəm neyləyim, dərim, dərməyim?!





***

Təşnəyəm, gəl paralanmış
Köksümə yağış kimi yağ.
Bircə yol bulud gözünlə
Qan çəkən gözlərimə bax.

İllər boyu sənin əksin
Ürəyimdə gecələyib.
Bəbəyimdə həsrətinin
Çiçəkləri qönçələyib…

## YARAŞIR

Varlığımı oda saldın
Bircə yol ötüb qarşımdan.
Meh telinə sığal çəkib,
Ağlımı aldı başımdan.

Saçına külək yaraşır,
Əlinə çiçək yaraşır.
Sevgimə sənin sinəndə
Döyünən ürək yaraşır.

Ürəyimdə sənin adın
Dolandım dağı, meşəni.
Al çəmənin gözlərindən
Dərdiyim tər bənövşəni.

Saçına külək yaraşır,
Əlinə çiçək yaraşır.
Sevgimə sənin sinəndə
Döyünən ürək yaraşır.

Üşüyürsən, yaxına gəl,
Odlu nəfəsimlə isin.
Boynun körpə bənövşə tək
Mənim köksümə əyilsin.

Saçına külək yaraşır,
Əlinə çiçək yaraşır.
Sevgimə sənin sinəndə
Döyünən ürək yaraşır.

## CƏZA

Körpədi, quzuya bənzər,
Gözləri güzgüyə bənzər.
Beli elə incədi ki,
Kəməri üzüyə bənzər.

Qarşısında nəfəs dərdim,
Təzələndi köhnə dərdim.
O gözlərin aynasında
Saçlarımı dümağ gördüm.

Təravəti yaza verib,
Saflığı bu qıza verib.
Gözüm görür, əlim çatmır,
Tanrı mənə cəza verib…

## ƏGƏR MƏHƏBBƏT OLMASA

Yarpaqlar da budaqlarda məhəbbətlə pıçıldaşır,
Məhəbbətsiz keçə bilməz bil ki, bircə anımız da.
Eşqin görünməz çayları ölənəcən aşıb-daşır,
Axır bizim qanımızda, axır bizim canımızda.





Ömrü boyu bu çiçəkdən o çiçəyə qonan arı
Tək bal yığmaz, öz işiylə xidmət edər təbiətə.
Əgər tozlanma getməsə, budaqların olmaz barı,
İki könül qovuşmasa, yetmək olmaz səadətə.

Oğul-uşaq böyütməyə hövsələmiz çatmaz qəti,
Ürəkdə sevgi olmasa, iş görmərik, ərincəyik.
Bəzək vurur ömrümüzə gözəllərin məhəbbəti,
Onların sevgi torunda çabalayan hörümçəyik.

Qəlbimizin ağrısından, sevgisindən Vətən başlar,
İnsan övlad böyütməklə xidmət edər millətinə.
Əgər məhəbbət olmasa, yuva qurub zərif quşlar,
Dözməz bala çıxarmağın əzabına, zillətinə…

## GƏLƏSƏN

Arzuların qönçə tuta,
Çiçəkli bağa gələsən.
Ürəyindən görüş keçə,
Enib bulağa gələsən.

Əsirgəməz işvə-nazı,
Qayıtsın ömrümün yazı.
Olarammı mən heç razı
Durub ayağa gələsən?

Bəsdir çəkdin yanıqlı ah,
Gözlərimin içinə bax.
Deyilsən ki, körpə uşaq
Qaçıb qucağa gələsən.

Dilləndirmə qırıq neyi,
Eləmə yersiz gileyi.
Var isə quzu taleyin,
Gərək bıçağa gələsən.

Əl görmədim əlin kimi,
Dil görmədim dilin kimi,
Gələr olsan, gəlin kimi
Bizim ocağa gələsən…

## O ZAMAN MƏN SƏNƏ KÖNÜL VERƏNDƏ

O zaman mən sənə könül verəndə,
Bir çılğın, qayğısız qız uşağıydın.
Ürəyim əsirdi səni görəndə,
Ruhuma süzülən ay işığıydın…

Əsdi üstümüzə bir dəli külək,
Gör harda rüzgarın girinə düşdük?
Yollar haçalandı ilan dili tək,
Hərəmiz o yolun birinə düşdük.

Vurulmuş düyünü aça bilmədik,
Hər üz qızartısı ismət deyilmiş.
Alın yazısından qaça bilmədik,
Səninlə qovuşmaq qismət deyilmiş.

Kövrəldim, göynədim ömrüm uzunu,
O gün qəfil səni qarşımda gördüm.
Mənim gəncliyimin bəxt ulduzunu
Bir bərli-bəzəkli maşında gördüm.





Nəyi düşünürdün, nəyi anırdın? –
Yerin qu tükünün döşəyi kimi.
Yayxanıb arxaya, xumarlanırdın
Qayğısız restoran pişiyi kimi…

Baxdım görkəminə, bağrım alışdı, –
Ta çıxa bilməzsən uca dağa sən!
Bilmirəm, əzizim, necə alışdın
Əsnəyə-əsnəyə yaşamağa sən?

Gözümdən yaş deyil, dərddir qaynayan,
Bir eşqin ocağı sönüb, İlahi!
Qara gözlərində şimşək oynayan
O gözlər gör nəyə dönüb, İlahi?!

O zaman sən mənə könül verəndə
Bir çılğın, qayğısız qız uşağıydın.
Ürəyim əsirdi səni görəndə,
Ruhuma süzülən ay işığıydın…

## SÖZ VERMƏMİŞDİM

–Qar tək soyuq idim mən bu həyatda,
Neyləyim, beləymiş taleyim, belə…
Odlu gözlərinin baxışı altda
Qorxuram əriyib çevriləm selə…

Həsrətin can verib cansız kağıza,
Sakitcə oxumaq deyildir asan.
Qorxuram biz düşək dilə-ağıza,
Söz ver ki, sən məni unudacaqsan.

–Kəsmisən üstümü, amanım yoxdu,
Odumdan özgəyə köz verməmişdim…
Səni unutmağa gümanım yoxdu,
Səni sevməyə də söz verməmişdim…

## SƏNİN ÜRƏYİNİN BAŞINA DÖNÜM

*"Sizinlə çəkdirdiyim şəkli gecələr ürəyimin başına qoyub yatıram" – deyən bir gözələ.*

Ömrümə təzə yaz gətirən qızın
Payızına dönüm, qışına dönüm.
Sənin tək bir gözəl yetirən yurdun
Torpağına dönüm, daşına dönüm.

Köksündən könlünə enə bilməsəm,
Xoş tərənə olub dinə bilmərəm.
Qəlbində doğmaya dönə bilməsəm,
Qara gözlərinin yaşına dönüm.

Gözəllik önündə şair baş əyər,
Gülüm, bənzəyirsən tər bənövşəyə,
Mənim şəklimi ki, qoymur üşüyə,
Sənin ürəyinin başına dönüm…

## NEYLƏYƏ BİLƏR

Tanrı buyruğuyla yol gedən kəsi
Çətin ki, nadanlar əyləyə bilə.
Kimin ki, eşq ilə gəlir nəfəsi,
Qəlbimi gül kimi iyləyə bilər.





Heç kəs deyə bilməz naşı olmuşam,
Sevdalı gözlərin yaşı olmuşam.
Mən hansı yuvanın quşu olmuşam,
Nəslimi tanıyan söyləyə bilər.

Təzələr yanında təptəzəyəmsə,
Doğma məclislərə mən bəzəyəmsə,
Əgər Tanrım ilə üz-üzəyəmsə,
İblislər könlümə neyləyə bilər?!

## QORXURAM GÖZÜMÜN YAŞI QURUYA

***Dünya üçün***

Göz yaşım – sevgimin kəpənəkləri,
Uçub çiçəklərlə gedər görüşə.
Qorxuram qəlbimin qəm çiçəkləri
Sevinc xəzanının girinə düşə.

Qorxuram nadanlar mənə güləndə,
Ömrümün payızı qışa çevrilə.
Qorxuram yanına qaçıb gələndə,
Həsrətli qollarım daşa çevrilə.

Bir cüt göz gərəkdi mənə ağlaya,
Bir eşqin közərən qərib qoruyam.
Qorxuram hisslərim qabar bağlaya,
Qorxuram gözümün yaşı quruya…

Ürəyim doğmadı dərdə, ələmə,
Zərrəcə qorxum yox dardan, çətindən.
İlahi, sən məni məhrum eləmə
Hönkürüb ağlamaq səadətindən…

## NƏ YAXŞI ÜSTÜMDƏ AĞLAYANIM VAR

Həyat yollarında dolduqca yaşa,
Ömrümə təptəzə naxışlar yağar.
Yenə həsrətlilər verib baş-başa,
Sevimli dünyama yağışlar yağar...

Pak qəlbi tutarmı ucuz qarğışlar?!
Nə günə salacaq, gülüm, pas ağı?
Sevdalı gözlərdən yağan yağışlar
Yuyar ürəyimdən kiri, pasağı...

Özgə aləmi var ürkəkliyimin,
Onu sevdiyimi əri də bilir.
Gücünə bələdəm kövrəkliyimin,
Ən sərt daşları da əridə bilir.

Vurğunam dünyanın yağışlarına,
Nə yaxşı bulaq tək çağlayanım var.
Nə yaxşı layiqəm göz yaşlarına,
Nə yaxşı üstümdə ağlayanım var...

## MƏNİM GÖZ YAŞLARIM QURUMAZ DAHA

Bu baha dünyada sevgi ucuzdu,
Bu ucuz dünyada göz yaşı – baha...
Gözümə bir damla yaş versin deyə,
Dua eləyirdim ulu Allaha.





Min həsrət uyuyur bir qırıq simdə,
Daşa çevrilmişdi sevən qəlbim də.
Elə bilirdim ki, mənim qəlbimdə
Daha yer qalmayıb fəğana, aha.

Dilimin ucunda əsir sözlərim,
Kül altdan boylanır sönən közlərim,
Bahar buluduna dönüb gözlərim,
Mənim göz yaşlarım qurumaz daha...

## GÜMÜŞÜ GECƏ

Olubdur göz yaşım gözümdən baha,
Qəlbimin sözünü necə deyim mən?!
Baş aça bilmirəm özümdən daha,
Ölmək istəyirəm xoşbəxtliyimdən.

İçimdən boylanır sevmək həvəsi,
Bu gecə ruhuma sevgi bağışlar.
Üzümdə payızın qərib nəfəsi,
Gözümdə bərq vurur gümüşü yaşlar.

Ürəyim sevgiylə titrəyir necə?
Ay salıb sulara qızılı bir iz.
Bir bu kövrək payız, bu qərib gecə,
Bir dəniz olaydı, bir mən, bir də Siz.

Bahar buludu tək gözlərim dolub,
Hönkürə-hönkürə baxaydım Sizə.
Təpədən dırnağa göz yaşı olub,
Axıb qarışaydım mavi dənizə...

## İKİ GÖZƏL

Təmiz bir ürəklə yanıma qaçdın,
Qaranlıq dünyamda üzün ay oldu.
Sən məndə bir ayrı "mən" görüb, çaşdın,
Nifrətin sevginlə əkiztay oldu.

Müjdəsi sən oldun bu il baharın,
Səadət söylədi köksümdə ürək.
Gülüm, dəvəçiylə dost olanların
Hər vaxt darvazası gen olsun gərək.

Qəlbin eşq odunda bişibsə əgər,
Ömrün bələnəcək şirin ələmə.
Könlünə oynamaq düşübsə əgər,
Sən bir də şairi dəvət eləmə…

***

Bir nadan qəlbimi qan eləmişdi,
Cilov gəmirirdi qəzəbim, hirsim.
O çıxdı qarşıma, bu necə işdi? –
Qayıtdı könlümə müqəddəs hissim.

Bir iblis şairi tutmuşdu dilə,
Cənnətdən əbədi getmək olarmış.
İlahi! İlahi bir öpüş ilə
Dəlini ağıllı etmək olarmış!…

Məni ustalıqla məzəmmət etdi,
Qəlbimə gileyi yağdı narınca.
Hirsimi soyudub, sakitcə getdi,
İlahi, səadət yetir Narınca!…





## "HAMIYA ŞEİR YAZMISINIZ, MƏNƏ YOX" – DEYƏ GİLEYLƏNƏN BİR GÖZƏLƏ

Sənə biganə deyiləm,
Vurğunun olmuşam mən də.
Allahın yaratdığına
Necə tərif desin bəndə?!

Qəlbimdə olan hissləri
Söz eləməyə qorxmuşam.
Köhnə sevgi dastanımı
Təzələməyə qorxmuşam.

Hanı elə bir oğul ki,
Düz gözünə baxa biləʔ!
Sənin eşqinin toruna
Düşən çətin çıxa bilə…

## SEVGİ QANADINDA

*Nailə üçün*

Dedin ki, piyada gedək, nə olar? –
Qalsın yadımızda bu xoşbəxt gecə.
Yamanca sevindim, ürəyim əsdi,
Mən sənin sözündən çıxaydım necə?

Verdim cavabını elə o saat,
Yenə dinc durmadı ağzımda dilim.
Səninlə dünyanın o başına da
Piyada getməyə hazıram, gülüm.

Getdik, yollarımız nə qısa oldu? –
Həsrət alovunda gizli yanırdıq.
Ancaq biz piyada deyildik o gün,
Sevgi qanadında pərvazlanırdıq…

## DƏNİZƏ BAXAN GÖZƏL

*"Sahildə gəzirəm yalnız, tək-tənha,*
*Həsrətli bir nəğmə simdən inciyib.*
*Mən öz sevgilimdən küsüb getmişəm,*
*Görəsən dalğalar kimdən inciyib?"*

**Cəmalə**

Sən dənizə baxanda, dindi mənim də könlüm,
Sevdalı ürəklərə qurbandı şair özü.
Yazırsan ki, sahildə tənha gəzirsən, gülüm,
Yox-yox, əskik olmayıb üstündən şair gözü.

Eşqinin dalğaları sənə verməyib aman,
Hissimin əlləriylə saçını hörmüşəm mən.
Oğrun-oğrun boylanıb dənizə baxan zaman
Sənin bəbəklərində dalğalar görmüşəm mən.

Gözümüzdə qalmasın bu müqəddəs diləklər,
Gözələ göz qoymağı şair çətin tərgidə.
Mənim sevdalı yavrum, o dalğalı bəbəklər
Yüz ilin qəvvasını qorxuram ki, qərq edə…





CƏMALƏ

## İSTƏYİRƏM

*Rafiq Yusifoğluna*

Ona vurulan gündən ərşə çəkilib yuxum,
Həyəcandan, sevgidən hey əsirəm gizlicə.
İstəyirəm dənizə şair gözüylə baxım,
Görüm onun gözüylə dəniz görünür necə?!

İstəyirəm mən onun həyatını bəzəyəm,
Təbəssümlə könlünü danışdıram, dindirəm.
İstəyirəm mirvari dalğalara bənzəyəm,
Onun şair qəlbini həmişə sevindirəm.

İstəyirəm çevriləm mən bir su pərisinə,
Şair sahildə durub yollarımı gözləyə.
İstəyirəm çevriləm xırda dəniz daşına,
Dənizin sahilində o məni əzizləyə.

İstəyirəm çevrilib nurlu ay işığına,
Şair pəncərəsinə həmişə işiq salam.
İstəyirəm sübh çağı dönüb dan ulduzuna
Sevgiylə, təbəssümlə ona söyləyəm: - Salam!

İstəyirəm bir həzin musiqiyə çevrilib,
Sevdalı ürəyində həmişə gələm dilə.
İstəyirəm bənzəyəm narın yaz yağışına,
Döyüb pəncərəsini onu səsləyəm çölə.

Ömrün qış çağında da kaş olmaya gileyli,
Qəlbindəki arzular çevrilməyə xəzələ.
Kaş bir çiçəyə dönəm, səhərlər şehli-şehli
Dərib məni apara istədiyi gözələ...

## ŞAİRİ SEVƏN GÖZƏL

*"İstəyirəm" şeirinin müəllifinə*

Gözündə sevgi görüb, qəlbimdə tufan qalxıb,
Gözəllik dünyasına şair salıb mehrini.
İstəyirsən dünyaya şair gözüylə baxıb,
Sevdalı ürəyimin anlayasan sehrini.

Mən daşları sevsəm də, sən dəniz daşı olma,
Onu duyan gərəkdi, neyləyir dəniz daşı?!
Qəlbimin sevinci ol, gözümün yaşı olma,
Səni sevdalı görüb sevincdən dəniz daşır.

Dönüb su pərisinə qarşıma üzsən, gülüm,
Qədəminə gözümdən mirvarilər səpərdim.
Səni dərib özgəyə verməyə gəlməz əlim,
Çiçək olsan, sevdalı gözlərindən öpərdim.

Taleyin göndərdiyi halalca payım olsan,
Bəlkə də ömrüm boyu çəkməzdim bu zilləti.
Sübh çağı dan ulduzum, gecələr ayım olsan,
Əridərdin qəlbimdə mürgüləyən zülməti.

Açılsaydı önümdə dəstə-dəstə çiçəklər,
Gözlərindən tanıyıb, mütləq səni seçərdim.
Narın yaz yağışına dönə bilsəydin əgər,
Sənin hər bir damcını qətrə-qətrə içərdim.





Şairi sevən qızın ürəyi dönməz buza,
Şairi sevən qızın qəlbi qızılgül olar.
Şairi sevən gözlər dönər bir cüt ulduza,
Şairi sevən ürək nəğməli bülbül olar...

*CƏMALƏ*

## MƏNİ DUYARDINMI?

Məni duyardınmı dəniz olsaydım? –
Niyə səni görcək qanad açıram?
Dalğalar adicə dalğalar deyil,
Səninlə görüşmək üçün qaçıram.

Məni duyardınmı yağış olsaydım?
Təşnə tək qədrimi bilərdinmi heç?
Əllərin çatsaydı bulud üzümə,
Gözümün yaşını silərdinmi heç?!

Məni duyardınmı nəğmə olsaydım?
Nədən kaman ağlar, sim nalə çəkər?!
Əgər mən olmasam bu yer üzündə,
Səni itirəndə kim nalə çəkər?!

Məni duyardınmı şeir olsaydın?! –
Oxuya biləydim kaş ürəyini.
Sanardım dünyanın bəxtəvəriyəm,
Sözlərin göynətsə daş ürəyimi.

Məni duyardınmı bir daş olsaydım,
Nə zümrüd deyiləm, nə də brilyant.
Mən əgər səninlə sirdaş olsaydım,
Müqəddəs sevgiyə and içərdim, and.

Əgər sən duysaydın, duysaydın məni,
Qəlbimə bir sevgi izi düşərdi.
Anlaya bilsəydin məhəbbətimi,
Bu dünya nə qədər gözəlləşərdi!...

## SƏNİ DUYMASAYDIM

*Cəmaləyə*

Səni duymasaydım, sahildə durub,
Nəmli gözlərini anardımmı heç?!
Dənizin mirvari dalğalarını
Həsrətli qolların sanardımmı heç?!

Səni duymasaydım, yaz yağışında
Şehli çəmənləri gəzə bilməzdim.
Səni duymasaydım, bəbəklərindən
Boylanan həsrəti sezə bilməzdim.

Səni duymasaydım, təbəssümündən
Qələmim bir çələng bağlayardımı?
Hər kəlmən, hər sözün nəğməyə dönüb,
Sevdalı qəlbimdə çağlayardımı?!

Heç qaya üstündə yurd salan çiçək
Şair ürəyinə daş deyərdimi?!
Əgər daş olsaydım, sevda yolunda
Başıma bu qədər daş dəyərdimi?!

Təzə bir çiçəksən daş sinəm üstə,
Təpədən dırnağa hünərsən, gülüm.
Könlündən daş olmaq keçirsə əgər,
Mənim baş daşıma dönərsən, gülüm!...





## XALLI QIZ

Qəlbimə yar olacaq heç bilmirəm bəxt haçan? –
Onun əksini gördüm xalının qarasında.
Hey danladım özümü: nə üçün bu vaxtacan
Gözüm görməyib onu qızların arasında?

Mənə gəl-gəl deyirdi sənin şümşad qolların,
Necə bəxtiyar idi baxışlarım üzündə?
Bermud üçbucağına dönüb qara xalların
Qərq elədi könlümü gözəllik dənizində...

## NƏ XEYRİ

Sözün qədrini bilməyən
Sənə söz versə, nə xeyri?
Qəlbini kor yaradıbsa,
Tanrı göz versə, nə xeyri?!

Qəlbdə arzu sayrışmırsa,
Eşq dil açıb danışmırsa,
Öz ocağın alışmırsa,
Özgə göz versə, nə xeyri?!

Sevgin təzə-tərsə əgər,
İş düşübsə tərsə əgər,
Allah üz döndərsə əgər,
Bəndə yüz versə, nə xeyri?!

## ÇƏKƏCƏK

Bizim sevgi dünyamızın
Üzərinə qəm çökəcək.
Qara-qara buludlardan
Baxışların nəm çəkəcək.

Ürək düşəcək həvəsdən,
Can qurtulacaq qəfəsdən,
Bir insan ömrünün üstdən
Əzrayıl qələm çəkəcək.

Arzulayıb ülfətimi,
Çəkəcəklər xiffətimi.
Nə zamansa, həsrətimi
Bütün el-aləm çəkəcək…

## NƏ YAXŞI Kİ, SİZ ÇIXDINIZ QARŞIMA

Gözləriniz gözümə nur gətirdi,
Nə yaxşı ki, Siz çıxdınız qarşıma.
Bomboz dünya bozluğunu itirdi,
Qıpqırmızı çiçək yağdı başıma.

Görməmişdim hələ belə möcüzə, –
Oyatdınız qəlbimdəki arzunu.
Bircə dəfə duran kimi göz-gözə,
Sındırdınız ürəyimin buzunu…

Yandırdınız, düz qəlbimin başında
Kösövləri buza dönən ocağı.
Dünya güldü gözlərimin yaşında,
Xatırladım yaddan çıxan o çağı.





Mənim qəlbim ün yetməyən bir ada,
Sanmayın ki, məhəbbətə yadam, yox!
Doğmalarla dolu olan dünyada
Dünya üçün Sizdən doğma adam yox…

Gözləriniz gözümə nur gətirdi,
Nə yaxşı ki, Siz çıxdınız qarşıma.
Bomboz dünya bozluğunu itirdi,
Qıpqırmızı çiçək yağdı başıma…

## ŞAİR ÖLDÜRƏN GÖZƏL

O qəddin, o qamətin
Önündə əriyərəm.
Günəş nurlu təbəssüm
Olmasa, çürüyərəm.

Bu yaşımda elləri
Üstümə güldürənsən.
Sən gözəl deyilsən ha,
Sən şair öldürənsən!

## NAZ

Mənə nə bəla gəlsə,
Yerdən yox, göylərdəndi.
Sən mənə naz satırsan,
Qəlbim naz göyərdəndi.

Baharına, qışına,
Yazına qurban olum.
Sən mənə naz satırsan,
Nazına qurban olum…

## MƏHƏBBƏT YAŞAYACAQ

Arzular əlçim-əlçim,
Ömür qısa, yol uzaq.
Adamlar arasında
Yalquzağam, yalquzaq.

Çiçəklər qüvvət alıb
Məhəbbət yağışından.
Bu dənizlər yaranıb
Gözümüzün yaşından.

Baxışınla qəlbimdə
Bir sevgi yaranacaq.
Ürəyimin başında
Məhəbbət – yanar ocaq…

Müqəddəs sevdalardan
Qəlbimiz göynəyəcək.
Məhəbbət təşnəsinə
Bulaqlar neyləyəcək?

Baxışların ömrümə
Sevdalar daşıyacaq.
Neçə ki, bu dünya var,
Məhəbbət yaşayacaq…

## BİR OVUC DUZ

Duzsuz insanlardan baş alıb qaçdıq,
Qismət duz gölündə bizi yar etdi.
Ömrün qış çağında biz çiçək açdıq,
Duz rəngli saçımı bəxtiyar etdin.





Zülmətli anımda döndün ulduza,
Tale ulduzumuz bəlkə barışdı?!
Mənim əlimdəki bir ovuc duza
Sənin göz yaşının duzu qarışdı.

Təlaşlı üzünü buludlar aldı,
Təşnə ürəyimin yazına döndün.
O bircə ovuc duz əlimdə qaldı,
Ömrümün bir çimdik duzuna döndün…

## HƏSRƏT İLƏ GÖZLƏYİRƏM YOLUNUZU

*"Nuriyyə ilə Xatın dedilər ki, bizim əvəzimizdən Rafiq müəllimi öpərsən…"*

*Namiq Dəlidağlı*

Əzizlərim, saygınızla şad etdiniz "qul"unuzu,
Gərək Sizin saçınıza sığal çəksin öz əllərim.
Nə müddətdir həsrət ilə gözləyirəm yolunuzu,
Heç öpüşü sifarişlə göndərərlər,gözəllərim?!

***

Baxışlar atəşli, üzlər təzə-tər,
Bunlar ürəyimi al qan eyləyir.
Sülhün tərəfdarı olan gözəllər
Mənə müharibə elan eyləyir.

***

Əlimdə titrəyən əlinə qurban,
Ay üzünü tutan telinə qurban.
Ruhumu oxşayan xumar gözünə,
Adımı çağıran dilinə qurban.

***

Qıymaram adına düşsün bir ləkə,
Qoymaram üzünə dumanlar çökə.
Qorxuram, ürəyim sənə öyrəşib,
Səndən ayrılanda müsibət çəkə.

***

Sevda yollarında, gülüm, mətin ol,
Qəlbimə nur saçan məhəbbətim ol.
İşvəni, nazını əskik eləmə,
Mənim sədaqətli Sədaqətim ol!

***

Sevdalı ürəyim daş olsa bir gün,
Həsrətim gözündə yaş olsa bir gün,
Ağrıya, əzaba dözəcəksənmi
Bu gizli sevgimiz faş olsa bir gün?

***

Elə bil başımdan çıxıbdır huşum,
Mənə nə deyəcək dostum, tanışım?
Üzünü bir daha görməyəcəmsə,
Sözünü kiməsə niyə danışım?!

## NEYLƏYİM

Bir topa ulduz olub,
Önümdə sayrışasan.
Həyatıma, ömrümə
Qaynayıb qarışasan.

Yaşayam həvəsinlə,
İsinəm nəfəsinlə.
O mehriban səsinlə
Halımı soruşasan.





Arzum olmamış xəzəl,
Nə olar, insafa gəl.
Ay məndən küsən gözəl,
Neyləyim barışasan?!

## AY ÜST MƏRTƏBƏDƏN BOYLANAN GÖZƏL

Dikilib qalanda demə göz-gözə,
Ürəkdə arzular gəlirmiş dilə.
Ay üst mərtəbədən boylanan gözəl,
En gəl baxışımın cığırı ilə.

Odlu gözlərini gözümə dikcək,
Közərir kül altda uyuyan közüm.
Mənim əllərimdə bir dəstə çiçək, –
Onu sənin üçün dərmişəm özüm.

Yox, bu çiçək deyil, diqqətlə baxsan,
Ovcumda çırpınan ürək görərsən.
Hələ əlin çatmaz, bir az uzaqsan,
Sən gəlib sinəmdən çiçək dərərsən.

Nəfəsim sehrli bir külək kimi
Əsdikcə, titrəyir əynində ağ don.
Uç, mənim əzizim, kəpənək kimi
Ovcumda tutduğum çiçəklərə qon…

## AY GÖZÜMƏ BAXAN GÖZƏL

Gözlərimə baxan gözəl,
Sinəndəki ürək deyil?!
Duymasan, görə bilməzsən,
Baxmaq – hələ görmək deyil...

Laləzara dönüb dörd yan,
Tapdalayıb keçmə, dayan!
Yerin qəlbindən boylanan
Arzulardı, çiçək deyil.

Özündə deyilsən bəlkə?
Nədir üzündəki kölgə?
Tellərinə sığal çəkən
Əllərimdi, külək deyil.

Gözümdəki sevgini gör:
Sinəndəki ürək deyil?
Ay gözümə baxan gözəl,
Baxmaq – hələ görmək deyil...

***

Qaşın əyri xəncərimdi,
Çatıldımı, əcəlimdi.
Sərv boyun qibləgahım,
Qara xalın həcərimdi.

***

Talada güllə açıldı,
Qaçıb gəldi ov çəmənə.
Qorxudan güllər açıldı,
Qan çiləndi of, çəmənə!





Qəlbi sınıq bir çiçəyəm,
Bir dönüb bax ovçu, mənə.
Nə olar, əyil dər məni,
Qəbir olsun ovcun mənə...

## O QIZ PALTAR SƏRİRDİ

*F.Q.Lorkaya*

O qız paltar sərirdi,
Mən həsrətlə baxırdım.
Dəli bəbəklərimdə
İldırımlar çaxırdı.

Bu lövhəni çəkəmməz
Heç bir rəssam fırçası.
Donu bir əlçim bulud,
Bədəni ay parçası.

Paltarı çəkildikcə,
Huş başdan ayrılırdı.
Elə bil Misri qılınc
Qınından sıyrılırdı.

Əynindəki nazik don
Dartıldıqca yuxarı,
Doğrayırdı qəlbimi
Tunc bədənin ovxarı.

O qız paltar sərirdi,
Mən həsrətlə baxırdım.
Dəli bəbəklərimdə
İldırımlar çaxırdı...

## OLDU

Novruzgülü yaz istəyib,
Çovğunlara düşən oldu.
Ürəyində yaz istəyi
Soyuq qarı deşən oldu.

Meşə yolu pöhrə idi,
Hər çiçək bir zöhrə idi,
Ürəyim bir səhra idi,
Birdən dönüb gülşən oldu.

Hara baxsan, gül-çiçəkdi,
Dağlar necə sevincəkdi?!
Qızıl günlər sığal çəkdi,
Qızılgüllər həşəm oldu.

Hisslərimi saz tək çalan,
Gəncliyimi yada salan,
Ürəyimi oda salan
Körpəcə bənövşəm oldu.

Dağlar qızı küsüb məndən,
Baxdım, baxdım durub gendən.
O gözəli görən gündən
Ah-uf mənim peşəm oldu…

## ÜSTƏ

Çəmənlərdə şehə batdıq,
İz düşdü izimin üstə.
Dedim: – Gülüm, yorulmusan,
Gəl dincəl dizimin üstə.





İldırım kimi çaxdı yar,
Neynim, ondadı ixtiyar.
Salıbdır gözümçıxdıya
Məni bir sözümün üstə.

Gözünlə söz qandırmısan,
Ocaq çatıb, yan durmusan,
Daha məni yandırmısan,
Su səpmə közümün üstə.

Yanında qısadır dilim,
Hüzuruna nə vaxt gəlim?!
Ölümə buyursan, əlim
Qalxacaq gözümün üstə…

## MƏRMƏR QAPIM DÖYÜLÜR

Məzarımın üstünə qoyulan gül dəstəsi
Bircə günün içində saralacaq, solacaq.
Adımı çəkəcəklər, dinləyəcəm o səsi,
Doğma hənir eşitsəm, qəbrim nurla dolacaq.

Unutmuşam dediyi axırıncı sözləri,
Darıxmışam yamanca, hanı ömür sirdaşım?!
Dikilibdir yollara baş daşımın gözləri,
Çəmən çiçəyi üçün darıxıb sinə daşım.

Arabir ürək düşür dirilmək həvəsinə,
Mərmər qapım döyülür, yəqin başlayır yağış.
Aldanmışam deyəsən damlaların səsinə,
Baş daşıma söykənib bir gözəl ağlayırmış…

## GÖZƏLLİYİN BİRİNCİ ŞƏRTİ

Bir sevdanın atəşinə yanar, yanardım,
Məcnun kimi dolanardım dərəni, düzü.
Bir zamanlar gözəlliyin şərti sanardım
Zərifliyi, incəliyi, can alan gözü.

Eh, nə qədər gözəl çıxdı o vaxt qarşıma,
Xəzəl olub yerə düşdü ömrün anları.
Cavanlıqda tək-tək qızlar gəldi xoşuma,
İllər keçdi, gördüm pisi yoxmuş onların...

Qəlbim əsir görən kimi hər şux qaməti,
Gözəllikdən ilham alan əhli-bəşərdi.
Qocalanda anlamışam bu həqiqəti: –
Gənclik imiş gözəlliyin birinci şərti...

***

Payız kəsibdir qapımı,
Ömrümün yazı deyilsən.
Qız, səni qızdırma tutsun,
Az aşın duzu deyilsən!

Ala gözlərin yaranıb,
Süzülüb axmaqdan ötrü.
Elə bil ki, tamarzısan
Yandırıb-yaxmaqdan ötrü.

Şax tutmusan qamətini, –
Bilirsən, gəlir xoşuma.
Hara gedirəm, elə bil
Qəsdən çıxırsan qarşıma.





Elə baxma, təbəssümün
Qəlbimə rişə salacaq.
Sənin şeytan baxışların,
Qız, məni işə salacaq...

## ÇİÇƏYƏ DÖNDÜ

Adətdir, quş ilə tutarlar quşu,
Az rişğənd eləyib gül otağıma.
Gördün güllərimi, dağıldı huşun,
Axır çəkdi səni gül otağıma.

Qışın oğlan çağı açıldı baxtım,
Gülümsər gözlərin şimşəyə döndü.
Sən güllərə baxdın, mən sənə baxdım,
Ürəyim köksümdə çiçəyə döndü...

## SEVGİ KƏDƏRİ

Qazanc gəzmək havayıdı, bil ki, sevgidə,
Gözəllərə könül vermək xislətim oldu.
Mənə sevinc gətirmədi ülvi sevgi də,
Səni sevdim, kədər mənim qismətim oldu.

Xoşbəxt ömür qazancına olmuşam əmin,
Bəxtiyaram, görünsəm də küskün, mükəddər.
İnsan necə aludəsi olurmuş qəmin?! –
Həyatımın bəzəyinə dönüb bu kədər...

## ÖLÜM MƏLƏYİ

Sevəndə elə bir insanı sev ki,
Eşqi işıq versin şən ulduzlara.
Ötəri həvəsdi onlara sevgim,
Sən məni qısqanma gözəl qızlara.

Zəif düşdüyümü bir axşam duyub,
Gizlicə-gizlicə ruhuma axdın.
Qara əllərini çiynimə qoyub,
Qara gözlərimin içinə baxdın.

Səndən xəyalımın köhləni hürkür,
Nə bilim yaxınsan, yoxsa uzaqsan?!
Darıxma, əzizim, nə vaxtsa bir gün
Qolunu boynuma dolayacaqsan.

Günbəgün çoxalır saçımın dəni,
Hər bir başlanğıcın olur bir sonu.
Ömür yoldaşıma qısqanma məni,
Cəsədim sənindi, xatirəm onun...

## HƏRDƏN SƏNİ GÖRÜRƏMSƏ

İnsan gərək mənliyini alçaltmaya,
Qismətinə düşən budur, neyləyəsən?
Müsibətdi, gözün görə, əl çatmaya,
Ömrün boyu göyüm-göyüm göynəyəsən...

Üz-üzəyik, həsrət ürək gizli-gizli
Gizildəyir, eh, nə qədər biz uzağıq.
Kömür kimi qaraltsa da, sevgi bizi,
Eşqimizin qarşısında üzü ağıq...





Taleyiylə barışmalı olur adam,
Qarşımızı bir əbədi hicran kəsdi.
Yoxdur ayrı bir diləyim bu dünyada,
Hərdən səni görürəmsə, bu da bəsdi...

## ÇƏTİN Kİ GƏLƏRİK ÜZ-ÜZƏ BİR DƏ...

Sevda xumarından doymayıb hələ,
O heç insan deyil, pəridi bu gün.
Bir mərmər sinənin işığı ilə
Bir qəlbin zülməti əridi bu gün.

Boğa bilərdimmi heç öz hissimi? –
Yanıma gəlmişdi Madonna özü.
İntizar gözlərim yumulan kimi,
Sevdalı könlümün açıldı gözü.

Alovlu nəfəsin üzümə dəyir,
Sən bir az həyalı, mənsə utancaq.
Dilin: – Daha bəsdir, get-get, – söyləyir,
Qolların boynumdan açılmır ancaq...

Dilində titrəyir əlvida sözü,
Təyyarə dartınır, üzülür yerdən.
Yollar görüşdürməz bir daha bizi,
Çətin ki, gələrik üz-üzə bir də.

Bu da bir qismətdi, dolmasın gözün,
Bu ömrün boranı, yağışı çoxdu.
Taleyin əlində, bilirsən özün,
Dünyanın o başı, bu başı yoxdu...

## TƏBƏSSÜM İŞIĞINDA

Yapışmışam
yaddaşımın yaxasından:
inanmıram gözlərimə, –
İlahi, bu o gözlərdi?
Ayların,
illərin arxasından
xatirələr közərdi
görəndə gözlərini.
Ürək unuda bilərmi
əmr etməklə:
–Unut onu!
Təbəssümün
şimşək kimi doğradı
illərin ayrılıq buludunu.
Yaxşı ki, yaddaşın
üzü bəridi,
Yaxşı ki, sənin yanında
eşqimin alnı,
üzü açıqdı.
İllərin qarı, buzu əridi,
gəzdiyimiz cığırlar
üzə çıxdı
təbəssüm işığında…

## ƏGƏR SƏN GÖRSƏYDİN ÖZÜN ÖZÜNÜ

Hamı zilləmişdi sənə gözünü,
Gəlib saymazyana keçdin qarşımdan.
Əgər sən görsəydin özün özünü,
Yəqin ki, çıxardı ağlın başından.





Gözündən düşərdi bu çöl, bu çəmən,
Açılan güllərə baxmazdın qəti.
Vallah, bu dünyanın bədbəxti sənsən,
Seyr edə bilmirsən o şux qaməti.

Min həsrət göyərir sənin izindən,
Gedirsən, ürəklər qərq olur nura.
Zövq ala bilmirsən özün özündən,
Çıraq öz dibinə işıq salmır ha!…

## ÇİÇƏK KÖRPÜSÜ

Mindim avtobusa əlimdə çiçək,
Qəlbimdə onları əzmək qorxusu.
Mənə əl uzatdı bir gözəl mələk,
Aldı çiçəkləri sözsüz, sorğusuz…

Basdı sinəsinə onu ahəstə,
Harda görüşdürdü tale gör bizi?!
Ögeylik, uzaqlıq çayları üstdən
Düşdü aramıza çiçək körpüsü…

## TƏZƏCƏ OTUXAN QUZUM

A mənim təzəcə otuxan quzum,
Süddən yaxşıdırmı yoncanın dadı?!
Hər səni görəndə dörd olur gözüm,
İçimdə canavar diş şaqqıldadır.

Unuda bilmirəm səni bircə an,
Üz-üzə duranda ürəyim əsir.
Aramıza düşən qılıncdı vicdan,
Titrək əllərimi doğrayır, kəsir…

## SEVMƏYİRSƏ...

Sevməyirsə, həyat puçdur
Yoxsul üçün, zəngin üçün.
Barı bizə bir zəng elə,
Darıxmışam zəngin üçün.
Yarımçıq məhəbbət olmaz,
Sevəndə ürəkdən sev ki,
Alıb səni qanadına,
Göylərə qaldırsın sevgi...

***

–Kim sevmirsə, kövrək deyil!
Sənə salmışam meylimi.
Mənə səadətdən başqa
Daha heç nə gərək deyil...
–Səadət hər şey deyilmi?!

## MƏNƏ ELƏ GƏLDİ Kİ...

Əl ələ toxunanda
Yaranan qığılcımın
Oduna göylər yandı.
Dünyanın xoşbəxtiyəm,
Araz aşığımdandı,
Xəzər qurşağımdandı.
Xəbərim olmayıbmış,
Dünya necə qəşəngdi!
Uzanmışıq yanaşı,
Çəmən yaşıl döşəkdi.





Qayalar qalxanımdı,
Şimşəklər qılıncımdı.
Göy – ulduzlu yorğanım,
Ay isə balıncımdı...
Çiçəklər təbəssümüm,
Küləklər nəfəsimdi.
Ta heç nə istəmirəm,
Elə bunlar bəsimdi...

## ÜRƏYİMDƏ YATAN SEVGİ

*N.Dumbadzeyə*

Ürəyimdə uyutduğum
Sevgi boy atmaz, boy atmaz.
Hönkür-hönkür ağlayacaq,
Oyatma, onu oyatma...

Yada salma o günləri,
Hisslərimiz coşa bilər.
Bu sevginin göz yaşından
Sakit çaylar daşa bilər.

Sən sevgini oyadarsan,
Sel aparar körpüləri.
Sel aparar bir günahı
Olmayan gül körpələri.

Ürəyimdə uyutduğum
Sevgi boy atmaz, boy atmaz.
Hönkür-hönkür ağlayacaq,
Oyatma, onu oyatma...

***

Niyə zülm edirsən özün-özünə? –
Köçüb gedəcəyik Vallah, hamımız.
Ayları, illəri sıxıb köksünə,
Kimi gözləyirsən, a bəxtəvər qız?!

Ürək sevməyəndə quruyur insan,
Ovla ürəyimi ala gözlə bir.
Gözləyə-gözləyə qarıyır insan,
Unutma, heç kəsi zaman gözləmir.

Yarpağam, qəsdimə dayanıb külək,
Tənələr, rişxəndlər sinəmə oxdu.
Mənə əl uzadır bir gözəl mələk,
O əli tutmağa taqətim yoxdu…

Yandırmaq çətindir, gülüm, sönəni,
Sənin də saçına ələnəcək qış.
O qönçə dodağı, meydan sinəni
Kimə saxlayırsan, ay evi yanmış?!

## BİR DƏ AYILDIQ Kİ…

Meşə cığırında gəldik üz-üzə,
Tale özü yetdi mənim dadıma.
Əl ələ həsrətmiş, göz də ki, gözə,
Ta heç nə, ta heç nə gəlmir yadıma…

Bir də ayıldıq ki, qaranlıq düşüb,
Bir də ayıldıq ki, yağış yağırmış…
Arabir Ay çəkib bulud pərdəni,
Utana-utana bizə baxırmış…





## BİR GÖZƏLƏ

O ilahi qamətini görəndə çaşdım,
O gözlərin ilhamımın gözünü açdı.
Bığ yerində təri gördüm, sandım ki, şehdi,
Od nəfəsin elə bil ki, ətirli mehdi.
Gözündən bir damla düşdü, görməyəydim kaş! –
Nöqtə oldu dincliyimin sonunda o yaş…

***

Çiçəklər dəriləndə solsa da,
insan əllərinin
həsrətini çəkir
bu nərgiz, bu qərənfil, bu zanbaq…
Çəməndə açılıb,
çəməndə solmaqdan
yüz dəfə yaxşıdı
bircə dəfə sinəyə sıxılmaq,
bircə dəfə odlu əllərdə qızınmaq.
Təkcə baxmaqdan bir şey çıxmaz,
güllərin ətrini sinənə çək!
Özü üçün açıb,
özü üçün solacaqsa,
nəyə lazım o gül,
nəyə lazım o çiçək?!

## ZİRVƏDƏN O YANA

Yalvardım: – Geriyə qayıt, ay uşaq! –
Neyləyim, günahkar özünsən daha.
Məhəl də qoymadıq yağan yağışa,
Əl-ələ yapışıb, dırmandıq dağa.

Zirvələr fəth etmək zəfər, qələbə,
Yaş o yaş deyil ki, titrəyir dizim.
Müəllim sözündən çıxmaz tələbə,
Qayıt! – Özüm deyib, eşitdim özüm…

Titrək əlimizdən qopan qığılcım,
Bu ulu göylərin şimşəyi oldu.
Zirvədən o yana yol yoxdur, bacım,
Zirvədən o yana qorxulu yoldu.

Nə cavab verərəm ata-anana? –
Neylərəm, sözümə baxmasa ürək?
Bu dağın başında dönsəm Sənana,
Ay quzum, sən Xumar olasan gərək.

Əlimdən tutmusan, titrəyir əlim,
Heç o titrəyişi gizləmək olar?
Şairə qoşulma, qoşulma, gülüm,
Şairdən nə desən gözləmək olar!…

## TƏBİƏTİN QOYNUNDA

Toqquşarıq iki qara bulud tək,
Yağış olub, çəmənlərə yağarıq.
Hər damlamız dönüb olar bir çiçək –
Mümkün olsa, özümüzə kənardan
Çiçəklərin gözləriylə baxarıq.

Bir arzudur, bir istəkdir hər çiçək,
Yel əsəndə, öpüşərlər gizlicə,
Zanbaqların dolçasına bu gecə
Ulduzların işığını sağarıq.





Qarşısında uzanarıq güllərin,
Əllərimdə sənin titrək əllərin,
Ayrı keçən o ayların, illərin
Səhərəcən əvəzini çıxarıq…

## BÖYÜRTKƏN KOLU OLUM

Böyürtkən kolu olub,
Bitim çəpərinizdə.
Duyuq düşməsin bundan
Sizin çəpəriniz də.
Evə gedib-gələndə
Yanımdan sal yolunu.
Çimdikləyim əlini,
Çimdikləyim qolunu.

Üstünün qanını sil,
Anan duyar, sonuncu
Ümidimiz də sönər!
Onda çəpərinizlə
Sənin aranda, anan
Təzə çəpərə dönər…

***

Quşum qondu bir gözələ yamanca,
Təbəssümü yanağını bəzədi.
Ürək birdən dönüb oldu kamança,
Gur saçları kəmanəyə bənzədi.

Haray varmı belə gözəl sənəmdən, –
O ki məndən əsirgəmir qadanı?!
Bir yanıqlı səda qopdu sinəmdən,
Təkcə özüm eşitdim o sədanı.

Ürəyimdən qopdu kövrək şeirlər,
Oğul gərək bu görüşü uzada.
Eh, yerin də qulağı var, – deyirlər,
Eh, ona da çatdı bəlkə bu səda?!

## QOLLARIM ARASINDA

Biləyindən yapışıb,
Çəkdim onu sinəmə.
O yazıq da mənimçün
Həsrət imiş sən demə!

Titrəyən barmaqlarım
Gümüş saçında gəzdi.
Daha o məndən heç nə,
Heç nə əsirgəməzdi…

Həsrətli əllərimlə
Oxşandı, tumarlandı.
Bu mehriban təmasdan
Məst oldu, xumarlandı.

Həsrətim nəğmə olub,
Düzüldükcə qatara,
Qollarım arasında
Çırpınırdı gitara…





## GÖZLƏRİNİN HƏSRƏTİNDƏ

İnanmırsan sözlərimə? –
Gözlərimə nəzər sal, sevgilim,
gözlərimə. –
Ağı – lalə ləçəyi kimi qıpqırmızı!
Qarası – lalənin bağrındakı qara xal…
Gözlərimə nəzər sal, sevgilim,
Gözlərimə nəzər sal!…
Vüsalını dadmamışam,
Şirindir hicranın da,
həsrətin də.
Gözlərim laləyə dönüb,
nərgiz gözlərinin həsrətində…

***

Mən sevda dənizində
yelkənsiz gəmiyəm.
Mən eşqin dağında
hörüklərlə zəncirlənmiş
Prometey kimiyəm. –
Acgöz qartallar kimi
baxışları parçalayır köksümü,
yenidən sağaldır
yaralarımı təbəssümü…

## BİZ GƏLDİK ÜZ-ÜZƏ

Necə dəyişmisən, mat qalmışam mən,
Bircə dəyişməyən o gözlərindi.
Biz gəldik üz-üzə, ötən günlərdən
Nələr söyləyəcək o gözlər indi?!

Sözünü həmişə gözünlə dedin,
Dilində bir dəfə görmədim giley.
Sən fəth olunmamış bir zirvə idin,
Səni fəth etməyə can atardım hey!

Görüş həsrətiylə əsərdi ürək,
Görüş həsrətiylə gözlərim doldu.
Can atdım zirvəyə bir alpinist tək,
Saçların alpinist kəndirim oldu.

Eşqin əridərdi dağda qarı da,
Ötəri deyildi heç bu həvəs də.
Qoşa hörüyünü kəsdin yarıda,
Yıxıldım nahamar daşların üstə...

## NƏĞMƏ MÜƏLLİMİ

Saçları bulud-bulud,
Yağışı nəğmə-nəğmə.
Danışığı bir yana,
Baxışı nəğmə, nəğmə...

Yeriyəndə arxadan
Seyr edirəm onu mən.
Elə bil qaməti də
Yoğrulubdur nəğmədən.

Ürəyimə qar düşüb,
Susur görüş yeri də.
Gözündən bir qor düşüb,
Həsrətimi əridə!





Xurmayı tellərinə
Toxunmağa həsrətəm.
O özü də nəğmədir,
Oxumağa həsrətəm...

## TALE QONŞU SALDI YENİDƏN BİZİ

Söyləyə bilmədim fürsət var ikən –
"Sevirəm!" – dilimin qaldı ucunda...
Yolumuz ayrıldı, ürək bir ikən,
Eşqimiz hönkürdü yol ayrıcında...

Görünməz elədi duman, çən bizi,
Soyuduq, soyuduq, buz dağı olduq.
Tale qonşu saldı yenidən bizi,
Sən mənə, mən sənə göz dağı olduq.

Sənsən nurlandıran bizim məhləni,
Gözündə közərir həsrət alovu.
Bir gün istəyimin dəli köhləni
Qorxuram əlimdən ala cilovu...

## BAHAR GƏLƏR...

Bahar gələr, düzlərə gül yağar, çiçək yağar,
Bulud paltarlarını soyunub, gülümsər Ay.
Şux əndamlı gözəllər qılınc tək qından çıxar,
Gözəllik ovxarında doğranarıq, ay haray!

Baxışların odunda əriyər gilə-gilə
Ürəklərə qalanmış biganəlik buzları.
Xiyabanlar bəzənər gəzən çiçəklər ilə, –
Ətri tutar dünyanı gül bənizli qızların...

## KİTABXANAÇI

Məni bura çəkir qəlbimin səsi,
Kitab qalmayıbdır oxumağa da.
Sən bu kitabların nadir nüsxəsi,
Həsrətəm cildinə toxunmağa da.

Bəlkə kiminçünsə heçdi bu gövhər,
Gözümə göz yetir, o duyur səni.
Qədrini bilməyən ayrı bəxtəvər,
Bəlkə də candərdi oxuyur səni...

## AY BU DÜZLƏRİN TURACI

Ürəyimi saldın oda,
Doğma kimi baxdın yada.
Məni sevmək, bu dünyada
Ən birinci suçun olsun!

Sən soldan gəl, mən də sağdan,
Qoşa enək biz bu dağdan,
Su içəndə buz bulaqdan
Qoy piyaləm ovcun olsun.

Vardır hər dərdin əlacı,
Yar gözləyən qollar açıq.
Ay bu düzlərin turacı,
Yusifoğlu ovçun olsun!...





## SƏNİN EŞQİNLƏ

Qılınclayıb neçə qara buludu,
Şimşək kimi gurlayam mən, çaxam mən.
Öz közərmiş barmağımı uzadıb,
Zülmətlərin kor gözünə soxam mən.

Bu dünyanı tutub gedən de, kimdi?
Həyat eşqi varlığıma hakimdi.
Bir ağacam, arzularım kökümdü –
Qurusalar, bu dünyada yoxam mən.

Kiminə bal, kimisinə acıyam,
Özüm gərək öz halıma acıyam.
Gözəlliyin təşnəsiyəm, acıyam,
Necə deyim könlü-gözü toxam mən?!

Perikdirmə məhəbbətin quşunu,
Yaza döndər gəl ömrümün qışını.
Bədnəzərin gözlərinin, qaşının
Kamanında hazır duran oxam mən.

Küsmə məndən hər yetənin sözüylə,
Gəl sirdaş ol ürəyimin özüylə,
İstəyirəm eşqimizin közüylə
Xəbisləri yandıram mən, yaxam mən...

## HAYANA BAXIRMIŞ MƏNİM GÖZLƏRİM?!

–"Sizi qısqanırdım rəfiqəmə mən" –
Heç bu etirafın deyildi yeri.
Bir zaman dilinin ucundan dönən
O sözü qaytara bilmədin geri.

Yoxsa ötən çağlar yadına düşdü? –
Gözündə bir eşqin şimşəyi çaxdı.
Üzündən bir kədər buludu keçdi,
Üstümə bir həsrət yağışı yağdı…

İlk dəfə görürəm elə bil səni,
Baxışın nəğmədi, sözün şeirdi.
Sınağa çəkirdi elə bil məni,
O bulud gözlərin nələr deyirdi?!…

Dilimin ucundan dönən sözlərim,
Qırıq kaman kimi sızlar içimdə.
Hayana baxırmış mənim gözlərim,
Səni görməmişəm qızlar içində?!

Əlim yapışmayıb biləklərindən,
Titrək tellərinə toxunmamışam.
Gözünü görmüşəm, bəbəklərindən
Boylanan həsrəti oxumamışam, –
Hayana baxırmış mənim gözlərim?!

## BU SEVDANIN YOLU

*Rüsvay gərək həmişə aşiq.*

***M.Füzuli***

Bu sevdanın yolu sisdi, dumandı,
Əzablarım ürəyinə yatdımı?!
El içində rüsvay olmaq yamandı,
Bu halıma sənin qəlbin şaddımı?!





Ürəyimə həsrət odu yüklənib,
Bədxahların qulaqları şəklənib,
Baxışlarım baxışına köklənib,
Oxuyacaq, mizrab simə çatdımı…

El nə deyər? – Ürəyin nə vecinə!
Dağ aşaram bu yanğının gücünə,
Gözlərimin içinə bax, içinə,
Bəbəklərim bəbəyinə yaddımı?!

Üzün payız çiçəyini andırır,
Ürəksizdən kənar qaçır, yan durur.
Təbəssümün yaşıl işıq yandırır,
Baxışların alovdumu, oddumu?

Bitişərmi şüşə qəlbi qırsalar?!
Bu həsrətin odu məni qarsalar.
Tamarzıyıq, qovuşmaqçün vüsala
Kifayətdir ilk cəsarət addımı…

## KÜLƏKLİ HAVADA

Can atır çıxartsın külək donunu,
Çalışır, vuruşur, yoruldum demir.
Yel əsir, yellənir ipək donunun
Ətəyi kəpənək qanadı kimi.

Duyarsan arzumu, diləyimi də,
Qəlbimi görərsən gözümə baxsan.
Mənə elə gəlir, ürəyimi də
Alıb qanadına aparacaqsan…

## BİR ANIN SEVİNCİ

Onun ala gözlərindən
Çay axır, üzümə baxmır.
İstəyirəm çıxıb gedim,
Ayağım sözümə baxmır.

Az qalıram dərəm onu –
Bu çiçək qorxudur məni.
Gözlərinin içindəki
O istək qorxudur məni.

Gülümsəyir: – Sevməyənin
Kədəri nə, sevinci nə?!
Bir ömrü qurban verərdim,
Bircə anın sevincinə...

***

Üzümə elə baxma,
taleyimin əlçatmaz,
ünyetməz ülkəri.
Nə bilirsən kül altında
köz yoxdu?!
Sənin bəbəklərindəki
təbəssümə bürünmüş kədəri
mənim gözlərimdən başqa
görən göz yoxdu...





## MƏNİM TALEYİMƏ GÖZLƏRİN DÜŞÜB

Ömrümdən həftələr, illər ötüşüb,
O çağlar dönərmi geriyə, ay qız?
Mənim taleyimə gözlərin düşüb,
Bir gözəl qismətdi hərəyə, ay qız.

Saçımda ayların, illərin izi,
Bir-bir xərcləyirik illərimizi.
Qarşıda eh, nələr gözləyir bizi? –
Bəsdir gen dolandın, bəri gəl, ay qız!

Donunun ətəyi, əsdikcə külək,
Yellənir kəpənək qanadları tək.
Qorxmursan ağ donun güney qarı tək
Odlu baxışımdan əriyə, ay qız?!

Ayıma, ilimə gün tək nur saç gəl,
Gözlərim yol çəkir, sən qanad aç gəl,
Göz yumub hər şeyə, yanıma qaç gəl,
Sevənlər olarmı ağciyər, ay qız?!

## SƏN BAXSAN

Elə məst eləyib gözlərin məni,
Dağlar topuğumdan, göy qurşağımdan...
Çəkilib dünyanın çisəyi, çəni,
Ürəyim asılıb göy qurşağından...

Çirkin də gözümdə göyçəyə dönüb,
Sən baxsan, sevinər, taleyim gülər.
Ürəyim bir ovuc çiçəyə dönüb,
Sənin qədəminə səpilə bilər...

## BİR HAVAYA QOL GÖTÜRDÜK İKİMİZ

Qəlbimizdə gecə-gündüz hıçqıran
Bir həsrəti gizli-gizli ovutduq.
Bir havaya qol götürdük ikimiz,
Bu dünyanı, bu məclisi unutduq.

Bir-biriylə öpüşəndə o gözlər,
Od ələndi ruhumuza elə bil.
"Təki məni sevirəm de!" – Bu sözlər
Qələm çəkdi qorxumuza elə bil.

Gözlərimə həsrət-həsrət baxdın sən,
Ayna sındı, elə bil buz qırıldı.
Bir cüt quş tək uçub qaçmaq istərkən,
Mahnı susdu, qanadımız qırıldı.

Aman Allah, bulud kimi dolmusan,
Yollarımız haçalandı yenidən.
Mahnı dindi: "Gülüm, harda qalmısan?" –
Ürəyimiz parçalandı yenidən…

## AY CÜT GƏZƏN BƏXTƏVƏR

Məhəbbət yollarında
Düzən də var, dik də var.
Ay cüt gəzən bəxtəvər,
Heç demirsən, tək də var!





Sənə aparmaq üçün
Güldəstə bağlamışam.
Utanmışam verməyə,
Əlimdə saxlamışam.

İntizarım o solmuş
Güldə var, çiçəkdə var,
Ay cüt gəzən bəxtəvər,
Heç demirsən, tək də var!…

Bəzən səndən xəbərsiz
Arxanca dolanmışam.
Səni yadla görəndə
Alışmışam, yanmışam.

Səadət diləmişəm
Yenə gözlərimdə yaş,
Demişəm öz-özümə:
–Biləydin bunları kaş:

Həsrətindən sübhədək
İnləyən ürək də var.
Ay cüt gəzən bəxtəvər,
Heç demirsən, tək də var!…

# QƏM KARVANI

(Poema)

*Mənəm ki, qafiləsalari karivani-qəməm…*
*Məhəmməd Füzuli*

Sevən gözlərimə verib Tanrı su,
İndi dərk edirəm məhəbbətini.
Ey böyük Füzuli – sənət Tanrısı,
Bizdən əsirgəmə səxavətini.

Özüm də bilmirəm, axı nə sirdir,
İncə kəlamının dadı azalmır.
Bir şair ürəyi neçə əsrdir
Yanır için-için, odu azalmır.

Baxıb kainata məhəbbət ilə
Həsrət işığında hey köks ötürdün.
Sən ulu eşqinin əzəmətiylə
Məcnunun eşqinə yuxu gətirdin.

Közərdi qəlbində söz için-için,
Keçib əsrləri, bizi yandırdı.
Hicranın zülməti sevənlər üçün
Qaranlıq dünyanı işıqlandırdı.

Məndən sevgilimin üzü dönəndə
Sənin dilin ilə danışdırmışam.
Bəzən ürəyimin odu sönəndə,
Sözünün oduna alışdırmışam.

Mən sənə biganə qala bilmərəm,
Hər sözün önündə başımı əydim.
Sənin tək sənətkar ola bilmərəm,
Barı sənin kimi sevə biləydim…





***

–Yarəb, bir ilahi məhəbbət ilə
Səni dərk etməyə çalışıram mən.
Ürəyim eşq ilə gəlsə də dilə,
Sənin rizan ilə danışıram mən.

İzn ver qanımda haqq nuru axsın,
Dözərəm, olsa da yarım hikkəli.
Qoy sevgi ruhumu odlara yaxsın,
Sənin dərgahına təmiz, pak gəlim…

Fələklər alışır hər gün ahımdan,
Sevgi qanadında göylərə uçum.
Əfv et Füzulini, keç günahımdan,
İlahi, sevməkdir mənim də suçum…

Qəlbimdə közərir gizli bir inam,
Eh, sənsiz bir günü axı neylərəm?!
Yoxdur bu dünyadan ayrı təmənnam,
Yarımdan yarımı tələb eylərəm.

Aşiq göz yaşını necə saxlayar? –
Dolaram, yadıma, yar, sən düşəndə.
Adətdir, həmişə zar-zar ağlayar
Qəribin yadına vətən düşəndə.

Bir ürək sinədə batıbsa yasa,
Etdiyin cəfalar məgər azdımı?
Sinəmdə min tənə oxu olmasa,
Ürək tənhalıqdan darıxmazdımı?

Bəs sənə vəfasız necə deyim mən,
Hicrində çəkdiyim səfa deyilmi?
Məndən ki cəfanı əsirgəmirsən,
Elə bu özü də vəfa deyilmi?!

Bəxt ulduzu sandım qara gözünü,
Onları üstümdən iraq eyləmə!
Əzizim, amandır, parlaq üzünü
Əğyar məclisinə çıraq eyləmə!

Sənin qəmzə oxun məni yaralar,
Ancaq ki, ölmərəm, yönüm bəridir.
Bağrımın başında olan yaralar
Cününluq dağının qönçələridir.

Bəzən kövrəlirəm, ürək daş deyil,
İndi varlığıma hopan alovdur.
Gözümdən tökülən qanlı yaş deyil,
Sevən ürəyimdən qopan alovdur.

El-aləm danışır mənim sözümü,
İndi ağıl qoyur hər yetən mənə.
Eh, eşqə salmışam özüm-özümü,
Heç düşmən etməzdi etdim mən mənə.

O qara gözlərin önündə dur ki,
Ürəyin sirrini aça, söyləyə.
Hamı vüsal istər, aşiq odur ki,
Hicran bəlasını tələb eyləyə.

Peyman bağlamışdıq ikilikdə biz,
O məndən cəfanı kəm eyləyərmi?
Qafil, nə çaşmısan, axı səbəbsiz
Göz yaşı yanağı nəm eyləyərmi?!

Dünyanın işığı gözümün deyil,
Görmürsən nə qədər onlar itidir?
Məndəki nəfəs də özümün deyil,
Bir gözəl pərinin əmanətidir.

Səbrə nöqtə qoydu qara xalıyla,
Dərmanım tapılmaz, elə xəstəyəm.





Sağaltdı hamını öz vüsalıyla,
Hicran bəlasıyla hələ xəstəyəm...

Qırılmış bir çiçək çətin ki, bitə,
Onu öz əlimlə dərdim, ay təbib!
Özünü nahaqdan salma zəhmətə,
Sən bilən dərd deyil dərdim, ay təbib!

Mənimçün pərişan olduğun yetər,
Həkim, xoşdur mənə yar yolunda qəm.
Aşiqin dərdinə dərman etsələr,
Onun xəstəliyi artar dəmbədəm.

Yanıqlı naləmə qulaq tut mənim,
Elə düşünmə ki, səndən acizəm.
Seyr et göz yaşımı, ey bulud, mənim,
Elə düşünmə ki, səndən acizəm.

Yar bizi yad edib, nə danış, nə din,
O gələn yolları öpüm sevinclə.
Odlu göz yaşımı mən öz sərvimin
Ayağı altına səpim sevinclə.

Ahımdan fələklər titrəyir zağ-zağ,
Çətin ki, bu yoldan dönə, – deyirlər.
Çoxdur eşq oduna tutulan, ancaq
Leyli sənə, Məcnun mənə deyirlər.

Dərdim yüz dərmandan artıqdır, təbib,
Cünunluq yolundan məni ayləmə.
Yar vuran yaraya dərman eyləyib,
Məni şirin zövqdən məhrum eyləmə.

İncə əllərində gül tək solaydım,
Bu xəzan mənimçün bahar, yaz olar.
Min canım olaydı, qurban olaydım
Sənə miniylə də, bir can az olar.

Gəl hər şəffaf suyu bulaq bilmə sən,
Axan gözlərimin qaynar yaşıdır.
Nahaq gizləyirsən üzünü məndən,
Gözlər gözəlliyin məhək daşıdır.

Acı sözlərin də mənə bal dadır,
Odur dərdlərimin dəvası, gözəl.
Sənin o pərişan saçlarındadır
Könlümün quşunun yuvası, gözəl.

Yaxır ürəyimi həsrət, intizar,
Vüsalın gözümdən süzülür dən-dən.
Yəqin ki, yaqut tək qiymətim artar
Bağrımın qanına boyandıqca mən.

Məni əridibdir hicran ələmi,
Nahaqdan danlama, gülüm, özünü.
Ahımın tüstüsü tutar aləmi,
Bircə yol görməsəm parlaq üzünü.

Gözündən könlümə işıq axanda,
Dilim topuq çalır, dəyişir halım.
Bağrım parçalanır sən hər baxanda,
Gündə bir ciyəri de, hardan alım?!

Gözlərim səninçün qanlı yaş tökər,
Mənə rəhmi gələr dilsiz daşın da.
Məcnunda olsaydı fəğanım əgər,
Yuva qurardımı quşlar başında?!

Mən sevda yolunda təkcəyəm, təkcə,
Mənimçün qəm deyil yardan gələn qəm.
Gözəllər cəfanı çox eylədikcə,
Eşqin də ləzzəti artır dəmbədəm.

Səba bu dərdimi yayıb aləmə,
Deyib ki, verirəm eşq yolunda can.





Eşq rüsvalığı ayıbdır demə,
Ay zahid, rüsvayi-aləm olarsan!

Eşqsiz o səda olmazdı neydə,
Gör necə yandırır? – Bir dəm tut qulaq!
Ahımdan ulduzlar alışar göydə,
Muradımın şəmi alışmaz ancaq.

Vurğunu olduğum o nazikbədən
Məni öz ardınca dartır günbəgün.
Bidərd tədbirini eşitdiyimdən
Ürəkdə dərdim də artır günbəgün.

Naləmlə hamını oyadıram mən,
Heç kəs möhkəm yatmır sən yatan kimi.
Hər an vüsalına can atıram mən,
Qərib vətəninə can atan kimi.

O ətirli saçlar dağılıb yenə,
Mişki-Çin də verməz onun buyini.
Ağlım söz kəsəndən vətəndir mənə,
Necə tərk eyləyim yarın kuyini?

Qəlbimə vurduğun yara göynədər,
Ona öz əlimlə mən duz səpmişəm.
Hicrində göydəki ulduzlar qədər
Gözümdən torpağa ulduz səpmişəm.

Sözümü üzbəüz deyərdim sənə,
Yadıma yenə də o günlər düşüb.
Sənin tellərini açdıqca şanə,
Mənim can telimə düyünlər düşüb.

Vəfasız dövrandır verir əziyyət,
Cünunlarda görmə günahı, səhra!
Sən suya həsrətsən, mən yara həsrət,
Sən ey sevənlərin pənahı səhra!

Sözümü pas tutmaz, ötsə də min il,
İlahi, nə qədər odlanım, yanım?
Məndə can qoymayıb bu şeyda könül,
Verim bir gözələ, qurtarsın canım!

Axır ki, sözümə baxmadı fələk,
Vuruldu bir təzə güli-rənayə.
Məni iynə kimi incəldib fələk,
Saldı iplik kimi uzun sevdayə…

Ahımla, naləmlə könül dağladım,
Dərdlər pərvanə tək doldu qoynuma.
Bir sənəm zülfünə könül bağladım,
Cünunluq zənçiri keçdi boynuma.

Hicranı ömrümü etsə də yarı,
Kimsəyə uymadım, – sədaqəti gör!
Qiyamət günündə görməsəm yarı,
Saqi, sən özün gəl qiyaməti gör!

Meh əsdi, titrədi könlümün simi,
Meyvəsiz budağa bar gəldi bəlkə?
Sübhə saxlayıbdır hicran qətlimi,
Səhər açılınca yar gəldi bəlkə?!

Xəyala dalmışam, nədir əlacım? –
Tamarzı qalmışam vüsal dadına.
Qəlbimin dərdini de, kimə açım? –
Mən tək yanan varmı hicran oduna?!

Qəlbim istəyir ki, nur salıb ay tək
Sənin keşiyində gecə dayansın.
Sərv qamətini görübsə külək,
Gülüstan içində necə dayansın?!

O necə sevgidi yandırıb-yaxmaz?!-
Sevənlər imanı, dini neyləyər?!





Qaşlarını görən hilalə baxmaz,
Ay üzünü görən günü neyləyər?!

Qolları qandallı bir çıraq susur,
Gözəlim, baxmırmı sözünə zülfün?!
Üzümə açıqkən sevda qapısı,
Niyə qıfıl vurub üzünə zülfün?!

Boynuma salsa da, hicran qolunu,
Bənzətmə bir quru xəyala məni.
Tərk edə bilmərəm sevda yolunu,
Bu yol yetiribdir kamala məni.

Alovlar püskürən qəlbimin başı
Buxar etməsəydi gözümdə nəmi, –
Göz açıb yümunca, gözümün yaşı
Bir anda tutardı bütün aləmi.

Dərdimi duyana dərd oldu dünya,
Eşqimə bir nəfər gülən qalmadı.
Gözümün yaşında qərq oldu dünya,
Gözümün yaşını silən qalmadı.

Sən gəldin ömrümə ilk bahar kimi,
Sərdim ürəyimi yaz yağışına.
Qaşlarım yelkənsiz qayıqlar kimi
Az qalır qərq ola gözüm yaşına.

Şehmidir bərq vurur gül yanağında? –
Sevincdən kövrələr, bəbəyin dolar.
Tökmə göz yaşını vüsal çağında,
Hicran günlərində gərəyin olar.

Danışa bilmirəm, od tutub dilim,
Göz yaşım sevdalı dənizdir mənə.
Onu bəxş eləyib mənə sevgilim,
Dərdim ürəyimdən əzizdir mənə.

Qəlbimi isidən söz nuru olur,
Ürək arzulayır bar dodağından.
Qasid gətirdiyi söz quru olur,
Qoy onlar süzülsün yar dodağından.

Yarpağa dönübdür titrəyən əlim,
Eşqin havasıyla gör əsir necə?
Yar deyib yanına səhərlər gəlim,
Bilmirmi mənimçün yox gündüz, gecə?!

Zülfünü yığ yana, üzünü görüm,
İsitsin qəlbimi bir qaynar nəfəs.
Yarımın yanında olsaydı yerim,
Kafərəm, cənnətə eyləsəm həvəs.

Eşqimlə həyatım qərq olub zərə,
Bura hər sevənin güzarı düşməz.
Pəncərən önündə durduğum yerə
Min il cənnət quşu uçsa, yetişməz.

Yanımdan bir xəfif külək keçibdir,
Ürəyim – titrəyən payız nanəsi.
Gözlərin könlümü vətən seçibdir,
Şükür ki, nurlanıb qəm viranəsi.

Nasehin dediyi sözə uymayın,
Sevənlər qoy mənim sirdaşım olsun.
Məzarım üstünə heç nə qoymayın,
Yarımın kölgəsi baş daşım olsun.

Məni laləüzlüm öldürdü, dağlar!
Çətin ki, mələklər dadıma yetə!
Ey bulud, sən mənim üstümdə ağla,
Bəlkə kəfənimdə lalələr bitə!

Vuruldum, hörmətim aşağı düşdü,
Qismət özgələrin, ad mənim oldu.





Üzümə həsrətin işığı düşdü,
Hər gözəl canıma bir qənim oldu.

Gözündə şeh gülən körpə bənövşə,
Təşnə olduğumu hardan bilirsən?
Göylərdə mələklər, yerlərdə bəşər
Ağlayır halıma, – sənsə gülürsən.

Rəhmdil görmədim gözəl qızları,
Gül xarsız, gözəllər vəfasız deyil.
Ay ürək, incimə, vəfasızların
Yaxşı ki, həsrəti vəfasız deyil.

Ah çəkdin, ürəyim yarpağa döndü,
Demə bu xəzəlin yiyəsi yoxmuş.
Kölgənin xətrinə torpağa döndüm,
Büllur qamətinin kölgəsi yoxmuş…

Zənginə dönmüşəm səni sevəndən,
Dövlətim göz yaşı, varım göz yaşı.
Yolunun üstündə ucalmışam mən,
Bir eşq ağacıyam, barım – göz yaşı.

Sənin təbəssümün nur oldu qanda,
Qəlbimə yenilməz qüdrət gətirdi.
Qiyməti yox imiş eşqin cahanda,
Göz yaşım ona da şöhrət gətirdi…

Sevgilin yoldadır, daha nə dərdin?!
Ağlama, taleyin üzünə gülsə.
Vüsal müjdəsinə canını verdin,
Bəs nə verəcəksən yar özü gəlsə?!

Yadıma dağların maralı düşdü,
O, mənim ömrümün sultanı oldu.
Güzarım yarımdan aralı düşdü,
Məzarım ayrılıq zindanı oldu.

Meyvə arzuladı divanə ürək,
Təbəssümün kimi nübar görmədim.
Dolandım bağları axar sular tək,
Sərv qamətin tək çinar görmədim.

Ayağın incisə, sinəm üstə gəz,
Tapdala bir xəzan yarpağı kimi.
Mənə elə gəlir, pak ola bilməz
Cənnət ayağının torpağı kimi.

Ürəyim tab etməz həyəcanına,
Qıymaram kədərdən yarım mat ola.
Tez-tez getmirəm ki, onun yanına,
Qorxuram itləri narahat ola.

Cananın əliylə can alınıbdır,
Deşib ürəyimi müjgan şeşpəri.
Kirpiyi oxuyla fəth olunubdur
Eşqin səltənəti, eşqin kişvəri.

Qəlbimi çəkibdir dara gözlərin,
Bərq vurub məhəbbət kəhkəşanında.
Göz qırpıb, bu üzü qara gözlərim,
Məni xəcil edib sənin yanında.

Qəlbimi dünyada kədər yaşatdı,
Mələklər eşqinə göz yaşı tökdüm.
Gözəllər o qədər mənə daş atdı,
Yığıb özüm üçün qəmxanə tikdim.

Sevən ürəyimdə şimşəklər çaxıb,
Adını çağırsam, dilim alışar.
Sönmüş ocağımın yerinə baxıb,
Nəsihət eləmə, külüm alışar!

Nasehin sözünü yaxşı bilirəm,
Aləmi üstümə güldürür mənim.





Əgər mey içməsəm, dərddən ölürəm,
İçəndə nəsihət öldürür məni.

Qısqanclıq odunda alışdı ürək,
Gördüm göz izi var solğun üzündə.
Dadıma çatmasa badə qayıq tək,
Çoxdan qərq olmuşdum qəm dənizində.

Sevgili yardamı çevrilib yada?!
Kim açar qapımı küləkdən özgə?!
Əlimdən iş gəlməz qoca dünyada
Nazlı sənəmləri sevməkdən özgə...

Əgər duya bilsən, gün tək sadəyəm,
Nəsihət eləmə hər səhər mənə.
Özünü öldürmə, tiryəkzadəyəm,
Təsir edə bilmir hər zəhər mənə.

Çiçək aramışam gəzib gülşəndə,
Sevgini başıma bir tac almışam.
Hər gözəl xalına gözüm düşəndə,
Elə bil dünyadan xərac almışam...

Eşq Qaf dağının əyib belini,
Vədəsiz qocalıq haqlayıb bizi.
Şükür, tuta bildik canan əlini,
Məhəbbət şövqlü saxlayıb bizi.

Bəsdir, sərv kimi ucaldın göyə,
Əyil, başın dəyər, doğrudur sözüm.
Dünya qapısından çıxırıq deyə,
Fələk qəddimizi əyibdir bizim...

***

Dözümün rəqibi qorxuya salıb,
Əzmin ürəyinə bir düyün çəkib.

Gözlərin gül üzü görüb zövq alıb,
Cövrünü yaralı ürəyin çəkib.

Nəfəsin çiçəkli bahar kimidir,
Dünya gülşəninə həsrətlə baxır.
Sənin hər bir misran damar kimidir,
Ürəyinin qanı onlarda axır…

Sözünün mənası necə dərindir,
Ruhundur onlara dərinlik verən.
Deyirəm, bəlkə də şeirlərindir
Bağdad xurmasına şirinlik verən…

Xəzan ömrümüzdə ilk bahar oldun,
Nasehin sözünü dinləmərik biz.
Qəm çəkmək işində bizə yar oldun,
Nə qədər dərd olsa, inləmərik biz.

Babam, yetməsən də nazlı yara sən,
Sevən ürəklərə nur ələmisən.
Qoşun çəkməsən də bir diyara sən,
Dünyanı sözünlə fəth eləmisən…

Sağ ol, bəxtiyaram şeirin, sözünlə,
Hər misran qəlbimi nura bələdi.
Tale gözəlləri sənin gözünlə
Görməyi mənə də qismət elədi…

**1972 – 1994**





## KİTABIN İÇİNDƏKİLƏR

### Tanrım ilı üz-üzə

Allahım. Səni unutduğumuz üçün....3
Allahım. Mənimlə haqq-hesab çəkməyə… Bu qədər....4
Mən bu ölümlə. Ağ gül....5
Həvva nənə....6
Diktafona deyilən şeir....8
Zirvəyə dırmanıb....9
Həmərsinlər budaqda. Mənim həyatım....10
Kül altında gizləyə-gizləyə....11
Sübh tezdən. Vaxt....12
Payız. Payız tənhalığı....13
Gözlərin nur aşiqidi. Bir yarpağam ,budağımdan....14
Biz getməklə bilmirəm. Harda riya varsa. Allah dağına baxıb qar verir. İtin toyuğa sözü. Yorğun ayaqlarım....15
Yay səhəri....16
Dəm....17

### Tanrının sevgi payı

Adsız şeirlər....19
Səsin işığı. Adsız şeirlər....24
Yenə girmisən yuxuma....29
Sevgi yurd salan ürəkdə. Gecələr ay tək....30
Meşəni seyr eləyirəm....32
Buluda yazılan sevgi....33
Ulu sevgi ocağında....34
Yasəmən....35
Vəfa....36
Adsız şeirlər....37
Mənə əzizim deyən qız....39
Adsız şeirlər....40
Yuxu. Nar çiçəyi....46
Bu ilki baharın ilk sevgi çiçəyi....47
Bu ilin ilk yaz yağışı....48
Niyə insanların… Güləyən qız....49
Mənim dünyam....50

Bağışla......51
Üzümüz yaza doğrudu. Adsız şeirlər......52
Bu payız......54
Sevgi ilahəsi......55
Sənin sevdalı gözlərin. Adsız şeirlər......56
Bir cüt sevgi adası......57
Oxatan. Nə vaxtsa......58
Sənin gözlərinin cazibəsində......59
Deyəsən. Sən mənim yaralı könlümü. Qəlbimiz murada yetməyib hələ......60
Sən mənim şeirlərimi oxuyanda. Dəyirman öz işindədi......61
Adsız şeirlər. Həyatım......62
Niyə......63
Dibindən su çıxan ağac.Adsız şeirlər......65
Mənim kirpiyimə qonaq gələn qız......67
Adsız şeirlər......68

**Sevgi dünyamızın qaranquşları**

Mən öz taleyimdən razıyam......70
Şair günahı. Bu baharın çiçəkləri. Mən şair olsaydım......71
Sevgi ayrı şeydi, bala......72
Ömür yoldaşımla söhbət. Üç nöqtə......73
Ola bilərmi. Hazırsan......74
Bu yaz yağışında. Cavab istəmirəm sevgimə səndən......75
Titrəyən işıq. Üç daş......76
Ürəkdə bitən ağac......77
Alaq otu. Sənin göz yaşlarının gücünə bələdəm mən......78
Sinəsi bulaqlı qaya. Sənə könül verdim ki......79
Neçə çeşmələrdən içib gəlmişəm......80
Adsız şeirlər.Etibar......81
Çatardımı. Ayrılıq......82
Günəşə boylanan payız çiçəyi. Səninlə söhbət......83
Qəlbimə baxsaydın. Sevgi nəsimi.Şüşə......84
Bilmirəm nə üçün......85
Qələmlə söhbət. Qismət olardımı......86
Ta nə istəyirsən. İkinci "mən"......87
Ağ kağız haqqında üç yozum. Qəlbimdə şam yanırsa......88
Yazırsan ki. Doğru......89
Mənim olacaq. Görəcək......90





Dənizlə söhbət......91
Mənə dəniz bağışlayan gözələ. Dəniz olmaq istəyirəm......92
Mənim dənizim. Dəniz həmişə gözəldi. Qovuşa bilsəydik......93
Araz balığı. Tale qismətimə səni göndərib......94
Eh, nə bilim. Dəyişmərəm......95
Olmasa. Yamac və zirvə......96
Ötrü. Olar......97
Nəyim var......98
Şair sevgilisinin nəğməsi. Öldürdü məni......99
Zarafat. Bu dünyanın bəxtəvəri. Adsız şeir......100
Görmək istəmir. Var imiş. Oğrun baxan bu gözəlin......101
İstəsək də......102
Sevgi çökdürüb diz üstə. Ürəyimə yazılsa da......103
Gedər. Neyləyəsidir......104
Sevdalı günlərin baharı keçdi. Adsız şeirlər......105
Bilirəm......109
Nə vaxtdı......110
Ölümə məhkum olunmuşun nəğməsi. Sürpriz......111
Sən oxuyan şeirlər. Buraxılış gecəsi......112
Mən......113
Dəniz. Mənim sevimli şamım. Kim ayıra bilər axı......114
Çətin keçinə......115
Gözəl. Gileyin haqlıdı......116
Darıxma......118
Sən demə......119
Qəriblik. Ürək sözü......120
Dəniz gözlərinin rəngini aldı. Şəriklər......121
Təskinlik. Çox sağ ol......122
Sən mənim tut ağacımsan......123
Qaytar. Bir gilə üzüm. Sevən ürəyimin nədir günahı......124
Xoş gördük. Ağlatdığım bir gözələ......125
Sevginin bir üzü olar......126
Yaşıdlar. Sən gəldin, sən getdin......127
İlham pərisi. Halımı soruşan gülüm......128
Sevgi yuvası......129
İlahi, kim gəlib gör görüşümə. Qaça bilərdimii sənin önündən......130
Dəniz sahilində baş-başa durduq. İtmiş qələmin nağılı......131
Yerim var. Əgər sevirsənsə......132

Sevdalı nəğmə..........133
Bu sevgi sınağı. Bu sevda..........134
Sən çiçəksən, mən arı. Bir günün xatirəsi..........135
Əzizim. Qara yel, əsmə..........136
Sağ ol. Necə sevirmişəm. Mənim yaz çiçəyim..........137
Bir axşamın xatirəsi. Bu bahar..........138
Dəli sevda başımda. Sözlərimin acığına..........139
Dedin ki, tənhalıq dövrü başlayır. Özündən gizlənə bilməyəcəksən..........140
Nə haqqım. Məni öyrənməyə beş-on il azdı..........141
Doğma torpağım kimi..........142
Ay qızlar..........143
Sevgi ilə yoğrulmasa. Ay üzlümə..........144
Dedim, dedi. Sevgini sevgiylə unutdurarlar..........145
Oldum..........146
Sevgi dördlükləri..........147
Rübailər..........149
Bir gözələ. Haqqım varmı. Sirdaş. Qorxu. Mükafat..........151
Yaddaş. Zarafatla... Qurbanlıq. Kibrit çöpü..........152

**Səni bircə duyan varsa**

Sən məni qınama. Bəxtimin ülkəri deyərdim sənə..........153
Bir qadının sözlərindən. Ay uzaq dağlardan gələn çiçəyim..154
Sevgi qanadında..........155
Dilimdə bitən çiçək. Ürəyin sehrli qapıları var..........156
Bir həzin xatirə..........157
Gözaltı etdiyim qızlar. Səni bircə duyan varsa..........158
Türk gözəli. Sevgi olacaq..........159
Füzuli kimi. Bizim pəncərəmiz üzbəüz düşüb..........160
Sıldırım çiçəyi..........161
Nə vaxtdandır sevgi şeiri yaza bilmirəm..........162
Mən səni sevirdim..........163
Görüş. Kor deyil nədir..........164
Əlinə avtoqraf yazdığım gözəl. Əmanət..........165
Hər bahar gələndə..........166
Sevgi payım..........167
Lalə. Xal. Çiçəklər içində..........168
Təşnəyəm. Yaraşır..........169
Cəza. Əgər məhəbbət olmasa..........170





Gələsən..........171
O zaman mən sənə könül verəndə..........172
Söz verməmişdim..........173
Sənin ürəyinin başına dönüm. Neyləyə bilər..........174
Qorxuram gözümün yaşı quruya..........175
Nə yaxşı.... Mənim göz yaşlarım qurumaz daha..........176
Gümüşü gecə..........177
İki gözəl..........178
...bir gözələ. Sevgi qanadında..........179
Dənizə baxan gözəl..........180
İstəyirəm..........181
Şairi sevən gözəl..........182
Məni duyardınmı..........183
Səni duymasaydım..........184
Xallı qız. Nə xeyri..........185
Çəkəcək. Nə yaxşı ki, Siz çıxdınız qarşıma..........186
Şair öldürən gözəl. Naz..........187
Məhəbbət yaşayacaq. Bir ovuc duz..........188
Həsrət ilə gözləyirəm yolunuzu. Dördlüklər..........189
Neyləyim..........190
Ay üst mərtəbədən boylanan gözəl..........191
Ay gözümə baxan gözəl. Adsız şeirlər..........192
O qız paltar sərirdi..........193
Oldu. Üstə..........194
Mərmər qapım döyülür..........195
Gözəlliyin birinci şərti. Payız kəsibdir qapımı..........196
Çiçəyə döndü. Sevgi kədəri..........197
Ölüm mələyi. Hərdən səni görürəmsə..........198
Çətin ki gələrik üz-üzə bir də..........199
Təbəssüm işığında. Əgər sən görsəydin özün özünü..........200
Çiçək körpüsü. Təzəcə otuxan quzum..........201
Sevməyirsə. Kim sevmirsə. Mənə elə gəldi ki..........202
Ürəyimdə yatan sevgi..........203
Niyə zülm edirsən özün özünə. Bir də ayıldıq ki..........204
Bir gözələ. Çiçəklər dəriləndə solsa da. Zirvədən o yana....205
Təbiətin qoynunda..........206
Böyürtkən kolu olum. Quşum qondu bir gözələ yamanca....207
Qollarım arasında..........208

Gözlərinin həsrətində. Mən sevda dənizində. Biz gəldik üz-üzə..........209
Nəğmə müəllimi..........210
Tale qonşu saldı yenidən bizi. Bahar gələr..........211
Kitabxanaçı. Ay bu düzlərin turacı..........212
Sənin eşqinlə. Hayana baxırmış mənim gözlərim..........213
Bu sevdanın yolu..........214
Küləkli havada..........215
Bir anın sevinci. Üzümə elə baxma..........216
Mənim taleyimə gözlərin düşüb. Sən baxsan..........217
Bir havaya qol götürdük ikimiz. Ay cüt gəzən bəxtəvər..........218

**Qəm karvanı** (poema)..........212

*Bu kitabımın çapında mənə yardımçı olan dostlarıma, ilhamımı sevdalı sabahlara səsləyən bütün insanlara dərin təşəkkürümü bildirirəm.*

**Müəllif**





*Ofset üzrə çapçı*
**Xəyyam Aydınoğlu**

*İstehsalat müdiri*
***Nərmin İsabəyli***
*Sex müdiri* ***Günel Cəfərli***
*Çapçı* ***Rüxsarə Hüseynli***
*Kompüterçilər* ***Nazilə Cəlili,***
*Baş mühasib* ***Həlimə Qasımlı***

**Dizayner Leyla Salamova**
**Korrektor Sevda Hüseynova**

*Çapa imzalanıb* ***30.12.2006***
*Formatı* ***60 x 84 1/16***
*Fiziki çap vərəqi 15*
*Sayı 300*



Qəlbimiz murada yetməyib hələ,
Qarşıdan ağ günlər səsləyir bizi.
Nə yaxşı ömrümüz bitməyib hələ,
Sevdalı sabahlar gözləyir bizi.

